Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu

SOLMAZ QAŞQAY

# ÖN ASİYADA MİQRASİYA PROSESLƏRİNƏ DAİR

*Dr.SOLMAZ QAŞQAYIN*
*K İ T A B X A N A S I*

– 10386 –

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2009

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Elmi Şurasının qərarı ilə çap olunur*

Redaktor t.e.n. E.Ə.Məhərrəmov

Rəyçilər T.e.n. R.S.Məlikov
T.e.n. İ.M.Nəcəfova

**Qaşqay Solmaz Mirtağı qızı.**
**Ön Asiyada miqrasiya proseslərinə dair.**
Bakı, "Şərq-Qərb", 2009, 120 s.

Əsərdə Yaxın Şərqdə qədim xalqların dilinə və tarixinə təsir edən miqrasiya prosesləri haqqında məlumat verilir.

**ISBN 978-9952-34-396-0**

© Qaşqay S.M. 2009



## Giriş

Yaxın Şərq regionunda yerləşən müasir dövlətlərin əhatə etdiyi ərazilərin tarixi ən qədim dövrlərdən həm maddi mədəniyyət baxımmdan, həm də yazılı mənbələrdə nisbətən yaxşı işıqlandırılmışdır. Burada müxtəlif atropoloji tipli və etnik tərkibli, dilləri əsasən üç iri dil qrupuna – sami, iran və türk dilləri qruplarına aid edilən xalqlar yaşaır.

Bu ərazilərdə minilliklər ərzində keçən proseslərin tədqiqi göstərir ki, vaxtaşırı əhalinin etnik tərkibi burada qaynayıb-qarışır, dəyişilir, mövcud dillər tənəzzülə uğrayır, yeniləri meydana çıxır, təsərrüfat və mədəniyyətdə meydana çıxan yeniliklər qəbul və sintez olunur, yerli əhali tərəfindən yaddaşlarda saxlanılıb, əfsanələrdə, ravayətlərdə, dövlətlərin rəsmi yazılarında və maddi mədəniyyət nümunələrində öz əksini tapır.

Mütəmadi olaraq getdikcə daha çox əldə olunan yeni materiallar, tapıntılar, yazılı mənbələr biliklərimizi artırır, elmdə irəli sürülən və bizim artıq öyrəşdiyimiz fikirləri, fərziyyələri ya təstiqləyir, ya da rədd edib, araya yeni problemlərin çıxmasına səbəb olur.

Tədqiqat üçün sərəncamımıza daxil olan materiallar müxtəlif istiqamətlərdə uzun müddət araşdırmalar aparan şərqşünas alimlərin böyük əməyi və zəhməti nəticəsində əldə olunub. Onların bir-birlərindən asılı olmadan, ayrı-ayrı abidələr üzərində apardıqları çoxillik tədqiqatlar nəticəsində ən kiçik məsələləri də imkan daxilində təfərrüatına qədər öyrənmələri ümumiləşdirici fikirlər irəli sürməyə gətirib çıxarır və gedən proseslərin ümumi qanunlara uyğun inkişaf etmələrini göstərir. Bu kitabı yazmaqda məqsədimiz qədim dövrün tarixi ilə maraqlananları müxtəlif dillərdə yazılmış elmi tədqiqatlar əsasında qəbul edilən elmi nailiyyətlərlə tanış etməkdir.

İqtisadi məsələlərə toxunmadan, mövcud materialların imkanı daxilində Yaxın Şərq ərazilərində yaranmış dövlətlərin çiçəklənmə dövrlərinin qısa tarixini, onların dünya sivilizasiyasına verdikləri töhfələri, dil və etnik cəhətdən bir-birləri ilə qaynayıb-qarışmalarını, süqutetmə səbəblərini işıqlandırmağa çalışmışıq.

Bütün bunlar göstərir ki, burada mövcud olan dövlətlərin bəzilərinin tarixi son dərəcə parlaq olsa da belə, qədim dövrlərdən onların, demək olar ki, hamısı eyni tarixi yolu keçmişdir.

Biz Yaxın Şərqdə keçən prosesləri xronoloji cəhətdən ardıcıl verməyə çalışmışıq, bununla belə, bəzi hallarda müəyyən ərazilərdə hadisələrin bir-biri ilə sıx bağlı olduğu səbəbindən, yenidən tarixin ilk çağlarma qayıtmalı olmuşuq.

Azərbaycan ərazisində, eləcə də Qafqazda baş verən proseslər, onların coğrafi məkanına görə Yaxın Şərqdə keçən proseslər ilə yüksək dərəcədə əlaqəli olmuşdur. Yazılı mənbə məlumatlarına malik olmayan dövrlərin tarixini burada, eləcə də qonşu ərazilərdə arxeoloji qazıntılar nəticəsində əldə edilmiş sinxron materiallar əsasmda öyrənmək olur.

Əsərin yazılışı prosesində ümumiləşdirilmiş və ümumən elmdə qəbul olunmuş ədəbiyyata üstünlük verilmişdir.

Bu əsərin yazılmasında Rusiya Federasiyası Elmlər Akademiyası Sankt-Peterburq Şərqşünaslıq İnstitutunun və Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun mənə yardım edən əməkdaşlarına minnətdarlığımı bildirirəm.

* * *





# CƏMİYYƏTİN MADDİ-MƏDƏNİYYƏT CƏHƏTDƏN KEÇDİYİ MƏRHƏLƏLƏR

Hələ qədim zamanlardan dünyada baş verən və Avropa ilə Asiyanm geniş ərazilərini əhatə edən miqrasiya prosesləri, onların səbəbləri həmişə maraq doğurur. Elə bu səbəbdən də onlarm öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Şərqdən Qərbə və əks istiqamətdə baş verən miqrasiya axınları müasir xalqların formalaşması mərhələlərinə böyük təsir göstərmişdir. Bu proseslərin yazılı mənbələrə, arxeoloji və linqvistik materiallara əsaslamlaraq öyrənilməsi müxtəlif xalqların formalaşma qanunauyğunluqlarını, xüsusiyyətlərini və onların müəyyən zaman kəsiyində dünya mədəniyyətinə verdikləri töhfələrin aşkar edilməsinə imkan verir.

Böyük insan qruplarınm yerdəyişməsi ümumi tarixin qanunlarından biridir. Bəşəriyyətin təşəkkülünün ən qədim dövrlərindən ayrı-ayrı xalqlar müxtəlif səbəblər üzündən öz ərazilərini tərk edir, yaşamaq üçün əlverişli şəraiti olan ərazilərə köçürdülər. Miqrasiya zamanı bir xalq keçdiyi ərazinin xalqlarını da yerindən tərpədib özü ilə aparır, onlarla qarışır, yeniliklər əmələ gətirirdi.

Miqrasiyamn səbəbləri olduqca müxtəlif idi. İnsanm tamamilə təbii şəraitdən və təbii ehtiyatlardan asılı olduğu dövrdə, yəni mənimsəmə iqtisadiyyatı dövründə, miqrasiya bütövlüklə ekoloji amillərdən asılı idi. Növbəti mərhələdə, yəni əkinçiliyin inkişafı və heyvanların əhliləşdirilməsi dövründə, insan öz təsərrüfatmm genişləndirilməsi məqsədi ilə əlverişli ərazilər axtarırdı.

Müəyyən ərazidə təsərrüfatın inkişafı əhalinin artmasına səbəb olur və onlarm təsərrüfatı az inkişaf etmiş, əhalisi seyrək məskunlaşmış əyalətlərin hesabına genişləndirilməsinə şərait yaradırdı. Bu zaman həm dinc, həm də qarşıdurma yolu ilə yerli əhali öz ərazilərindən sıxışdırılıb çıxarılır, ya da as-

similyasiyaya uğrayır, bəzən isə yeni gələn qəbilələr yerli əhali arasında əriyib itirdi. Assimilyasiya olunmuş etnoslar, bir qayda olaraq, yeni gələn etnoslara həm tarixi-mədəni, həm də bioloji irslərini verirdilər. Yeni qəbilələr yerli əhalinin maddi mədəniyyət və təsərrüfat nailiyyətləri ilə bərabər onların, müəyyən dərəcədə, antropoloji xüsusiyyətlərini də mənimsəyirdilər. Digər tərəfdən, gəlmələr öz yeniliklərini və nailiyyətlərini gətirirdilər. Son nəticədə yeni mədəni, dini və sosial-siyasi institutlar meydana gəlirdi.

Müxtəlif ərazilərin ekoloji və tarixi xüsusiyyətlərindən asılı olaraq, sonrakı mərhələlərdə istehsal iqtisadiyyatının özünəxas formalarının yaranması və izafi məhsulun çoxalması əhalinin kəskin surətdə artmasına səbəb olmuş və hərb yolu ilə onların yeni əraziləri zəbt etmə imkanlarını artırmışdı.

Miqrasiya prosesləri tarixin bütün inkişaf mərhələlərində – ilk dövrlərdə arxeoloji materiallar, sonralar isə daha aydın və konkret olan yazılı mənbələr əsasında müşahidə edilir. Bu mənbələr bəzi dövrlərdə bir-birini tamamlayaraq, baş verən proseslərin dəqiq araşdırılmasına imkan verir. Onların müqayisəsi və analizi əldə olan subyektiv məlumatların mümkün qədər dəqiqləşdirilməsinə və ayrı-ayrı hadisələrin tarixinin düzgün müəyyənləşdirilməsinə imkan yaradır.

«Şərq» termini ilə erkən vaxtlar Roma imperiyasına daxil olan ölkələr – əyalətlər adlandırılırdı. Sonralar bu termin elmdə də qəbul olundu. Bu, nəinki coğrafi, həm də əsas etibarilə sosial-iqtisadi anlayış idi və onun ayrı-ayrı ərazilərində inkişaf qeyri-bərabər getsə də, özünəməxsus əlamətləri və xüsusiyyətləri ilə səciyyələnsə də, inkişaf ümumi tarixi qanunlara uyğun gedirdi.

Elmdə Şərq ərazisi əlahiddə Uzaq Şərq və Yaxın Şərq, eləcə də onları qovuşduran Orta Şərq rayonlarına bölünür. Tarixdə istifadə olunan "Qədim Şərq" termini İran körfəzi, Xəzər, Qara və Aralıq dənizləri arasında yerləşən ərazilərə və Şimali Afrikanın həmhüdud ərazilərinə aid edilir. Daha geniş məfhum kimi bu ərazilər Ön Asiya adlanır (müasir dövrdə





Yaxın Şərq termini Aralıq dənizinin şərq sahili boyu yerləşən məhdud ərazilərə aid edilir).

Əhalinin miqrasiyası (miqro – latın sözü olub, köçmək deməkdir), yəni insanların yaşayış yerinin dəyişməsi aşağıdakı şəkildə olur:

1) qayıdışsız – bu zaman müəyyən bir etnos köçərək həmişəlik öz tarixi ərazisini tərk edir;
2) müvəqqəti köçmə;
3) mövsümi hərəkət.

Qayıdışsız miqrasiya zamanı, özündən asılı olmayaraq, miqrantların yolu üstündə məskunlaşmış müxtəlif etnoslar (etnos – yunanca sülalə, xalq; tarixən əmələ gəlmiş insanların sosial qruplaşması; etnogöstəricilər – dil, şüur, mədəni-məişət quruluşu, təsərrüfat durumu və s.) da köç burulğanına düşə bilər. Miqrasiya zamanı yeni gəlmiş tayfalar hər hansı bir ərazidə çoxdan məskunlaşmış və ehtimal ki, vaxtilə özləri də tarixən yaşadıqları başqa ərazilərdən köçüb gəlmiş xalqlarla qarışır.

Müqayisəli arxeoloji və linqvistik məlumatlar dilin və mədəni təbəqələrin aşkar edilməsinə və müxtəlif xalqların erkən məskunlaşma ərazilərinin təyin edilməsinə imkan verir.

Arxeologiya elmi (yunanca arxe – qədim, loqos – söz) bəşəriyyətin tarixi inkişafının, onun mənəvi mədəniyyətinin, incəsənətinin və texniki uğurlarının bərpa edilməsinə imkan verir.

Hələ antik dövrdən, Yunanıstanın və Romanın yüksəlişi zamanından başlayaraq bütün tarixi dövrlərdə qədim abidələrə maraq mövcud idi. Lakin XIX əsrdən etibarən arxeologiya müasir anlamda bir elm kimi inkişaf etməyə başladı. Arxeoloqlar təsadüfi tapıntılardan və soyğunçu qazıntılardan sistemli və dəqiq qazıntılara və tədqiqatlara keçdilər.

Çoxlaylı abidələr araşdırılan mövzu üçün mühüm əhəmiyyət kəsb edir. Bir-birinin üzərini ardıcıllıqla örtən mədəni təbəqələr uzun dövrlər ərzində stratiqrafiyanı – mədəniyyətlərin xronoloji şəkildə dəyişməsini izləməyə imkan verir. Çoxtəbəqəli abidələr sayəsində birtəbəqəli məskənlərin və nekro-

polların materialları müqayisə edilə və onlarm tarixi müəyyən edilə bilər.

İlk yazılı mənbələr meydana gəlməzdən əvvəl maddi mədəniyyət abidələrində tapılmış ayrı-ayrı əşyaların səciyyəvi əlamətlərini, onların əmələgəlmə xronologiyasını, dəfn mərasimlərinin oxşar və ya fərqli cəhətlərini və s. əsas götürərək, miqrasiya prosesləri haqqında fikir söyləmək olar.

İstifadə funksiyasından asılı olaraq, qablar və alətlərin forması genetik cəhətdən ünsiyyətdə olmayan cəmiyyətlərdə ehtiyac çərçivəsində müstəqil istehsal edilə bilər. Əşyanın funksional xüsusiyyətləri geneoloji əlamət hesab edilə bilməz. Əksinə, müqayisə olunan əşyaların ornamental və digər ikinci dərəcəli əlamətlərinin oxşarlığı (təsadüfləri və mənimsəmələri istisna etməklə), bu, əşyaları yaradan mədəniyyətlərin genetik və yaxud digər üzvi əlaqələrinin mövcud olmasını sübut edir. Hər bir xalqın incəsənəti ancaq onun özünə məxsusdur. Keramik qabların forması müxtəlif üslublarla hazırlanmış və onların üzərinə vurulan geometrik naxışlar və təsvir olunan səhnələr (məsələn, ov, məişət və dini səhnələr, insan və heyvanların təsviri) ətraf mühiti nəzərə almaqla müxtəlif qayda və üsullarla çəkilmişdir.

Yerli əşyalar arasında mübadilə, hədiyyə, qarşılıqlı təsir, bənzətmə və s. nəticəsində əldə edilmiş yabançı incəsənət əşyalarına rast gəlinə bilər – arxeoloqlar bu əşyaları öyrənib, bir-birindən fərqləndirib, tarixini düzgün təyin ediblər. Müasir elmin nailiyyətləri əsasında onlarm tarixi kimyəvi analizlərin aparılması üsulu ilə təsdiqlənir. Digər tərəfdən, bəzi yerli və gətirilmə əşyalar (məsələn, bəzək əşyaları) uzun müddət istifadə olunduqlarma görə, onların tarixi digər əşyalar və yaxud üzərlərində aşkar olunan yeniliklər və təkmilləşdirmə izlərinə əsasən təyin edilə bilir. Müəyyən ərazidə dəyişiklərin baş verməsini dəfn mərasimində olan yeniliklər, məsələn, dəfn kamerasının quruluşu, meyidin qoyuluşu, avadanlıq və s. sübut edir. Yeni silah tiplərini isə onların meydana çıxmasının yalnız birinci mərhələsində nəzərə almaq olar, çünki silahı əks tərəfin əhalisi çox tez mənimsəyir.





Miqrasiya prosesləri az, ya çox intensivliklə qədim zamanlardan baş verir. Əldə edilən maddi mədəniyyət abidələrində bu prosesləri mümkün qədər izləmək mümkündür.

Yaxın Şərq, eləcə də Qafqaz insanm, cəmiyyətin formalaşması və təkamülünün qədim ocaqlarmdan biridir. Müxtəlif dövrlərdə baş verən qəbilə və siyasi birləşmələri proseslərində gah bütün, qah da parçalanmış şəkildə inkişaf edən Cənubi Qafqaz vilayətləri, ilk əmək aləti kəşf olunandan dövlətçiliyin yaranmasına qədər, mədəniyyətin bütün inkişaf mərhələlərini keçmişdir.

Əlverişli iqlim şəraiti, zəngin təbii ehtiyatlar, xüsusilə ilkin əmək alətləri və silahın hazırlandığı dəvəgözü və çaxmaq daşlarının mövcudluğu burada insanın inkişafına təkan vermişdir. Cənubi Qafqaz çöllərindəki torpaq qatınm isti subtropik iqlim şəraitində ot, kol və ağaclarla örtülməsi burada müxtəlif heyvanlarm yaşamasma şərait yaradırdı ki, onlarm arasmda insanabənzər meymun da ola bilərdi. Qərbi Azərbaycanla Gürcüstanın sərhədində, Kaxetiya ərazisindəki Udabno adlanan yerdə əldə olunan tapmtılar bu barədə məlumat verir. Burada tapılmış mükəmməl insana bənzər meymuna məxsus alt çənə sümüyünün bir hissəsinin və iki dişin morfoloji əlamətləri göstərir ki, onlar insanın əcdadı da ola bilərdilər. 7-8 milyon il əvvəl yaşamış bu antropoid Udabnopitek adlandırılmışdır.

Tiflis şəhərindən 80 km cənub-qərbdə, gürcülərin Dmanisi adlandırdıqları Qarayazıda 1,8 milyon il əvvəl yaşamış Homo erektus – yəni düz gəzən adam aşkar edilmişdir.

Qədim insanlar çay sahillərində, bulaqlara yaxm, əlverişli təbii müdafiəsi olan sığmacaqlarda məskən salırdılar.

Arxeoloji qazmtılar nəticəsində Azərbaycanm Fizuli rayonu ərazisində yerləşən çoxtəbəqəli Azıx mağarasında ibtidai insan məskəni aşkar edilmişdir. Azıx mağarası dünya arxeologiyasında xüsusi yer tutur. Quruçayın sol sahilində, dağ yamacında, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşən bu mağara 1,2 milyon il əvvəl burada yaşayan insanlar tərəfindən məskunlaşdırılmış və sonralar həmin mağara ya-

şayış məskəni kimi tərk edilmişdır.

Quruçay mədəniyyəti adlandırılan bu unikal abidənin 13,5 m qalınlığında mədəni təbəqəsi paleolit dövrünə aid on qatdan ibarətdir. Orta aşelə aid edilən V qatda insan çənəsi də tapılmışdır. Bu çənə, təqribən 350 min il bundan əvvəl yaşamış 18-22 yaşlı bir qadına məxsus olmuşdur. Arxantroplar içərisində müəyyən əlamətlərinə görə seçilən bu adam elmi ədəbiyyata Azıxantrop – Azıx adamı adı ilə daxil olmuşdur.

Azıx adamlarının əsas məşğuliyyəti yığıcılıq və ovçuluq idi. V təbəqədə 45 növ heyvana və quşa məxsus sümük tapılmışdır. Onlarm içərisində mağara ayısına məxsus kəllələr xüsusilə maraq doğurur. Bir kəllənin üzərindəki səkkiz cızıq azıx adamlarının hesabı bildiklərini göstərir. Kəllələrin qaya arasında gizli yerdə qoyulması artıq ilk dini təsəvvürlərin əmələ gəldiyinə dəlalət edir.

Paleolit dövrünə aid insan məskənləri Azərbaycanda Tağlar, Daşsalahlı, Qazma və Buzeyir mağaralarında; Gürcüstanda Sakajiya, Devis-Xvreli və b.; indiki Ermənistanda Catkran – Çatıqıran, Nurnus və b. mağaralarda aşkar edilmişdir.

Orta paleolit Azərbaycanda çoxtəbəqəli Tağlar mağarasının materialları ilə təmsil olunmuşdur. Bu mağarada insanlar 100 min ildən 35 min il bundan əvvələdək məskunlaşmışlar. Tağlar qrupuna aid incəliklə işlənmiş əmək alətləri bütün Yaxın Şərq ərazilərinə yayılıb.

35-12-ci minillikləri əhatə edən üst paleolit dövründə artıq incəsənətin rüşeymləri yaranmağa başlayır. Daşdan və sümükdən hazırlanmış əşyalar üzərinə naxışlar vurulur. Xüsusən qadın rəsmlərinə daha çox təsadüf olunur ki, bunu da qadmm cəmiyyətdəki böyük rolu ilə əlaqələndirmək olar. Bu dövrdə öz inkişafının ən yüksək mərhələsinə çatan insan Homo sapiens – "düşünən adam" kimi xarakterizə olunur. Qafqazın paleolit abidələri, Zaqroş və Levant abidələrinin materialları ilə çoxlu ümumi cəhətlərə malik olaraq, qədim mədəni inkişafın Ön Asiya qolunu təmsil edir.

E.ə. XIII-IX minillikləri əhatə edən mezolit və e.ə. VIII-





VI minillikləri əhatə edən neolit dövrü abidələri Van və Urmiyə gölləri ətrafındakı ərazilərə qədər, Qara və Xəzər dənizləri arasındakı bütün Mərkəzi və Cənubi Qafqazda aşkar olunmuşdur. Mezolit dövründə ox və kaman kəşf edilmişdir. Bu nailiyyət, öz növbəsində mənimsəmə təsərrüfatından – yığıçılıq, ovçuluq, balıqçılıq təsərrüfatından istehsal təsərrüfatına keçməyə şərait yaratdı. Bir sıra heyvanlar əhliləşdirildi və dənli bitkilərin becərilməsinə başlanıldı. Tədricən əkinçilik nəzərə çarpacaq dərəcədə genişləndi.

Neolit dövründə daş alətlər təkmilləşdirilir, əkinçi-maldarlıq təsərrüfatı inkişaf edir, gil məmulatların hazırlanması və bişirilməsinə başlanılır və bununla əlaqədar yeni təsərrüfat sahələri – dulusçuluq, toxuculuq və s. meydana gəlir. Mezolit və neolit dövrü insanlarının mənəvi mədəniyyəti haqqında qəbir abidələri, zövqlə hazırlanmış məmulatlar, qayaüstü rəsmlər və s. təsəvvür yaradır, qadın-ana və əcdadların ruhuna inam kultu, təbiət qüvvələrinə sitayiş və ölümdən sonrakı həyata inam haqqmda məlumat verir.

E.ə. VI-IV minilliyin ortalarınadək dövrü əhatə edən eneolit Cənubi Qafqazın bir çox abidələrində aşkar edilmişdir. Bu dövrdən başlayaraq insanlar metaldan da istifadə etməyə başlayırlar. Azərbaycanda ilk dəfə təmiz misdən hazırlanmış muncuqlar, sancaqlar, bıçaq və s. Naxçıvan şəhərindən 8 km şimal-şərqdə yerləşən I Kültəpə abidəsinin alt təbəqəsində aşkar edilmişdir.

Eneolit abidələri Yaxm Şərqin bir sıra yerlərində aşkar edilmişdir.

Əldə edilən arxeoloji materiallar eneolit dövründə artıq oturaq əkinçilik yaşayış məskənlərinin formalaşdığını, əkinçilik və maldarlıq istehsal təsərrüfatının yarandığını göstərir. Yaşayış yerlərində təsərrüfat alətləri – dən daşları, toxa, dişləri dəvəgözüdən hazırlanmış oraq və s. alətlər aşkar edilmişdir.

Keramika məmulatına tələbatın artması xüsusi dulusçu sobalarının yaranmasına gətirib çıxarır. Gil qablar yapma bəzəklərlə, cızma və boya ilə naxışlanır. Tikintidə əsasən çiy

kərpicdən istifadə olunurdu, lakin onunla yanaşı bəzi tikililərin bünövrəsi daşla hörülürdü. İrihəcmli tikililərdə pəncərə və qapı yerləri qoyulurdu. Otaqların suvanmış divarları qırmızı rənglə boyanır. Əsasən dairəvi, qismən də dördbucaqlı planda yaşayış yerləri inşa edilir.

Erkən tunc dövrü IV minilliyin ortalarından III minilliyin son rübünə qədər olan bir mərhələni əhatə edir. İlk tapılma yerinə görə Kür-Araz mədəniyyəti adlandırılan bu dövr faydalı qazmtılardan geniş istifadə olunması və metallurgiya sahəsindəki nailiyyətlərlə xarakterizə olunur. İnsanlar misə müxtəlif metallar qatmaqla tunc əldə etməyi öyrənmişlər. Mərkəzi və Cənubi Qafqazm təbii ehtiyatları olan arsen, sürmə və nikeldən ərinti kimi istifadə etmək misin ərimə temperaturunu aşağı salmağa və onun möhkəmliyini artırmağa imkan verirdi. Tökmə üsulu ilə hazırlanan məmulat əlavə olaraq isti və soyuq döymə ilə çox yüksək ustalıqla hazırlanırdı. Ərinti kimi istifadə olunan və daha keyfiyyətli tunc almağa imkan verən qalay çox uzaqlardan gətirilirdi ki, bu da qədim zamanlarda ticarət əlaqələrinin mövcud olduğunu sübut edir. Tuncdan silah, müxtəlif bəzək əşyaları və təsərrüfat alətləri hazırlanırdı. Qırmızı astarlı yüksək keyfiyyətlə hazırlanmış qara cilalı qablar bu dövr üçün xarakterikdir. Bu qablar əsasən basma, kəsmə və yapma üsullarla naxışlanmışdır.

E.ə. III minillikdə bu ərazilərdə yerdəyişmələr dalğası nəticəsində Kür-Araz mədəniyyəti Dağıstan, Cənubi Qafqaz, Şimal-qərbi İran, Şərqi Anadolu, Suriya və Fələstinə qədər geniş ərazilərə yayılır. Ehtimal olunur ki, bu mədəniyyətin belə geniş ərazilərə yayılmasına səbəb istehsal təsərrüfatınm yüksəlişi və texnoloji nailiyyətlər nəticəsində insanların sayca çoxalması olmuşdur. Yaşayış yerləri əvvəlki dövrlərə nisbətən daha geniş ərazini əhatə edir, bəzi məskənlər isə müdafiə divarları ilə əhatə olunurdu. Yığıcılıq və ovçuluq öz əhəmiyyətini itirməsə də, təsərrüfatın əsas sahələri əkinçilik və maldarlıq hesab olunurdu.





Orta tunc dövründə – III minillyin sonu – II minilliyin üçüncü rübündə böyük etnik yerdəyişmələrin baş verdiyi ehtimal olunur; hərçənd bu haqda fikir müxtəlifliyi mövcuddur. Düzənlik ərazilərdə yaşayış məskənlərinin sayı azalır, insanlar müdafiə üçün əlverişli olan dağlıq və dağətəyi ərazilərdə məskən salır. Bu zaman təsərrüfatda yaylaq heyvandarlığı daha üstün rol oynamağa başlayır. İstehsal qüvvələrinin yüksəlişi əlavə ərzağın toplanmasma səbəb olur ki, bu da öz növbəsində kəskin sosial təbəqələşməyə gətirib çıxarır. Kür-Araz mədəniyyəti öz lokal xüsusiyətləri olan və müxtəlif istiqamətlərdə inkişaf edən bir neçə mədəniyyətə parçalanır.

Orta tunc dövrü Azərbaycanda Mil düzü abidələrində – Üzərliktərə, Borsunlu və b., Muğan – Mişarçay, Qarabağ, Dəvəçi, Abşeron və Qobustan abidələri ilə təmsil olunmuşdur. Naxçıvan abidələrində aşkar edilən boyalı qablar mədəniyyətinin də özünəməxsus xarakterik əlamətləri vardır. Bu mədəniyyətin keramikası Cənubi Azərbaycanın Urmiyə gölü hövzəsi abidələrində – Həftəvantəpə, Göytəpə və s. yayılan keramika ilə ümumi xüsusiyyətlərə malikdir.

Gürcüstan ərazisində orta tünc dövrü Kolxidanm aran və aşağı dağətəklərindəki yaşayış yerləri və bir çox rayonlarında – Trialeti, Şulaveri, Samtavro, Lilo və s. aşkar edilmiş kurqanlarla təmsil olunur. Kurqanlardan əldə olunan keramika çərtmə və nöqtəli naxışları olan qara cilalı qablarla və üzərində qara və qəhvəyi boyaqla naxışlanmış qırmızı gilli qablarla xarakterizə olunur. Zəngin kurqanlarda çoxlu silah, qəşəng bəzədilmiş qızıl və gümüş məmulatı aşkar olunmuşdur. İndiki Ermənistan ərazisində də Trialeti mədəniyyəti ilə bağlı Karaşamb (Qaraşam), Kirovakan (Qarakilsə), Aruça və b. abidələr aşkar edilmişdir. Göyçə gölü ətrafı rayonlarda özünəməxsus xüsusiyyəti olan Təzəkənd (Karmir-Berd) mədəniyyəti yayılmışdır.

Son tunc və ilk dəmir dövründə maddi mədəniyyətin inkişafı davam edir, təsərrüfatın ayrı-ayrı sahələrində əldə edilən nailiyyətlər insanların imkanlarını genişləndirir və qəbilələrarası mübadilə və ticarət daha da intensiv şəkildə inki-

şaf edir. Müxtəlif təyinatlı mükəmməl silahlar meydana çıxır, əmək alətləri təkmilləşir, güclü müdafiə divarlarma malik böyük şəhərlər salmır. Qəbilələrin birləşməsi tədricən öz dini və mədəni mərkəzləri olan dövlətlərin yaranmasına gətirib çıxarır. Bu dövrdə Qafqazda öz lokal variantları olan çoxlu sayda müstəqil arxeoloji mədəniyyətlər – Xocalı-Gədəbəy, Göyçə-Üzərlik, Trialeti, Gəncə-Qarabağ, Qayakənd-Xoroçoy mədəniyyətləri meydana çıxır.

Cənubda – Yaxın Şərq ərazilərində bir sıra mədəniyyətlər əmələ gəlir; onlar artıq III minillikdən yazılı mənbələrlə işıqlandırılır.

## Dillər haqqında ümumi məlumat

Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar iqtisadi inkişaf, tikinti və sənətkarlıq sahəsində olan nailiyyətləri, dəfn mərasimlərini və incəsənət nümunələrini izləməyə imkan verir. Yazılı mənbələr meydana çıxandan sonra, dövlətlərin, şəhərlərin, məbədlərin, ilahilərin və bütün bunları yaradan xalqların öz adları bizə məlum olur. Onlar xalqlararası münasibətlər barədə, bəzi hallarda yeni etnoslarm meydana gəlməsi, köçmə vaxtı və yolları haqda və s. xəbər verir.

Yazılı məlumatları öyrənməklə həmin dildə danışan insanların təsərrüfat həyatını, maddi mədəniyyətini, sosial quruluşunu və ideoloji təsəvvürlərini dəqiqliklə bərpa etmək mümkün olur. Dilin təhlili səslərin müəyyən olunmasına, mənimsənilmiş sözlər isə qədim dillərin daşıyıcıları arasmdakı əlaqələri müəyyənləşdirməyə imkan verir. Bütün bunlar müəyyən dövrdə, müəyyən dildə yazılı mənbələrin aşkar edilməsindən sonra mümkün olur. Dillərin öyrənilməsi əsasında XIX əsrdə elmdə yeni istiqamət – müqayisəli dilçilik yaranır. Ciddi elmi tədqiqatlar tarixin müxtəlif dövrlərində müxtəlif dillərin inkişafındakı qanunauyğunluqların, onlar





arasındakı qarşılıqlı əlaqə sisteminin müəyyən olunmasma imkan verdi.

Bütün dillər qrammatik quruluşuna görə aqqlütinativ və flektiv olaraq iki yerə bölünür. Lakin bütün aqqlütinativ və ya flektiv dillərin öz aralarında qohum dillər olması mütləq deyil (məsələn, türk dillərini şumer və ya elam dilləri ilə müqayisə etmək olmaz, belə ki, onlarda istifadə olunmuş formantlar müxtəlifdir: cəm şəkilçisi Azərbaycan dilində *-lar*, şumer dilində *-ene*, elam dilində *-ne* və s. şəkilçisi əlavə etməklə düzəlir; yaxud da gürcü dili ilə müqayisə etmək olmaz, hərçənd ki, hər iki dildə erqativ hallanma vardır *-man* gürcü dilində, *-e* şumer dilində; amma hett dilini yunan dili ilə qarşılaşdırmaq olar, belə ki, hett dilindəki adlıq hal göstəricisi *-as,* yunan dilində isə *–os*'dur və s.). Qeyd etmək lazımdır ki, hər bir dilin fonetik quruluşu durmadan özünəməxsus xüsusiyyətlərlə inkişaf edir. Ona görə də müqayisə olunan dillərdə eyni cür və oxşar səslənən sozlərin olması çox az hallarda onların ümumi kökə bağlı olduğunu göstərir, bir çox hallarda onlar adi uyğunluqla izah olunur. Müqayisə olunan sözlərin səs nisbətində sistem olmalıdır. Müqayisədə oxşarhq yox, qanunauyğun fərqlər nəzərə alınmalıdır. Sübut etmək lazımdır ki, müqayisə edilən iki söz həmin dillərin tarixi fonetik qanunlarına tabe olaraq bərpa olunan konkret prototipə nəinki bağlana bilər, hətta mütləq bağlanmalıdır.

Bütün dünya dilləri elmi cəhətdən ailələrə, onlar da öz növbəsində ayrı-ayrı qruplara bölünür. Bəzi hallarda bir ailəyə aid olan dillər bir-birindən elə uzaqlaşmışlar ki, onların anlayışı və bərpası çox çətinlik törədir.

Ayrı-ayrı tarixi mərhələlərdə dillərdəki dəyişikliklər və onların bərpası ilə linqvistika (yunanca – linqva – dil) elmi məşğul olur.

Hazırda mövcud olan dillər aşağıdakı ailələrə bölünür: sami-hami – ərəblər, yəhudilər, aysorlar; qərbi (gürcülər, adıgeylər, abxazlar) və şərqi (çeçenlər, inquşlar, kabardinlər, Dağıstan xalqları) qola ayrılan Qafqaz; Hind-Avropa ailəsi – hind qrupu: Hindistan yarımadası xalqları; İran qrupu: fars-

lar, talışlar, osetinlər, kürdlər, lurlar, bəxtiyarilər, taciklər, əfqanlar; roman qrupu: fransızlar, italyanlar, rummlar, ispanlar; german qrupu: almanlar, danimarkalılar, skandinav xalqları; slavyan qrupu: ruslar, ukraynalılar, beloruslar, serblər, slovenlər, həmin ailəyə aid edilən yunan və erməni dilləri ayrıca qruplara aid edilir; Ural-Altay dil ailəsi – uqrofin qrupu: finlər, komilər, uqrlar, xantılar, mansılar; türk qrupu: türklər, azərbaycanlılar, türkmənlər, qazaxlar, özbəklər, qırğızlar, uyğurlar, tatarlar, başqırdlar, qaqauzlar, qaraçaylılar, balkarlar, yakutlar, qaşqaylar, əfşarlar; monqol qrupu: xalxa-monqollar, buryatlar, daxurlar; tunqus-mancur qrupu: evenklər, nanaylar, mancurlar.

Bunlardan başqa digər dil qrupları da mövcuddur, lakin onlarm Yaxm Şərq ölkələrinə aidiyyəti yoxdur.

Qədim dövrlərdə bu ərazilərdə dravid dilləri ailəsi də geniş yayılmışdı. Hazırda bu dillərdə Bəlucistanda və Cənubi Əfqanıstanda yaşayan braqui xalqı, Hindistanın və Şri-Lankanın bəzi rayonlarmda yaşayan tamil, teluqu, malayami və b. xalqlar danışır. Onların əcdadları e.ə. III minillikdə bu ərazilərdə yayılmış Harappa və Mohenco-Daro mədəniyyətlərinin yaradıcısı sayılır.

Haqqında danışdığımız ərazilərdə yayılmış qədim dillər yuxarıda deyilən dil ailələrindən birinə mənsub olub, bəziləri lazımi qədər öyrənilmədiyinə görə, ayrıca yer tutur. Qədim dövrlərdə bu ərazilərdə yaşayan xalqlarm dilləri Qafqaz: hürrilər, urartulular, kutilər, hattlar; sami: babillər, assurlar, amorilər, hananilər, finikiyalılar, yəhudilər, aramilər, ərəblər; Hind-Avropa: hettlər (nesilər), midiyalılar, iranlılar, kimmerlər, skiflər dil ailəsinə aid edilir. Ən qədim dillərdən sayılan şumer dili və dravid dillərinin qolu olan zaqro-elam qrupu (elamilər, lullubilər) ayrıca dil qrupunu təşkil edir.

Qədim dil əlaqələrinin müəyyənləşdirilməsi hətta müəyyən ərazinin əhalisinin lokal etnoqrafik qrupları üçün də çətindir. Bu və ya digər dil proseslərinin müqayisəli tarixi tədqiqi və əhalinin istənilən qrupunun etnik tərkibinin müəyyənləşdirilməsi qədimdən bəlli olan tarixi hadisələri,



10386



faktları bilməyi tələb edir.

Qədim Ön Asiya dilləri təkcə bəşəriyyətin bütün sosial və mədəni inkişafmm özülünü qoymuş ilk sivilizasiya dilləri kimi maraq doğurmur, bu dillər linqvistlər üçün həm də ona görə böyük maraq kəsb edir ki, bu qədim sivilizasiyalarm yazılı abidələri həmin dillərin ən qədim dövrlərdən başlayaraq min illər ərzində hərəkatı dövründəki dil faktlarmı qoruyub saxlamışdır ki, bu da dilin inkişaf prosesini qısa zaman kəsiyində deyil, uzun müddət ərzində öyrənməyə imkan verir. Bundan əlavə, bu dillərin böyük rəngarəngliyi genetik müxtəlif dil qrupları çərçivəsində inkişafı müqayisə etməyə və dillərin daxili inkişafında lokal əhəmiyyətli prosesləri bir sıra dil qrupları üçün eyni dərəcədə tipik olan proseslərdən fərqləndirməyə imkan verir.

Qədim Ön Asiya dilləri müxtəlif ailələrə mənsubdur və ya təcrid olunmuş dillərdir ki, onları da hər hansı dil ailəsinə aid etmək xeyli çətindir.

Dillər təcrid olunmaları səbəbindən tədricən bir-birlərindən daha böyük məkanda uzaqlaşır və qarşılıqlı anlaşma çərçivəsindən kənara çıxırlar. Lakin elə zənn etmək olmaz ki, qohum dillərdə danışan xalqların özləri mütləq bir mənşəyə malikdirlər, ulu dildə danışmış ulu xalqın hansısa vahid kökünün törəmələridirlər.

Tarixdə bir xalqın təbii miqrasiyası zamanı digəri ilə assimilyasiyası çox nadir hallarda müəyyən ərazidə yaşayan xalqm özgədilli ilə tam fiziki şəkildə əvəzlənməsinə təsadüf olunur. Ona görə də hər hansı dil qrupu və ya qruplarınm ilkin başlanğıcdan məhdud ərazidən daha geniş əraziyə və ya başqasına yayılması, bir qayda olaraq, heç də avtoxtonlarm mütləq sıxışdırılması və ya yeni dil daşıyıcısının yayılması demək deyil, hərçənd yerli əhalinin tam əvəzlənməsi və ya sıxışdırılmasma rast gəlinir; məsələn, yaxm keçmişdə Şimali və Cənubi Amerikada dilin əvəzlənməsi müxtəlif şəkildə baş vermişdir.

Miqrasiya zamanı yeni dilin mənimsənilməsi adətən ikidillilik mərhələsindən sonra baş verir, həm də əhalinin



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

köhnə dili də substrat kimi yeni dilə təsir göstərir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, mədəni ünsiyyət zamanı çoxsaylı mədəni kəşflərin və onlarla yanaşı müvafiq sözlərin mənimsənilməsi prosesi baş verir. Müasir dillərin əksəriyyətində mənimsəmələr bütün lüğət ehtiyatının yarıdan çoxunu təşkil edir, lakin saylar, insanın ən sadə fəaliyyətinin, bədən hissələrinin adları, qohumluq istilahları və s. mütləq dəyişilməz qalır.

Assmimilyasiya olunmuş etnos bir qayda olaraq, təkcə tarixi-mədəni və bioloji irsi deyil, həm də müəyyən dərəcədə özlərinin antropoloji əlamətlərini də onu əvəz edən etnosa ötürür.

Yer kürəsinin əhalisi müxtəlif antropoloji irqlərə – avropeoid, neqroid, monqoloid irqlərinə bölünür ki, onlar da öz növbələrində ayrı-ayrı yarımqruplara bölünə bilərlər. Qarışıq irqlər də mövcuddur. Eyni irqin nümayəndələri müxtəlif dil qruplarına məxsus olan dillərdə danışa bilərlər. Məsələn, Hind-Avropa irqinə daxil olan Aralıq dənizi və Balkan-Qafqaz yarımqruplarma daxil olanlar və neqroid antropoloji irqinə daxil olan insanlar sami dillərində danışırlar. Yaxud da Hind-Avropa irqinin nümayəndələri həm Hind-Avropa, həm də Uqro-Fin ailələrinə daxil olan dillərdə danışırlar.

* * *





**Yazı sisteminin yaranması və öyrənilməsi**

Təqribən e.ə. IV minilliyin sonlarından yazının yaradılmasma cəhdlər edilir. Əvvəlcə işarələr, sonra isə tədricən sistemli yazıya çevrilən piktoqramlar meydana çıxır.

Ən qədim yazı Mesopotamiyada – Şumerdə və Misirdə – Nil çayının vadilərində meydana çıxmışdır. Məhz yazılı mənbələrin meydana çıxmasmdan sonra müxtəlif ərazilərdə baş vermiş dəyişikliklər barəsində daha konkret danışmaq imkanına malik olduğumuzdan, yazınm meydana gəlməsi və sonradan onun elmi oxunması məsələləri üzərində daha ətraflı dayanaq.




Piktoqrafiyadan mixi yazıya keçid

İlk öncə Misir heroqlif (yunanca – [daş üzərində] «müqəddəs həkklər» – ilk vaxtlar belə hesab edirdilər ki, bunlarm dini təyinatı mövcuddur) yazısı oxunmuşdur.

Napoleonun Misir səfəri zamanı Rozett (Rəşid) şəhərində üç dildə – yunan, qıptı (Misir dilinin son və orta əsrlər forması) və Misir heroqlifi ilə eyni mətn yazılmış qara bazalt daş tapılmışdır və o tapıldığı yerin adına uyğun olaraq «Rozet daşı» adlandırılmışdır. Qıptı dili üçün yunan yazısmm bir növündən, yunan dilində mövcud olmayan bir neçə fonemin ötürülməsi üçün bir neçə işarənin əlavə olunması ilə istifadə edilirdi.

1822-ci ildə fransız alimi Fransua Şampolyona heroqlif mətnini oxumaq nəsib olmuşdur. O, güman etmişdir ki, kitabənin məlum dillərində yazılmiş çarlarm adları heroqlifik mətndə oval xətlə – kartuşla haşiyələnmişdir. Beləliklə, o, bir neçə işarənin necə tələffüz edilməsini müəyyənləşdirmişdir. Daşdakı yazılar firon V Ptolemey Epifana (e.ə. 204-180-ci illər) həsr olunmuşdur.

Qədim misirlilər «papirus»lar üzərində də yazırdılar. Bu, papirus bitkisinin zoğundan hazırlanmış yazı məmulatı növüdür. Bir sıra müasir dillərdə kağız sözü bu sözdən götürülmüşdür (ingiliscə – paper, fransızca – papier və s. E.ə II əsrdən qoyun, keçi və ya inək dərisindən düzəldilmiş perqament üzərində yazmağa başlamışlar).

Qədim Misir yazısının mənşəyi o qədər də aydın deyil. O, mövcud olduğu bütün dövr ərzində söz-heca şəklində olmuşdur. Əksər hallarda bu yazı sait səsləri ötürmür. Sözlərin və şəxs adlarının düzgün tələffüz edilməsi bizə gəlib çatmış başqa xalqların mətnləri əsasında bərpa olunur. Qahirədən cənubda 287-ci kilometrdə Tell-əl-Amarna dağmtıları arasında islahatçı kimi tanınan firon Exnatonun (e.ə. XV əsrin sonları) arxivinin aşkar edilməsindən sonra Yaxın Şərqdə baş vermiş tarixi hadisələr barəsində bizim biliklərimiz xeyli genişləndi və çox şey aydınlaşdı. Burada fironun bir çox hökmdarlarla yazışmaları aşkar edilmişdir. Bütün sənədlər Babil dövrünün mixi yazıları ilə yazılmışdır. Bu yazı bir çox





xalqlar tərəfindən istifadə olunurdu, dilin özü isə yazışma dili kimi qəbul olunmuşdu.

Ən qədim mixi yazı sisteminin yaradıcıları ən qədim xalqlardan biri sayılan şumerlərdir. «Mixi yazı» və ya «çiv yazısı» termini işarələrin mismar forması ilə əlaqədar olaraq ilk dəfə XVII əsrdə Engelbert Kempfer tərəfindən istifadə olunmuşdur.

Mixi yazı piktoqrafik, rəsm yazılarmdan əmələ gəlmişdir. Güman edilir ki, rəsm yazısının bünövrəsi şumerlərədək admı bilmədiyimiz, və ya haçansa onlarla yanaşı Mesopotamiyada yaşamış etnos tərəfindən qoyulmuşdur. Onlar bizə yalnız şumer mədəniyyətindən öncə mövcud olmuş mədəniyyət qalıqlarmdan məlumdur. Şumerlər rəsm yazısını təkmilləşdirərək onu abstrakt mixi yazısı formasına salmışlar ki,



Misir ideoqrafik yazısı

bu da sonralar Qədim Dünyanın bir çox xalqları tərəfmdən qəbul olunmuşdur. Yazı özünün yaranmasma görə iqtisadi və inzibati xarakterli tələbata borcludur, çünki dövlətin möhkəmlənməsi və ticarət mübadiləsinin, kənd təsərrüfatı və sənətkarlıq məhsulları istehsalınm artması ilə onların sistemli

haqq-hesabının aparılması zərurəti yaranır. Qədim şumerlər əsasən gildən hazırlanmış lövhəciklər üzərində qamış çubuqla yazırdılar. Çubuq maili kəsilirdi və onu yumşaq gil üzərinə basdıqda, işarənin yuxarı hissəsi mıx şəklini alırdı. Lövhəciklərin bərk olması və üzərindəki yazının pozulmaması üçün onları qurudur və ya bişirirdilər. Daş və taxta üzərindəki yazılar da çiv işarələrinin formasını təkrarlayırdı.

Mixi yazı sisteminin oxunmasına, antik mənbələrin məlumatına görə Makedoniyalı İsgəndər tərəfindən haxamanişilərin (əhəmənilərin) dağıdılmış qədim paytaxtı Persepolda tapılmış yazıların oxunması ilə başlanılmışdır. Bu mixi yazılar e.ə. I minilliyin ortalarından bəllidir, qismən heca, qismən də əlifba üslubundadır. Mesopotamiya mixi yazıları ilə onun əlaqəsi yalnız zahirən, çivə bənzərliyi ilə bağlıdır.

Avropada mixi formalı işarələr barəsində ilk məlumatı 1618-ci ildə ispan kralı III Filippin şah Abbasa göndərdiyi səfirlər gətirmişdi. Sonra italyan taciri Pyetro della Valle Persepol xarabalıqlarında gördüyü yazıların bəzisinin işarələrinin rəsmini çəkmişdir. Bunların yazı, yaxud sehrbazlıq cadulugu və ya rəsm olması barədə mövcud olan hər cür fərziyyə Persepolda tapılmış kitabələrin 1765-ci ildə danimarkalı alim Karsten Nibur tərəfindən nəşri ilə rədd edildi. O, təsvir olunmuş çar ehtimal oluna bilən fiqurun yanındakı yazını seçmişdir. Nibur işarələrin surətinin çıxarılması üzərində iş apararkən müəyyən etmişdir ki, onların bəziləri təkrarlanır, amma yazının ayrı-ayrı sətirlərində mövcud olan işarələr isə bir-birindən fərqlənir. O, ayrı-ayrı sətirlərdə mövcud olan işarələrin sayına əsasən müəyyən etmişdir ki, bu, hərf, heca və ya ideoqrafik yazıdır, yəni üç müxtəlif yazı sistemidir. Beləliklə, Nibur həmin kitabənin üç müxtəlif dildə yazılması barədə mühüm kəşf etmişdir.

K.Niburun mixiyazılı kitabələri nəşr ediləndən sonra bir çox alim həmin mətnlərin şifrini açmağa və onları oxumağa cəhd etdi. Biri yazıda tez-tez rast gəlinən çəp işarəni sözayırıcı kimi, eləcə də bir qrup təkrarlanan işarəni isə çar sözü kimi müəyyənləşdirdi, hərçənd o, bu sözün necə tələffüz





edildiyini bilmirdi, amma sonda fikrinin doğruluğu məlum oldu. Digəri qədim avesta dilində gəlib çatmış «Avesta» dini kitabını tədqiqata cəlb etdi. Şifraçımında əsl çevriliş Hettingen Universitetinin yunan və latın dilləri müəllimi Georq Qrotefend tərəfindən edilmişdir. Artıq bu dövrədək bir çox mixiyazılı kitabə nəşr olunmuşdu. O, yunan və erkən orta əsrlər mənbələrindən məlum olan İran tirixini öyrənmiş, şifraçımına edilmiş əvvəlki cəhdlərdəki ixtiraları nəzərə almış və bununla razılaşmışdı ki, kitabələrin mətni çarların titullarının sadalanmasından başlanır.

İki kitabəni seçən Qrotefend elə güman edirdi ki, sətrin əvvəlində gələn söz çarın adından ibarətdir, ardınca gələn oxşar işarələr qrupu isə «çar» sözünü bildirir və bu kitabələr Persepolun çiçəkləndiyi haxamanişilər dövrünə aid olmalıdır.

Haxamanişilər sülaləsindən olan çarların adları yunan tələffüzündə bəlli idi. Çarların erkən orta əsrlərdən bəlli olan və öz dövründə də istifadə olunan titullarını əsas götürərək, Qrotefend belə bir düstur əldə etmişdir: x – çar, x – çar oğlu, Haxamanişi. Onun zənnincə haradakı çarların adları olmalı idi, orada bəzi işarələr qrupu təkrar olunmurdu, deməli, bunlar müxtəlif hərflərlə başlayan adlar olmalı idi. Bundan əlavə, elə variant lazım idi ki, orada çarın atasının özü çar olmasın. O, bildiyi adların müxtəlif kombinasiyalarını tutuşdurduqdan sonra Kserks və Dara adları üzərində dayandı. Beləliklə, kitabələrdən birinin tərcüməsi məlum oldu: «Kserks, böyük çar, çarlar çarı, çar Dara Haxamanişinin oğlu», ikinci kitabə isə belə idi: «Dara, böyük çar, çarlar çarı, Gistasp Haxamanişinin oğlu».

G.Qrotefend bu kitabələrin məzmununu düz tapmış və doqquz hərfi müəyyənləşdirmişdir, amma onların qədim İran dilində necə tələffüz olunduğunu və hansı səsin hər bir işarəyə uyğun gəldiyini bilmək üçün o, yenidən Avestaya müraciət etməli olmuşdur. O, Avestaya əsaslanaraq müəyyən etmişdir ki, yunan tradisiyasından bəlli olan Dara, Kserks, Gistasp adları Darxeyş, Xşarşa, Qostasp kimi tələffüz olunurmuş.

Beləliklə, 1802-ci ilə kimi işarələrin bir qisminin tələffüzü dəqiq müəyyənləşdirilmişdir, lakin qədim İran yazılarının bütünlüklə oxunmasma yalnız 35 il sonra müyəssər olundu. Həmədandan tapılmış yazılar E.Bürnuf tərəfindən nəşr edildi, Xr.Lassen isə əldə olan bütün yazıları oxudu və «Qədim İran dili» termini elmə daxil oldu.

Mixi yazı sisteminin digər növlərinin öyrənilməsinə Kirmanşah-Bağdad yolunda, Həmədandan 100 km qərbdə yerləşən Bisütun qayasındakı 20 m enində və 7 m hündürlüyündə olan üçdilli qayaüstü yazısı olan barelyefin aşkar edilməsindən sonra başlanılmışdır. Yazıdan əlavə qaya üzərində çarın və ona qarşı qiyam etmiş Qaumatanın, eləcə də onun məğlub edilmiş tərəfdarlarmın təsvirləri də nəqş olunmuşdu.

İran ordusunda xidmət edən ingilis qulluqçusu Henri Raulinson ilk dəfə olaraq buna diqqət yetirmişdir. Kifayət qədər savadlı adam olan Raulinson qədim yazılarm öyrənilməsi sahəsindəki araşdırmalarla və əldə olunan nailiyyətlərlə tanış idi. O, çox çətinliklə mixi yazı işarələrinin üzünü köçürməyə başladı və tezliklə həm də aşkar etdi ki, qaya üzərindəki mətn üç müxtəlif yazı sistemi ilə tərtib edilib. 1847-ci ildə yazının üzü tam köçürülmüş və nəşr olunmuşdu. Onun öyrənilməsi göstərdi ki, sistemlərdən biri artıq məlum olan qədim İran yazısıdır, ikinci sistem xeyli sonra müəyyənləşdirildi və məlum oldu ki, elam dilindədir, üçüncü sistem isə Mesopotamiyanm müxtəlif abidələrində arxeoloji qazmtılar zamanı külli miqdarda aşkar olunmuş gil lövhəciklər üzərindəki yazılarla üst-üstə düşürdü. Mixi yazının bu növünün oxunması nisbətən asan olmuşdur, belə ki, o dövrdə həmin ərazidə yaşayan babillərin və assurların elmdə akkad adlanan dili sami dil qrupuna aid idi. Mixi yazı özgə dildən, sonralar məlum olduğu kimi şumer dilindən əxz edildiyindən, çətinlik yalnız işarələrin özlərinin oxunması ilə bağlı idi. Bu sistemdə durğu işarələri, ya sözayrıcıları yox idi; eyni işarə müxtəlif mənalarda həm heca, həm də ideoqram kimi istifadə olunurdu, bəzən isə bir səs müxtəlif işarələrlə bildirilirdi. Bundan əlavə, sözün





müəyyən anlayış qrupuna mənsubiyyətini səciyyələndirən iyirmiyə yaxın determinativ – təyinedici mövcuddur. Bu zaman onlar adətən yalnız ideoqrafik halda istifadə olunur.

Uzun illər sonra alimlər mətni əlaqəli oxumağa və oxunmuş mətnə inamsızlığı aradan qaldırmağa nail oldular. 1857-ci ildə Londonda eksperiment keçirildi və müxtəlif ölkələrdən gəlmiş alimlər I Tiqlatpalasara (e.ə. 1115-1077-ci illər) mənsub olan eynimətnli geniş kitabənin özləri tərəfmdən edilmiş tərcüməsini təqdim etdilər. Bu tərcümələr tutuşdurulduqdan sonra bəlli oldu ki, məna uyğunsuzluğu yalnız xırım-xırda şeylərlə bağlıdır. Elə bu dövrdən də müstəqil assurologiya elminin mövcudluğu başlandı.

XX əsrin 20-30-cu illərində F.Türo-Danjen və A.Pöbelin tədqiqatları sayəsində şumerologiya assurologiyadan ayrılıb müstəqil elmə çevrildi. A.Daymel və A.Falkenşteyn şumer dilinin qrammatikasının tədqiqinə böyük töhfə vermişlər. Arxeoloji qazıntılar sayəsində tapılmış təsərrüfat və ədəbi mətnli müxtəlif lövhəciklər oxunmuş və nəşr olunmuşdu. Sonralar M.-L.Tomsen, D.Edsard, S.Kramer, İ.Dyakonov, V.Afanasyeva, İ.Kaneva və b. da öz böyük töhfələrini vermişlər.

Şumer mixi yazısınm oxunuşuna ikidilli əhalinin yaşadığı dövrdə mövcud mətnlərin anlaşılmasmı asanlaşdırmaq və mirzələr üçün vəsait kimi tərtib olunmuş akkad-şumer sillabari (heca mənası) və lüğətlərinin aşkar edilməsindən sonra başlanılmışdır. Məhz onlarm sayəsində həm şumer, həm də assur dillərində istifadə olunan şəxs adları, şəhər, ölkə, çay adları və ya hər hansı əşyanın adımn önündə yazılan determinativlərın anlaşılması mümkün olmuşdur. Şumer yazısı söz-heca şəklində idi, yəni söz piktoqrafiyadan törənmiş ideoqramla yazılırdı və müxtəlif hecalar və ya sait səs fonetik formantlar onlara birləşdirilirdi. Şumer abidələrinin oxunması hələ indiyədək çətinlik törədir və bəzən ayrı-ayrı sözlərin ümumi anlamı və mənasının başa düşülməsi məlum olsa da, tələffüz olunmaları sual altındadır.

### Yazılı mənbələrdə təsvir olunan tayfalar və ölkələr

**Şumerlər.** Ən qədim şumer mixi yazılı sənədləri Urukda (İraqın cənubunda müasir Varka) tapılmışdır. Aşkar olunmuş şumer sənədləri həm iqtisadi, həm də mənəvi (dini) həyatlar haqqında hərtərəfli məlumat verir.

Burada qeyd etmək lazımdır ki, şumer sənədlərinin oxunmasından sonra məlum olmuşdur ki, dünyanın yaranması, dünyanı su basması – Nuhun tufanı, əbədi həyatın axtarılması və s. haqqmda müxtəlifdilli xalqların mədəniyyətinə daxil olmuş bir çox əfsanə və miflər ilk dəfə məhz şumerlər tərəfindən yaradılmış, hər halda yazılı şəkildə qeydə alınmışdır.

Şumerlər – adı və eyniləşdirilmiş maddi mədəniyyəti olan ən qədim xalqdır. Onların özləri bəşərin yarandığı yeri İran körfəzindəki Dilmun adasının – müasir Bəhreyn – olduğunu, ən qədim şəhərin isə Fərat çayının körfəzə töküldüyü yerdəki Eredu – indiki Əbu Şəhrayn – şəhərinin olduğunu zənn edirdilər.

Şumerlər ilk dövrlərdə Mesopotamiyanın böyük bir ərazisində məskunlaşmışdılar. Linqvistik və toponimik tədqiqatlar göstərir ki, şumerlərin özləri bu yerlərdə avtoxton əhali olmayıb. Arxeoloji materiallara əsasən söyləmək olar ki, onlar burada özlərindən xeyli əvvəl mövcud olmuş başqa mədəniyyətin daşıyıcıları olan xalqların yerlərinə köçüb, onlarla qarışmışlar.

Şumerlərin Mesopotamiyaya gəlmə vaxtı və haradan gəlmələri məsələsi bu günədək dəqiq müəyyənləşdirilməyib. Ehtimal olunur ki, onlar bu ərazilərə gələndə burada güclü dövlətlər mövcud idi. Digər bir nöqteyi-nəzərə görə şumerlərin bir qismi dəniz yolu ilə gələrək cənub ərazilərdə, digər qismi isə quru yollarla keçib şimal və şimal-şərq ərazilərdə məskunlaşmışlar. Şumerlər bu dövlətlərin sərhədlərində məskunlaşaraq, əvvəllər muzdurluq etmişlər, sonralar isə daha içərilərə keçərək, son hesabda oranı tutmuşlar.





Şumer dili öz qrammatik quruluşuna görə aqqlünativ dillər qrupuna aiddir, yəni sözün kökünə müxtəlif qrammatik formantlar birləşdirilir. Şumerlər öz dillərini "emegir" (eme – dil, gir – əsl) adlandırırdılar. Alimlər tərəfindən şumer dilinin ayrı-ayrı məlum dillərlə nisbi müqayisəsi müsbət nəticə verməmişdir və onun başqa dillərlə qohumluğu indiyədək müəyyənləşdirilməmişdir. Çətinlik törədən səbəblərdən biri şumer sözlərinin düzgün fonetik oxunuşunun – tələffüzünün olmamasıdır. Şumer sözlərinin mənası və tələffüz edilməsi şumer-akkad lüğətinin məlumatlarına əsaslanır ki, bu da sami akkad dilinin fonetik vasitələrilə verilir.

Antropoloji cəhətdən şumerlər ağ irqin Aralıq dənizi və Balkan-Qafqaz qolu tipinə aiddir.

"Şumer" akkad sözüdür – mənbələrdə Mesopotamiyanın mərkəzi və cənub hissəsinə aid olunurdu. İlk dəfə ona e.ə. XXIII əsrə aid mənbələrdə təsadüf edilir.

Şumerlər öz ərazilərini "Kİ.EN.Qİ." adlandırırdılar. İlk dəfə bu söz e.ə. 2450-ci ildə Uruk şəhərinin hökmdarı Enşakuşannanın yazısında işlədilir. Onu şumerlərin ümümi ilahisi olan Enlilin məbədinin yerləşdiyi məskənlə bağlayırlar. Sözün etimologiyası haqqında yekdil fikir yoxdur. Şumerlərin özlərini birləşdirən ümumiləşdirici adları yox idi və özlərini yaşadıqları yerlərə əsasən müəyyən edirdilər. İkiçayarasının bütün sakinləri – həm şumerlər, həm də akkadlar özlərini şumercə – *şaq-qiq*, akkadca – *şalmat kakkadim* "qarabaşlılar" adlandırırdılar.

Şumer yazılı abidələrinin tarixi e.ə. IV minilliyin sonlarına – III minilliyə aid edilir. E.ə. 2000-ci ilə yaxın şumer şifahi danışıq dili akkad dili tərəfindən sıxışdırılmışdır. Lakin yazılı şumer dili məktəblərdə, məbədlərdə, dəftərxanalarda rəsmi dil kimi uzun müddət istifadə olunub, sonralar isə tamamilə akkad dili ilə əvəz olunub. Antik müəlliflərin şumer-

lər haqqında məlumatı olmayıb. Bibliyada rast gəlinən "Şinar" adını şumerlərlə bağlayırlar.

E.ə. IV minillikdə bu ərazidə siyasi, təsərrüfat və dini mərkəzlər kimi ayrı-ayrı şəhər-dövlətlər mövcud idi. Ümumşumer allahına itaət etməklə yanaşı, hər şəhərin öz ilahisi də var idi, onlar üçün məbədlər tikilir və qurbanlar gətirilirdi. Ən böyük şəhərlərdən Eredu (Əbu Şəhreyn), Laqaş (Tello), Umma (Coli), Uruk (Varka), Ur (Mukayyar), Kiş (Tell-al Uxaymir), Nippur (Neffer) və s.-ni göstərmək olar. Bu şəhərlərdə aparılan arxeoloji qazıntılar nəticəsində xeyli tikili, müxtəlif peşələrə aid məmulat, incəsənət nümunələri və külli miqdarda kitabə tapılmışdır ki, bu da Şumer tarixinin ayrı-ayrı mərhələlərini dəqiq öyrənməyə imkan verir. Şumer şəhərləri Mesopotamiyada hökmdarlıq etmək uğrunda əsrlərlə biri-biri ilə, sonralar isə sami tayfaları ilə mübarizə aparmışlar. 2336-cı il radələrində Umma şəhərinin hökmdarı Luqalzaqesi qələbəyə nail olmuşdur. O, bütün Şumeri və şimalda samidilli tayfaların Aqade (Akkad) şəhər dövlətini öz hakimiyyəti altında birləşdirmişdir. Lakin lullubilərin, bunun ardınca isə kutilərin Mesopotamiyaya soxularaq, burada 100 ilə yaxın hökmranlıq etmələri onun yüksəlişinə son qoydu.

Uruk şəhərinin hökmdarı Utuheqalın dövründə (2116/2111-2109/2104-cü illər) kutilər Mesopotamiyadan qovulur və Şumer yenidən bərpa olunur. Utuheqalın ölümündən sonra hakimiyyəti onun rəqibi – III Ur sülaləsini yaradan hökmdar Ur-Nammu (2112?-2094-cü illər) ələ keçirir, Şumer və Akkad torpaqlarını birləşdirir. Bu dövrdə rəsmi sənədlər həm şumer, həm də akkad dilində tərtib olunurdu. Tədricən ölkənin şimalında, eləcə də cənubunda, hətta çar sülaləsinə məxsus adlar arasında sami xüsusi adları artır. III Ur sülaləsi dövründə "Şumer çarlarının siyahısı" təşkil edilmişdir ki, bu da əvvəlki çarların adlarını müəyyənləşdirməyə imkan verir. Bundan məqsəd Mesopotamiyada vahid çar hakimiyyətinin mövcud olmasının ideoloji cəhətdən əsaslandırılması idi. Siyahıya görə burada vahid hakimiyyət həmişə olub, lakin vaxtaşırı öz iqamətgahını dəyişib. O dövrlərdə





qanunlar toplusu da tərtib olunmuşdur. Bu toplu fraqmentlər şəklində bizə gəlib çatsa da, "Ur-Nammu qanunnaməsi" hələlik o dövrün ən qədim qanunnaməsidir (e.ə. 2050-ci il).

III Ur sülaləsinin sonlarında çar hakimiyyəti daxili səbəblər üzündən, eləcə də yeni samidilli dalğanın – amori tayfalarının bu əraziyə soxulması nəticəsində xeyli zəifləmişdi.

Mesopotamiyanın şimalında Mari adlanan böyük amori dövləti yaranmışdır. Yeri gəlmişkən, hökmdar sarayında aparılan qazıntılar zamanı buradan 20 minə qədər mixiyazılı lövhə aşkar edilmişdir. Şimalda və cənubda güclənən qonşular Şumer dövlətinin zəifləməsindən istifadə edirdilər. E.ə. 2027-2003-cü illərdə hökmdarlıq etmiş axırıncı Şumer çarı İbbi-Suenin dövründə dövlət tədricən zəifləməyə başlayır, şimaldan gələn sami tayfaları cənuba doğru hərəkət etdikcə, yeni əraziləri zəbt edirdilər. Şumer dilinin hələ də rəsmi dil statusunda qalmasına baxmayaraq, o gəlmələrin dili ilə sıxışdırılır və loru dilə çevrilirdi. Bu dövrdə dövlət daxilində mərkəzi hakimiyyətdən qaçma tendensiyaları güclənir, əyalətlər tabelikdən çıxır, ticarət əlaqələri, iqtisadiyyatın əsasları pozulurdu.

Şumerə axırıncı zərbəni elamlılar vurmuşlar. Onlar Şumerin paytaxtı Uru zəbt etmiş və çarı əsir aparmışlar. Bununla da minillik dövlət dağılmışdır.

Bundan sonra Şumer bir sıra müstəqil dövlətlərə bölünmüşdür ki, bunlardan ən böyükləri İsina, Larsa və Babil sami amori mənşəli çarlarla idarə edilirdi. Samidilli tayfalar qədim mədəniyyətin varisləri oldular. Şumer xalqı akkad dilini qəbul edir və e.ə. II minilliyin əvvəllərində şumer dili danışıq dili kimi tamamilə itir, ondan yalnız dini və elm ocaqlarında istifadə olunur.

Şumer dövründən bizə külli miqdarda ədəbi, dini, təsərrüfat və s. yazılı abidələr çatmışdır. Onminlərlə "məktəb mətnləri" adlanan lövhələr də tapılmışdır. Bunların çox olması savadlığa böyük diqqət yetirilməsinin rəmzidir. Müxtəlif məsələlərə aid müəllimlərin özlərinin yazdıqları tapşırıqlar, şagirdlər tərəfindən dərsdə yerinə yetirilən tapşırıqlar olan

lövhələr də tapılmışdır. Şumerdə xüsusi "mirzə" məktəbləri mövcud idi. Onlar təsərrüfat və inzibati ehtiyaclar üçün məbədlərdə, sarayda, ticarət mərkəzlərində fəaliyyət göstərirdilər. Məktəblər müxtəlif bilik sahələri ilə məşğul olmaqla yanaşı, həm də ədəbi mərkəzlər idilər. Məktəblərdə yeni əsərlər yazılır, qədimdən qalan ədəbi əsərlər öyrənilir və üzü köçürülürdü. Elə bu səbəbdən də təkrar məzmunlu çoxlu lövhələr tapılmışdır.

Lövhələrdəki mətnlər arasında ən qədim epik poemalara da rast gəlinir. Bir sıra alimlər hesab edirlər ki, bu cür poemalar "qəhrəmanlıq dövründə" meydana çıxır. Bu poemalarda o vaxtın mühüm ictimai-siyasi prosesləri, xalqların yerdəyişmə dövründə baş verən hadisələr, bu xalqların məskunlaşdığı və yaxud istila etdiyi ərazilərdə yeni cəmiyyətlərin və dövlətlərin yaranması əks olunurdu. Formaca poetik olan qəhrəmanlıq rəvayətlərində hökmdarlar təriflənir, qəhrəmanlar tərənnüm edilir. Bu rəvayətlər uzun müddət şifahi formada saxlanılırdı. Vaxt keçdikcə həmin rəvayətlər dəyişiklər, ixtisarlar və əlavələrlə qələmə alınmış, sonrakı nəsillər üçün saxlanılmışdır.

Oxunmuş doqquz poemanın ikisi Enmerkara, ikisi onun varisi Luqalbandaya, beş müxtəlif variant isə Gilqameşə – Bilqamısa həsr olunmuşdur. Adları çəkilənlər Urukda hökmdarlıq edən birinci sülalənin nümayəndələri idilər.

Enmerkar haqqında poema məbədin bərpası və bəzədilməsinə lazım olan müxtəlif tikinti materiallarının çatışmadığı üçün Aratta ölkəsinə müraciətə və onların bu müraciətə münasibətlərinə həsr elilmişdir. Poemaya görə Şumer çarının elçisi Elam şəhərləri Şuşan və Anşana çatandan sonra yeddi dağ aşıb Arattaya gəlırdı. Poemaların birində Arattanın çarı Ensukuşşiranna/Ensuxkeşdanna, vəziri Ansiqarria, "maşmaş" adlanan kahini Urqirnunna və sərdarı Namennadumun adları çəkilir. Şumer torpaqları təbii sərvətlər baxımından kasad olduğu üçün Enmerkar ilahə İnannaya üz tutub yalvarır ki, o, Arattanı ram etməyə kömək etsin və "onun sakinləri Uruk üçün qızıl və gümüş hasil etsinlər, dağlardan çıxarılmış zərif lazuriti taxıla dəyişsinlər". Aratta müxtəlif metal və tikinti materialları ilə zəngin olmaqla bərabər, kənd təsərrüfatı məhsullarının çatışmazlığından korluq çəkirdi. Hədə və deyişmələr sülh ilə qurtarır və Aratta öz müstəqilliyini saxlayır.





Arattanın lokalizasiyası haqqında müxtəlif mülahizələr irəli sürülüb. Onu Diyala çayının yuxarı axarında, Luristanda, Zaqros dağlarında və s. yerləşdirirdilər. Son tədqiqatlara görə o Hindistanda, Hind çayı vadisinin şimal-qərb hissəsində yeləşdirilir. Aratta toponimi bu ərazilərə Hind-Avropa tayfalfrının gəlməsindən qabaq mövcud olmuş dövlətin adı kimi qədim hind eposu "Mahabharata"da çəkilir.

Luqalbanda eposu qonşularla müxtəlif əlaqələrin yaradılmasına və çarların igidliyinə həsr olunmuşdur.

Gilqameş haqqında rəvayət həm Şumer, həm də sonrakı əsrlərin xalqlarının ədəbiyyatında xysusi iz qoymuşdur. Rəvayətlər mixi yazı şəklində şumer, akkad, hürri və hett dillərində bizə çatmışdır. Bu poemada qədim dövrün bəşəri anlayışları, o cümlədən bəşəriyyətin quruluşu, həyat və ölüm, əbədi həyatın axtarışı və s. məsələlər öz əksini tapmışdır. O dövrün sonuncu çarı Ziusudranın vaxtında baş verən dünyanın üzünü su alması əfsanəsi rəvayətlər arasında əsas yer tutur.

Dəclə və Fərat çaylarının aşağı axarında aparılmış arxeoloji qazıntılar zamanı arxeoloqlar bir neçə mədəni təbəqədən sonra yaşayış izinə malik olmayan qalın torpaq təbəqəsi aşkar etmişlər, onun altında isə daha qədim mədəni təbəqələr var idi. Aparılan tədqiqatlar göstərmişdir ki, bu təbəqə çayların adətən hər il daşması zamanı gətirdiyi lildən ibarətdir. Lakin lilin qalınlığı və əhatə dairəsi böyük fəlakətin baş verməsinə dəlalət edirdi və bu hadisə əhalinin yaddaşında dərin iz buraxaraq, dünyanın üzünü suyun alması haqqında əfsanənin yaranmasına səbəb olmuşdur.

Bu əfsanə sonralar bir sıra qədim xalqların mifoloji hekayələrinə daxil olmuş, Bibliyanın vasitəsi ilə bütün dünyaya yayılmışdır.

Şumer dövründən bəlli olanlardan biri də "əkinçinin təqvimi"dir. Burada may-iyun aylarında əkin sahəlrini su basmasından başlayaraq, aprel-may aylarında taxılın əkilməsinə qədər bütün kənd təsərrüfatı işlərinin aparılmasına dair müxtəlif təkliflər var idi. Dövlətin əsas təsərrüfat işləri yüksək səviyyədə aparılırdı və ciddi nəzarət altında idi.

**Akkadlar.** E.ə. III minilliyin axırlarından etibarən Şumerin rəqibi olan və samidilli tayfalar tərəfindən yaradılmış Akkad dövləti öz ərazilərini genişləndirir.

Sami-hami tayfaları hələ neolit dövründə insanın yaşaması üçün əlverişli olan Saxara ərazilərində yaşayırdılar. Təxminən e.ə. VI-IV minilliklərdə quraqlıq dövrünün gəlişi və otlaqların tükənməsi ilə əlaqədar olaraq bu tayfaların müxtəlif istiqamətlərdə yayılması başlanır və sami-hami dili də bundan asılı olaraq beş qola bölünür. 1-ci dalğa Afrikada Çad gölü rayonuna köçür; 2-ci qolun nümayəndələri Nil çayının vadisində məskunlaşır; Kuşit adlanan 3-cü qolun nümayəndələri – Sudan, Həbəşistan, Somali tərəflərə; 4-cü sami qolu e.ə. V-IV minilliklərdə Yaxın Şərq və Ərəbistan yarımadasına keçmişdir; 5-ci Bərbər-Liviya qrupu şimal-qərb istiqamətində hərəkət edərək Afrikanın Aralıq dənizi və Atlantik okeanı sahillərini və Kanar adalarını tutmuşdur.

Miqrasiya zamanı onlar bəzən özlərindən sayca daha çox olan müxtəlif dilli yerli etnoslar və irqlərlə qarışırdılar. Bu, nəticədə müxtəlif irqlərə mənsub olan insanların sami dillərində danışmasına səbəb oldu. Cənub dil qrupları şimal qruplarına nisbətən qədim sami halında daha çox müddət qalmışdır. Məsələn, ərəb dili öz fonoloji sisteminin durumunu, daxili və xarici fleksiyasının ahəng sistemini saxlayaraq, eyni zamanda bir çox qrammatik yeniliklər qazanmışdır.

Yaxın Şərqin ən qədim yazılı sami dili akkad dilidir. Akkadlar sonralar gələn samidilli tayfalarla qarışdıqdan sonra, nəticədə onların dili bir neçə mərhələ keçərək dialektlərə bülünür; bunların da ən böyükləri assur və babil dialektləridir. Samilər şumer mixi yazısını əxz edərək öz dillərinə





uyğunlaşdırmışlar. Onlar şumer ideoqramlarını əsasən hecalı – loqoqram kimi yazırdılar, amma bəzi hallarda sözlərin ideoqrafik yazısından da istifadə edirdilər.

E.ə. III minillikdə Mesopotamiyada məskunlaşmış samilər şumerlərlə yanaşı yaşamış, sonra isə onlarla qarışmışlar. Qurduqları Akkad dövləti adından elmdə istifadə olunan "akkad dili" termini əmələ gəlmişdir. Ölkənin paytaxtı Akkad şəhəri Bağdaddan cənub-qərbdə yerləşirdi. Müəyyən müddətdən sonra Akkad güclənir və Qədim Sarqonun – Şarrukin (e.ə. 2316-2261-ci illər) hakimiyyəti illərində Şumer şəhərlərini işğal edir. Onun hakimiyyəti illərində vahid suvarma sistemi yaradılmış, ölçü və çəkilərin ümumi sistemi təyin edilmişdir. Sarqonun müvəffəqiyətli yürüşləri nəticəsində o, şimaldan və əks istiqamətdən gedən ticarət yolları üzərində nəzarəti öz əlinə alaraq, bütün Mesopotamiyanı özündən asılı hala saldı ki, bu da öz növbəsində Şumerin tezliklə samiləşməsinə gətirib çıxardı. Sarqonun xələfləri 150 il ərzində öz ərazilərini genişləndirərək böyük bir dövlət yaratdılar. Akkadın sonuncu qalib hökmdarı Naram-Suen (e.ə.2236-2200-cu illər) Elamla, lullubum və kuti tayfaları ilə mübarizə aparmağa məcbur olmuşdu. Onun varisi Şarkalişarrinin (e.ə. 2200-2175-ci illər) dövründə kutilərin çarı Sarlaqab üzərində (e.ə. 2185 ilə yaxın) qələbə çalmasına baxmayaraq, artıq Akkad dövləti xeyli zəifləmişdi. Kutilərin aramsız basqınları altında bu dövlət, eləcə də Şumerin bir hissəsi dağıdılmışdır. Akkad həmişəlik öz qüvvəsini və şöhrətini itirmişdir. Bundan sonra cənub şəhərləri öz dövlətçiliklərini bərpa edə bildi və e.ə. XXII əsrin axırında, yuxarıda qeyd edildiyi kimi, kutilər Urukun çarı Utuheqal tərəfindən (e.ə. 2116/2111-2109/2104-cü illər) qovuldu.

Urun III sülaləsinin əsasını qoymuş Ur-Nammu (e.ə.2112?-2094-cü illər) hakimiyyəti ələ keçirdi. Bu sülalənin çarlarının hakimiyyəti zamanı vahid Şumer və Akkad dövləti yaradıldı, allahlar panteonu vahid şəklə salındı, tarixdə cəmiyyətdə münasibətləri reqlamentləşdirən ilk yazılı toplu kimi bəlli olan dövlət qanunları qəbul olundu.

**Kutilər.** Kuti tayfaları Şumer dövlətindən şimala, Zaqroş dağları və Urmiya gölü ətrafı ərazilərdə yaşayırdılar. E.ə. III minilliyin axırında kutilər Enridavazirin başçılığı ilə Şumer və Akkadı birləşdirən çar Naram-Suenin ordusunu darmadağın edir və ölkənin cənub hissəsinə soxularaq, şumerlərin müqəddəs şəhəri Nippuru zəbt edirlər. Kutilər 100 ilə yaxın Şumerə sahib olurlar. Sonralar tərtib edilmiş siyahıya görə bu dövrdə qısa müddət – 2-7 il ərzində hökmdarlıq edən 20 çarın adı məlumdur. Kutilərin hökmdarlığı möhkəm idi və şəhər başçılarının onlara ağır vergi göndərməsinə baxmayaraq, həyat dinc şəraitdə dövran sürürdü. Görünür, ilk vaxtlar kutilərin hökmranlığı şumerləri qane edirdi, çünki onlar akkadların hökmranlığından və assimilyasiyadan azad olmuşdular. Bundan başqa kutilər yerli əhalinin nümayəndələrini idarəçilik sisteminə cəlb edirdilər və tezliklə burada yüksək təbəqənin qarışması müşahidə edilir.

Kuti çarları öz yazılarını şumer və akkad dilində tərtib edir, dini mərasimlərini şumer-akkad məbədlərində keçirir və onların ilahilərinə sitayiş edirdilər. Vaxt keçdikcə, kuti çarlarına vergi verilməsinin davam etdirilməsinə baxmayaraq, bəzi şəhərlərin başçıları tədricən güclənir və müstəqil siyasət yürüdürdülər. Məsələn, bunlardan biri də Laqaş şəhərinin hökmdarı Qudea idi. Daimi ağır vergilərin ödənilməsi şumer əhalasinin narazılığına səbəb olurdu. Kutilərlə mübarizə Uruk şəhərinin çarı Utuheqalın dövründən başlayır. Kutilərin sonuncu çarı Tirikan döyüşü udüzduqdan sonra əsir düşmüş və edam edilmişdir. Kutilərin hökmdarlığı devrilmiş və onlar zəbt etdikləri əraziləri tərk etmişlər. Güman edilir ki, onlar öz ərazilərinə qayıtmış, lakin yerli əhalinin yaddaşında və ədəbiyyatında dərin iz qoymuşlar. E.ə. XIV-XIII əsrlərdə kutilərin adı hələ müstəqil kimi çəkilir, lakin e.ə. I minillikdə bu söz artıq tayfa və ya dövlət anlayışı kimi yox, geniş ərazilərin qədim adı kimi istifadə olunurdu.

Sonrakı dövrlərdə kutilərin və hətta daha geniş ərazilərdə mövcud olan dovtələb və Mesopotamiyaya qarşı





düşmənçəlik edən müxtəlif dövlətlərin əhalisini kutilər ilə eyniləşdirirdilər.

Kutilərin dili haqqında mülahizələr bizə gəlib çatmış 20-30-a yaxın şəxs adına və sözlərə əsaslanır. Onunla bir vaxtda mövcud olan qədim şərq dilləri ilə müqayisədə kuti sözləri lazımi qədər izah olunmur. Hazırda kuti dilinin Şimal-şərqi Qafqaz dil qrupu ilə əlaqəli olmasına daha çox üstünlük verilir. Belə bir fərziyyə var ki, kutilərin dil qalıqları hazırda Azərbaycanda və Gürcüstanda yaşayan udin etnik qrupunda qalmışdır. Kuti dövrünə aid maddi mədəniyyət abidələrinə Həmədan şəhərinin yaxınlığında tapılmış tunc heykəl başı, Diyala çayının yuxarı axarında Şeyxanda aşkar edilmiş qayaüstü relyef, Urmiya gölünün qərb sahilində Göytəpədə tapılmış D və S layları, eləcə də onun qərb sahilində üzə çıxarılmış Yanıqtəpə materialları aid edilir. Qeyd etmək lazımdır ki, adı çəkilən mədəniyyətlər bu dövrdə yayılmağa başlayan Kür-Araz mədəniyyəti ilə də əlaqələndirilir.

**Lullubu(m).** Kutilərdən qərbdəki dağ və dağətəyi geniş ərazilərdə Lullubu(m), Lullume tayfaları məskun idilər. Onların haqqında e.ə. III minilliyin axırdarından məlumat var. Akkad çarı Naram-Suen lullubilərin çarı Sidurrunun üzərində qələbə çalması barədə xəbər verir. Zöhhab yaxınlığında Sarıpul qayasında lullubuların öz çarı Anubanininin (e.ə XXIII əsrin sonları) akkad dilində yazısı tapılmışdır. Yazıda Padir dağında onun özünə və ilahə İştara stela həsr edilməsindən məlumat verilir. Burada tutulmuş əsirlərin təsviri də verilir. Anubanininin adı akkad adıdır, ilahə İştar da akkad dini panteonundandır. Lullubuların təxminən 10-a yaxın sözü və xüsusi adları akkad mətnlərindən məlumdur. Güman olunur ki, lullubuların dili elam dilinə qohumdur, lakin bu hələ elmi cəhətdən dəqiq sübut edilməyib. Lullubu(m) siyasi və etnik qrup kimi tarixi meydandan çıxandan xeyli sonra onların adı qonşu xalqların dilində lullu "düşmən", "əcnəbi" mənasında istifadə olunurdu.

**Elam.** Şumerlərdən şərqdə dağlıq Karun və Kerxu çaylarının orta və aşağı axarı boyundan İran körfəzinədək olan torpaqlarda yaşayan tayfalar e.ə. III minillikdə Elam dövləti adı ilə birləşmişdilər. Yerli tayfalar öz dövlətlərini Hatamti adlandırırdılar, şumerlər onu NİM.Kİ ideoqramı ilə işarə edirdilər, akkad mətnlərində isə adı Elamtu(m) kimi çəkilir. Sonralar buraya gəlmə irandilli tayfalar bu regionu Huca adlandırırdılar (bu ad İranın indiki əyaləti Xuzistanın adında qalmışdır).

İlk vaxtlar burada Anşan, Şuşen, Simaşki, Paraxse, Adamun, Xamazi kimi ayrı-ayrı şəhər-dövlətlər inkişaf edirdi. Həmin şəhər-dövlətlər birləşdiriləndən sonra yunan mənbələrində Suza adlandırılan indiki Şuş – Şuşen dövlətin paytaxtı olur; Simaşki və Anşan isə Elam sözünün sinonimi kimi istifadə olunurdu. Bu adlar Elam çarlarınm titullarına daxil edilmişdir.

Suzada aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş bir neçə ardıcıl laylar göstərir ki, artıq e.ə. IV minillikdə burada divarlarla əhatələnmiş yaşayış yerləri mövcud idi; boyalı qablar, mis məmulatlar və möhürlərdən istifadə olunurdu. Sonralar, dulus çarxında düzəldilmiş adi boyasız keramika istifadə olunur, şəhərin arxitekturası inkişaf edir, protoelam piktoqrafik yazı meydana gəlir. Buradan aşkar edilmiş materiallar yerli cəmiyyətin yüksək inkişaf səviyyəsində olmasını göstərir. Burada çar məqbərələri, tunc alət və silahları, qızıldan düzəldilmiş məmulatlar tapılmışdır; yenidən boyalı qablar mədəniyyətindən istifadə olunması da aşkar edilmişdir.

E.ə. III minilliyin axırında elamlılar şumer və qədim akkad mixi yazısına keçmişlər. Bisütunda aşkar edilmiş üçdilli yazılar nəşr ediləndən sonra ikinci sütunun yazısı arxeoloji qazıntılar zamanı Elam ərazisində tapılmış yazılarla tutuşdurulmdu və öyrənilməsinə başlanıldı. Bu istiqamətdə E.Norris, V.Şeyl, F.Baysbax, Q.Hüsinq, V.Nints və başqaları böyük nailiyyətlər qazandılar. Paytaxt-şəhər Suzadan Elam çarlarının yazıları və külli miqdarda təsərrüfat sənədləri tapılmışdır.





Elam dili Cənubi Hindistanda və Bəlucistanda (Pakistanın cənub-qərbi və İranın cənub-şərqi) indiyə qədər mövcud olan dravid dilləri qrupunun erkən qoluna aid edilir.

Elam ərazilərinin birləşdirilməsi çar Puzur (ya Kutik)-İnşuşinakm (təxminən e.ə. 2200-cü illər) adı ilə bağlıdır. Ən böyük nailiyyətlər Akkad Kutir-Naxxuntenin (e.ə.1730-1700 illər) dövrünə düşür. Çiçəklənmə dövründə Elam Mesopotamiya dövlətləri üzərində qələbə çalır və onların şəhərlərini qarət edir. Suza şəhərində Akkad çarı Naram-Suenin stelası, Babil çarı Hamurappinin daş üzərində həkk etdirdiyi "Qanunnamə"si və s. tapılğışdır.

E.ə. I minilliyin əvvəlәrindən elam yazıları azalır, bəzi dövrlərdə isə, görünür qonşuların istilası zamanı, yoxa çıxır. İran tayfalarının bu ərazilərə axını başlayandan sonra külli miqdarda İran leksikası elam mətnlərinə daxil olur. Haxamanişilər dövründən sonra elam dilində yazılı abidələrə rast gəlinmir, lakin ola bilsin ki, şifahi dil kimi ondan bir müddət istifadə olunmuşdur. Tədricən elamilər yeni gəlmiş irandilli tayfalarla qarışıb iran dilinə keçmişlər.

**Ebla.** Yazılı abidələrin qədim ocaqlarından biri də Qərbi Suriyada yerləşən Ebla dövləti olmuşdur. Son illər müasir Tell-Mardix təpəliyində italyan alimi Paolo Mattienin rəhbərliyi altmda aparılan qazmtılar göstərmişdir ki, insanlar burada artıq e.ə. IV minillikdə – ilk tunc dövründə məskunlaşmışlar. Əldə edilən materiallar Şumer, Assuriya, Misir, Mari, Anadolu dövlətləri ilə əlaqələrin olmasmı göstərir. Ebla şəhərinin adı bir neçə dəfə yazılı mənbələrdə çəkilir, lakin onun coğrafi baxımdan lokallaşdırılması 1968-ci ildə daş heykəl üzərində akkad mixi yazısının tapılmasından sonra müəyyən edilmişdir. Ebla dövlətinə Qədim Sarqon və Naram-Suen yürüşlər etmiş, sonuncu çar İbbi-Zikirin vaxtında – e.ə. 2225-ci ildə isə o məhv olmuşdur. E.ə. 2000-ci ildə Ebla dirçələndə yerli əhali yeni sakinlərlə – qərbi sami dilləri qrupuna aid olan və artıq Mesopotamiyanm çox hissəsini zəbt edən amorilər, eləcə də bu dövrdə güclənmiş və böyük ərazi-

ləri zəbt etmiş hürrilərlə əvəz olunmuşdur. Ebla e.ə. II minillikdə bir müddət əhəmiyyətli rol oynamışdı, lakin sonra yenidən dağıdılmışdır.

Qazıntılar zamanı saray otaqları təmizlənərkən e.ə. III minilliyin üçüncü rübünə aid mixiyazılı sənədlər arxivi tapılmışdır. Yazılarm çoxu şumer dilində, böyük hissəsi isə naməlum dildə yazılmışdır. Eblalılar mixi yazını qədim akkadlardan mənimsəmişlər. Onlarm yazısını Covanni Pettinato oxumuşdur. Müəyyən edilmişdir ki, "ebla dili" şərqi və qərbi sami dialektləri sırasmda olan çox arxaik sami dilidir. Tapılmış təsərrüfat, inzibatı, diplomatik, ədəbi, dünyada ən qədim ikidilli şumer-ebla lüğətləri, ölkələrin, dağlarm, peşələrin, ilahilərin adlarmın siyahıları kimi sənədlər göstərir ki, bu dövlət özünün çox yüksək inkişaf səviyyəsində idi.

**Hürrilər. Mitanni dövləti.** Dəclə çaymın yuxarı axarları və şərq qollarınm əhatə etdiyi ərazilərdə Hürri tayfaları məskunlaşmışdı. Yazılı mənbələr e.ə. III minilliyin axırlarından başlayaraq hürrilər haqqmda məlumat verir. Şumer mənbələri hürrilərin məskunlaşdıqları əraziləri "SU.BİR4.Kİ" adlandırır. İlkin akkad mənbələrində bu ad bir qədər dəyişdirilərək "Subartu ölkəsi" kimi verilmişdir. Hürrilər e.ə. III minilliyin mənbələrində adı çəkilən subarilərin ərazilərində yerləşmiş və onları assimilyasiya etmişlər. Tarixdə sonuncuların adı yalnız coğrafi termin kimi qalmışdır. Daha sonralar, assur-babil mənbələri "hürrilər ölkəsinin", hett mənbələri "hürrilər ölkəsi" və "hürlili dili" adlarmı çəkirlər. Bibliyada hürrilərin adı "hori(m)" formasmda saxlanılıb. Hürri yazılı mənbələrindən məlum olur ki, bu ad onların özlərinə məxsusdur.

Tarixdə hürrilərin Ön Asiyaya gəlmələrinə dair bir-birinə zidd olan iki fərziyyə mövcuddur. Birinci fərziyyəyə görə onlar Şimalı Suriya, Şimalı Mesopotamiya, eləcə də Zaqroş dağlarının qərb ətəklərində yaşayan xalq sayılırlar. Hər halda onlar yazıdan istifadə olunma tarixindən, yəni e.ə. III minillikdən burada yaşamışlar. Ön Asiyadakı neolit və eneolit mədəniyyətinin, məsələn, Tell-Xalaf mədəniyyətinin əmələ gəlməsini çox vaxt onlarla əlaqələndirirlər. Digər nöqteyi-nəzərdən, hürrilər bu əraziyə e.ə. III minilliyin axırı – II minilliyin əvvəllərində şimaldan – Qafqazdan gəlmişlər.





İlk dəfə Azərbaycanda çayların qovuşduğu yerdə aşkar edilmiş erkən tunc dövrü Kür-Araz mədəniyyətinin yayılması hürrilərin adı ilə əlaqələndirilir. Qazıntılardan məlum olur ki, ilk əkinçilik mədəniyyəti abidələrinin çoxu Kür çayının orta axarında – Gəncə-Qazax düzənliyində aşkar edilmişdir. Bu mədəniyyət Qafqazın mərkəzi, şərq və qərb rayonlarında, İranın və Şərqi Anadolunun həmhüdud rayonlarında yayılmışdır. Bu mədəniyyət Aralıq dənizinin şərq vilayətlərində lokal xüsusiyyətləri ilə «herbet-kirak», Urmiyəətrafı bölgələrdə «yanıq» mədəniyyətləri adlanır.

Hürrilərdən əvvəl bu ərazidə yaşayan əhali haqqında da birmənalı fikir yoxdur. Bəzi alimlər hesab edir ki, bu ərazidə sami tayfaları mövcud imiş, bəzilərinə görə isə samilər təxminən hürrilərlə eyni zamanda buraya gəlmişlər. Şumer mətnlərində rast gəlinən hürri sözü *TA.İBİRA* "mislə işləyən" onların bu ərazilərdə daha erkən dövrlərdən olmalarmı göstərir.

Mənbələrdə Şimali Mesopotamiyada xırda hürri dövlətlərinin mövcud olması göstərilir. Hett mənbələrində adı çəkilən ən qədim hürri çarı Kiklin-atal haradasa Şimali Mesopotamiyadan çox şərqdə olan Tukriş şəhərində hökmranlıq edirdi.

Məlum olan birinci Hürri dövləti çox böyük əraziləri əhatə edirdi. Onun hökmdarı Şatarmatanın oğlu Atal-şenin ilahi Neriqalın şərəfinə ucaltdığı məbədin tikilməsi haqda tunc lövhədə akkad dilində yazısı qalmışdır. Hürrilərin digər baş allahı Kumarbi onların əsas şəhəri olan Urkeşə – indiki Xabur şəhəri yaxınlığındakı Tell-Amud xarabalıqları – himayədarlıq edirdi. Atal-şenin hökmranlığı təxminən kutilərin hökmranlığmın sonlarına (2090-2048-ci illərə yaxın) uyğyn gəlir.

Hürri dilində yazılmış ilk mətn də çar Tiş-Atal tərəfindən ilahi Neriqala həsr edilmişdir.

E.ə. II minilliyin mənbələrinin verdiyi məlumatlara görə Şimali Mesopotamiyada bir neçə hürri dövləti olmuşdur. Onlardan ən əsası Hett mənbələrində Mitanni, Misir mənbələrində isə Nahrina adlanan dövlət olmuşdur. Assur və Babil mənbələri bu dövləti, eləcə də sonralar ona varis olan dövlətləri Haniqalbat adlandırır. Bizə məlum olan birinci Mitanni çarı I Şuttarnanın adı e.ə. XVII əsrin sonlarına aid mənbələrdə çəkilir. «Hürri döyüşçülərinin çarı» titulunu daşıyan çar Parrattaria öz hakimiyyətini Şimali Suriyaya – Oront çayına qədər yaymışdır. E.ə. XVI əsrin ortalarında hakimiyyətdə olmuş çar Saussadattar isə Aşşur şəhərini zəbt edib, qızıl haşiyəli darvazanı özü ilə aparmışdır. Mitanni dövlətinin qüdrətli çağlarında Yaxın Şərqin geniş əraziləri onun hakimiyyəti altına düşmüşdü. Lakin Anadoluda güclənmiş Hett dövləti qəsbkar yürüşlərə başlayır və e.ə. 1531-ci ildə Babilə qədər gəlib çıxır. Misir hökmdarları da Aralıq dənizi ətrafı ərazilərə iddia edirdilər. I Tutmosun hakimiyyəti illərində – e.ə. 1497-1482-ci illərə yaxın – misirlilər Fələstini tutur və Naxrina-Mitanni ilə toqquşurlar. Cənub-şərqdə isə Assuriya dövləti çiçəklənir və zəifləmiş Mitanni dövlətinin, demək olar ki, bütün torpaqlarını tutur, onun varlığına son qoyulur. Lakin, hürrilər sonralar böyük siyasi rol oynamasalar da, uzun müddət bu ərazilərdə yaşamış əhalinin və ayrı-ayrı ölkələrin tarixinə müəyyən təsir göstərmişlər. Herodotun adını çəkdiyi göl və onun ətrafında yaşayan əhalinin Mantiana və matiena – Urmiya gölü və hürrilər olduğu nəzərdə tutulur. Manna dövlətində də hürri elementləri böyük yer tuturdu. Hürrilərlə əlaqədar bir maraqlı tapıntını da qeyd etmək olar. Naxçıvan ərazisində Plovdağ II nekropolunda qazıntı işləri aparılarkən açılan qəbirdə xüsusi qabda muncuqlarla bəzədilmiş quş qalıqları aşkar edilmişdir. Bu tapıntını yazılı mənbələrdən məlum olan hürrilərə məxsus yeraltı ilahilərə quş qurbangətirmə adətinə aid etmək olar.

Mitanni dövlətinin tarixində hind-ari təsirinin müdaxiləsi – ola bilsin ki, hettlərlə birlikdə gələn tayfalardan birinin vasitəsilə – müşahidə olunur ki, bu da atların ləvazimatı və





təlimi ilə bağlı terminlərdə özünü göstərir. Görünür, atçılıq və atların öyrədilməsi sahəsindəki biliklər, ikitəkərli döyüş arabalarından istifadə olunması mitannililərə üstünlük vermiş və onlar da bununla öz qəsbkarlıq istəklərini həyata keçirə bilmişlər. Onların mühasirə texnikası («hürri qoçbaşısı» – «taranı») sahəsində də üstünlükləri var idi.

Hazırda daha geniş yayılmış nöqteyi-nəzərə görə ikitəkərli döyüş arabası Ön Asiyanın özündə yaradılmışdı, buraya hind-arilər tərəfindən gətirilməmişdi və tezliklə də bütün dövlətlərdə yayılmışdı. Hind-ari təsiri Mitanni allahlar panteonunda da nəzərə çarpır. Bunlara ən qədim hind poetik abidələri – Vedalardan bəlli olan Mitra, Varuna, İndra, Nasatya allahlarının adları aiddir və Mitanni çarları e.ə. XIV əsrdə onlara sitayiş edirdilər. Mitanninin bir sıra hökmdarları özlərinə hind-ari hökmdar adı götürürdülər. Məsələn, hürri çarı Kili-Teşşup özünə çar adı kimi Şattivaz sözünü seçmişdir.

Hürrilərə qeyri-şəfffaf rəngli şüşədən xırda qab-qacağın hazırlanmasının kəşfini aid edirlər. Bir qədər sonra onlar yunun purpurla bənövşəyi-qırmızı və dəniz mollyusklarından alınan rənglə bənövşəyi-göy rəngə boyamağı aşkar etdilər. Onlar uzun müddət şüşə məmulatının və boyanmış yunun satışı sahəsində inhisarçılığı öz əllərində saxlamışlar. Müxtəlif minerallardan zövqlə hazırlanmış yonma naxışlı və təsvirli Mitanni silindrik möhürləri bütün Yaxın Şərqə yayılmışdı və o dövrün tarixinin müəyyənləşdirilməsi üçün arxifakta çevrilmişdir.

Hürri dilində e.ə. II minilliyə aid külli miqdarda mətnlər qədim Mari, Uqarit, Nuzi (qədimdə Qasur adlanan müasir Yorqan-tepe) xarabalıqlarından tapılmışdır. Bir çox mətnlər arxeoloji qazıntılar zamanı Boğazgöy yaxınlığında – hettlərin paytaxtı Hattusas şəhərinin arxivlərində tapılmışdır. Çar Tuşrattanın hürri dilində firon Amenxotepə yazılmış 500 sətirlik, e.ə. XIV əsrin altmışıncı illərinə aid edilən məktubu Misirin Tell-Amarna arxivindən tapılmışdır. Bu məktubda əsasən Tuşrattanın qızı ilə Misir fironunun nigahı haqqında

və hettlərlə savaşda müzəffər qələbə çalmasından söhbət gedir.

Hürrilər şumer mixi yazısının akkad variantından istifadə edirdilər. Hürri dili urartu dilinə çox yaxındır və bu dillər e.ə. III minillikdə qədim proto-hürri-urartu dilindən iki qola ayrılıb. Bu dillər bir sıra müəlliflər tərəfindən Şimal-şərqi Qafqaz – əsasən vaynax və qərbi ləzgi dilləri ilə əlaqələndirilir.

Həm hürri, həm də urartu dilləri e.ə. I minillik ərzində arami, erməni və irandilli tayfaların təcavüzü nəticəsində sıxışdırılıb aradan çıxarılmışdır.

**Amorilər. Babil.** E.ə. II minillikdə yeni sami tayfalarının – amorilərin – axını başlanır. Onlar samilərin birinci axını zamanı gəlmiş akkadlarla qarışaraq, şumerdilli əhalinin assimilyasını axıra çatdırırlar.

Bu ərazidə rəqib şəhərlər arasında Babilin – müasir Tilla, Bağdad şəhəri yaxınlığında – yüksəlişi başlanır. I Babil sülaləsinin altıncı hökmdarı Hammurapinin (1792-1750-ci illər) dövründə Mesopotamiyanın bir çox şəhərləri birləşdirilmiş və dövlət çiçəklənmə dövrünə çatmışdır. Bu zamandan başlayaraq mixi yazılar geniş yayılmağa başlayır və akkad dili bütün yaxın şərqdə əlaqələndirici rol oynayır. Bu dildə ticarət müqavilələri, sazişlər bağlanılır. Cəmiyyətin həyatının bütün sahələrini və xalqın həyat və fəaliyyətinin daha geniş sferalarını əhatə edən "Qanunnamə" tərtib etdiyinə görə Hammurapinin adı tarixdə dahi xadim kimi qalmışdır. Üç min sətirdən ibarət "Qanunnamə" hündürlüyü 2 m olan səkkizbucaqlı qara diorit daşın üzərində həkk edilmişdir. Daşın yuxarı hissəsində Hammurapinin ilahi Şamaşdan qanunları alması təsvir edilir.

Bu abidə hərbi əməliyyatlar zamanı elamlılar tərəfindən ələ keçirilmiş və paytaxtlarına aparılmış, arxeoloji qazıntılar nəticəsində qədim Suzada tapılmışdır. "Qanunnamə"nin girişində Hammurapi Babil şəhərini əbədi çarlıq məskəni adlandırmışdı; doğrudan da şəhər bütün dövrlərdə öz xüsusi statusunu saxlamışdı, onun həmişə xüsusi üstünlüyü var idi. Assurlar Babili tutanda, onu, başqa yerlərdə etdikləri kimi adi əyalətə çevirmədilər, hətta tacqoyma zamanı da Babil tacını qoyurdular; Babil haxamanişilər imperiyasının da paytaxtlarından biri idi; hətta sonralar Makedoniyalı İsgəndər də Babili paytaxt seçmişdi. Haxamanişilərin bütün hakimiyyətləri ərzində burada baş verən mədəni və ideoloji dəyişikliklər öz daxili inkişaflarına görə baş verirdi və az-çox dərəcədə haxamanişi təsirinə məruz qalmamışdır. Eyni ilə də sonralar ellinizm dövründə yerli Babil mədəniyyəti və dini yunan təsirinə məruz qalmamışdır.





E.ə. XVIII əsrin ikinci yarısında Babil zəifləməyə başladı. Şimal-qərbdən hettlər onun ərazilərinə yürüşlərə başladılar, e.ə. 1595-ci ildə Babili darmadağın etdilər. Şərqdən buraya soxulan kassilər isə uzun müddət (e.ə.1518-1204-cü illər) Babildə öz ağalıqlarını bərqərar etdilər.

**Kassilər.** İranın indiki Luristan əyalətində o dövrün tarixi proseslərində görkəmli rol oynayan kassu (akkad mənbələrində – kaşşi) tayfaları yaşayırdı. E.ə. II minillikdə kassilər Diyala çayı vadisində nüfuzlarını genişləndirməyə başlayır və hökmdar Qandaş (e.ə.1741-1726-cı illər) Babil çarı Hammurapinin oğlu Samsuilunanın (e.ə.1749-1712-ci illər) dövründə Babil dövlətinin hüdudlarına basqın edir. E.ə. XVI əsrdə isə hettlər tərəfindən dağıdılmış Babil dövlətinin zəifləməsindən istifadə edən kassi çarı II Aqum (e.ə.1595-1571-ci illər) Hammurapi sülaləsini devirir və hakimiyyəti ələ keçirir. Kassilər böyük əraziləri birləşdirir və Kar-Dunyaş adı altında tanınan dövlət yaradırlar. İkidillilik dövründən sonra kassilər, hər halda onların ali təbəqəsi babilləşir, lakin hələ bir ara bu ərazilərdə kassi adlarına da rast gəlinir. Şimal sərhədlərdə Assuriya dövlətinin güclənməsinin təzyiqi ilə kassi sülaləsi e.ə. XII əsrin axırlarında, babil adını daşıyan sonuncu çar Enlil-nadin-axxenin dövründə devrildi.

Güman edilir ki, kassilər elam dilinə qohum dildə danışırmışlar – assur-babil leksikoloji mətnlərində akkad dilinə

tərcümə edilmiş beş yüzə qədər söz və şəxs adları bizə çatmışdır. Kassilər öz yazılarını akkad dilində tərtib edirdilər.

Kassilərin dövründə əhali həm babil, həm də kassi allahlarına ibadət edirdi. Bu regionda nəqliyyat vasitəsi kimi atlardan geniş istifadə edilməsi kassilərlə əlaqələndirilir.

Kassilərin maddi mədəniyyəti onların öz ərazilərindəki tapıntılarla təmsil olunur. E.ə. II minillikdə bu ərazidə "Luristan tuncu" adlanan mədəniyyət nümunələri yüksək bədii və texniki səviyyədə yerinə yetirilmişdir.

**Assuriya.** Amorilərin gəlişi ilə Mesopotamiyanın və bütövlükdə Yaxın Şərqin tarixi hadisələrində Dəclə çayının orta axarında yerləşmiş Aşşur şəhəri (müasir Kalat-Şerkat) əhəmiyyətli rol oynamağa başlayır. Bu bölgənin ən qədim məskunlaşması hürrilər tərəfindən edilmişdir, lakin samilərin ikinci dalğasının gəlişi ilə onların böyük əksəriyyəti assimilyasiyaya məruz qalmışdır. Aşşur şəhərinə arxalanan samilər Dəclənin orta axarından şərqə doğru dağlıq və meşəlik



Assur mixi yazısı

bölgələrdə məskunlaşmağa başladılar. Aşşur tranzit ticarətin mərkəzinə çevrilir, hattların və hettlərin dövründə Şimali Mesopotamiyada və Kiçik Asiyada öz koloniyalarını yaradır. Bu koloniyalardan həm Aşşurun, həm də Kiçik Asiya





dövlətlərinin tarixini işıqlandıran çoxlu ədəbiyyat dövrümüzədək gəlib çatmışdır. Aşşurun vaxtaşırı Babilə və Mitanniyə onların qüdrətli çağlarında tabe olmasına baxmayaraq, mövqeyi möhkəmlənir, müstəqilliyə can atması artır.

E.ə. XV əsrin əvvəlləri– XIV əsrin sonlarında artıq qüvvətli Assuriya dövlətinin olduğu müşahidə edilir və o bu dövrdən özünün işğalçı yürüşlərinə başlayır. Assuriya e.ə. XIII əsrdə vaxtilə onu dəstəkləmiş Mitannini və hettləri məğlubiyyətə uğradır. Bu zaman assurlar ilk dəfə olaraq Urartu tayfaları ilə toqquşurlar. Sonuncular bir neçə əsr sonra Biaynili-Urartu dövlətini yaradırlar. Hettlərin darmadağın edilməsi assur tacirlərinin Aralıq dənizinə çıxan yollarını açdı. I Salmanasarın – Şulmanu-aşaredin (e.ə.1274-1245-ci illər) dövründə bölgənin bütün tarixi boyu daim müharibələr aparılmış, Babil məğlubiyyətə (e.ə. 1120-ci ildə) uğradılmışdı.

Lakin aramsız müharibələr və daxili çəkişmələr dövlətin zəifləməsinə və parçalanmasına gətirib çıxardı və e.ə. XI əsrin axırlarında Assuriyanın iri hərbi dövlət kimi varlığına son qoyuldu. Suriyanın, Finikiya və Fələstinin xırda dövlətləri müstəqillik əldə edib, yüksəlməyə başladılar.

**Assuriya və Babilin yeni yüksəlişi.** Yeni sami tayfalarının – Ərəbistan yarımadasından çıxmış aramilərin yayılması da bu dövrə təsadüf edir. Onlar Mesopotamiyanın və Yaxın Şərqin bütün dövlətlərinin ərazilərinə soxuldular, hətta Babildə taxtı da ələ keçirdilər. Onların dilləri bir çox dillərə təsir göstərmiş, əvvəlcə danışıq, sonra isə bir çoxlarının, hətta sami olmayan ölkələrin də yazı dilinə çevrilmişdi.

Assuriya dövlətinin yeni yüksəlişi e.ə. X əsrin sonları-IX əsrdən başlayır. Əvvəlki dövrdən ağır miras alınış II Adad-Nerari (e.ə.884-859-cu illər) sərhədləri möhkəmlətməyə başladı, separatist əhvali-ruhiyyəli «çarcıq»ların istifadə etdikləri və karvan ticarətinə mane olan köçəri tayfaları özünə tabe etdi. O, bir neçə sərhəd məntəqəsini Babildən qoparır və Nairi-Urartu tayfalarının yürüşlərini dəf edir. Onun

dövründə şəhərlər salınır və möhkəmləndirilir, paytaxt Kalxuya – müasir Nimrud – köçürülür. Sarayların otaqları relyefli təsvirlərlə və yazılarla bəzədilir. Elə onun hakimiyyəti illəri də bunların əsasında öyrənilir.

Onun oğlu III Salmanasar – Şulmanu-aşared (e.ə.858-824-cü illər) Aralıq dənizinin giriş yollarında öz ağalığım möhkəmlədir və Suriyaya qarşı çıxış edir. E.ə. 854-cü ildə Karkar yaxınlığında israillilərin də iştirak etdikləri savaş baş verir və o, bu müharibədə qələbə çalaraq, İsrailin və Cənubi Finikiyanın şəhərləri üzərinə xərac təyin edir, Urartunu məğlub edir və Babilistanı özündən asılı hala salır. Onun e.ə. 843-cü ilə aid olan kitabələrində Urmiyəətrafı hövzədə müxtəlif dövlət qurumlarının adları xatırlanılır, o cümlədən Mannanm adı Munna şəklində çəkilir. Şərqdə isə o, tarixi səhnəyə çıxmış yeni tayfalarla – ilk dəfə adları e.ə. 835-ci ildə çəkilmiş midiyalılarla vuruşmalı olmuşdur.

III Salmanasarm çarlığının öyrənilməsi üçün başlıca mənbə çarın fəaliyyətini və xərac verənlərin təsvirini əks etdirən «Qara obelisk» salnaməsi və üzəri relyefli təsvirlərlə örtülmüş Balavat darvazalarıdır ki, bunlar da həmin dövrdə onun qoşunlarının çox gözəl təşkil olunması və silahlandırılmasından xəbər verir.

E.ə. VIII əsrdə III Tiqlatpalasarm – Tukulti-apal-eşarranın (e.ə.744-727-ci illər) dövründə Assuriya dövləti böyük bir ərazini əhatə edirdi və bütün Yaxm Şərq məkanında yeganə qüdrətli qüvvəyə çevrilmişdi. III Tiqlatpalasar ordunu yenidən qurmuşdu. İlk dəfə olaraq yeni qoşun növü yaradılmışdı – döyüş arabası dəstələri nizami süvari ilə əvəz olunmuşdu və bu, daha çevik idi, bundan əlavə döyüş qabiliyyətini möhkəmlədən və yüksəldən digər yeniliklər də tətbiq olunmuşdu. İstehkamçılar dəstəsi yaradılmışdı ki, onlar da çətin keçilən yerlərin rəf olunmasına və mühasirəyə alınmış qalaların sürətlə tutulmasma imkan verirdi. Kəşfiyyat və rabitə xidmətləri yaradılmışdı. Bu dövrdən etibarən assur çarları köçürmə siyasətindən istifadə etməyə başlamışdılar. İşğal olunmuş ərazilərdəki şəhərlərin adları dəyişdirilir, əhalisi





zorla Assuriyanın uzaq vilayətlərinə köçürülür, və orada tezliklə assimilyasiya olunaraq, artıq bu dövrdə geniş yayılmış aramilərin dillərini əxz edirdilər.

Lakin bu dövrdə Mesopotamiyanın cənubunda arami və ya Cənubi Ərəbistan mənşəli yeni sami tayfaları – xaldeylər – kəldanilər məskunlaşmağa başlayırlar. Onlar Babilə qədər çatırlar, amma bu dəfə III Tiqlatpalasar onu müdafiə edə bilir. Bununla belə, II Sarqonun dövründə (e.ə.722-705-ci illər) xaldey çarı Marduk-apla-iddin Elamla ittifaqa girərək, Assuriyanı məğlubiyyətə uğradır, Babili tutur və bu şəhər yalnız e.ə. 710-cu ildə yenidən geri qaytarılır. Assuriya II Sarqonun dövründə də qüdrətli idi. E.ə. 714-cü ildə Urartu darmadağın edilmişdi, Samariya tutulmuş, İsrail əsir almmışdı, Manna asılı vəziyyətə salmmış, Midiyanın irəliləməsinin qarşısı almmışdı. Dövlətin paytaxtı əvvəlcə Dur-Şarrukin – müasir Xorasabat, sonralar isə Ninəvə – müasir Quyuncuq olur.

Onun varisləri – Sinaxerib – Sin-axxe-eriba (e.ə.704-681ci illər) Yerusəlimi mühasirəyə alıb, böyük xərac alır, Elamla vuruşur, e.ə. 689-cu ildə Babili tutur və darmadağın edir; nəvəsi – Assarxaddon – Aşşur-ax-iddina (e.ə.681-669-cu illər) işğalçı siyasəti davam etdirir. O, Misirlə müvəffəqiyyətli müharibə aparır və e.ə. 671-ci ildə onu özünə tabe edir. Sidon və Tir darmadağın edilir, ərəb tayfalarına qarşı yürüşlər edilir. Bu dövrdə Assuriya etnik baxımdan müxtəlif mənşəli və müxtəlif dilli xalqların məskunlaşdığı böyük əraziləri özünə tabe edir. Tarixdən məlum olan ilk imperiya yaradılır. O, daxili qarışıqlıqlardan yaxa qurtarmaq məqsədilə hələ öz sağlığında özünə varislər təyin edərək, imperiyasım oğulları arasmda bölüşdürür. Assuriya Aşşurbanapala – Aşşur-ban-apliyə (e.ə.669-635/27-ci illər), Babilistan və cənub ərazilər Şamaş-şum-ukinə (e.ə.668-648-ci illər) çatır. Bununla belə, az sonra sonuncu Elamla və assur ağalığından narazı olan ölkələrlə koalisiyaya girərək, öz qardaşına qarşı qiyam qaldırır. Babilin uzunmüddətli mühasirəsindən sonra o, məğlubiyyətə uğrayıb həlak oldu. Elam bütünlüklə dağıdıldı və öz əhə-

miyyətini birdəfəlik itirdi. Bu hadisələrin nəticəsi kimi Assuriya Misiri öz əlində saxlaya bilmədi və o azadlığım özünə qaytardı.

Aşşurbanapal həm də onunla məşhurdur ki, öz paytaxtı Ninəvada ilk kitabxananı yaratmışdır. Ölkənin hər bir küncbucağından onminlərlə qədim və onun dövründə tərtib olunmuş bədii, tarixi, dini, magiya və elmi mətnlərin əsli və ya surəti toplanmışdı. Lövhələr nömrələrlə təchiz olunmuşdu. Bütün bunlar yanmış və uçub-tökülmüş çar sarayının daşları altında qorunub qalmışdı. Bu mətnlər və onları oxumuş alimlərin çox böyük əməyi sayəsində biz qədim Mesopotamiyanın tarixini və qədim mədəniyyətini bilirik.

Aşşurbanapalın annalları e.ə. 636-cı il ilə başa çatır və o vaxtdan sonrakı dövr barədə yazılı məlumatlar qıtlıq təşkil edir. Assuriyada vətəndaş müharibəsi baş vermiş və ona tabe olan vilayətlər üsyana başlamışdılar.

E.ə. 626-cı ildə xaldey sülaləsindən olan Nabopalassar Babildə hakimiyyəti ələ keçirdi və onun sülaləsi e.ə. 538-ci ilə qədər hökmranlıq etdi. Xaldeylər tezliklə babilləşdilər və yerli dini və mədəniyyəti əxz etdilər. Bu dövr Yenibabil çarlığının qüdrətli çağı idi.

Lakin az sonra bu qüdrətli dövlətlər darmadağın edildilər və hətta tarixi tradisiyada unuduldular da. Bu, Midiya tayfalarımn birləşməsi prosesi nəticəsində güclü dövlətin yaranması ilə başa çatdı. Babilistanm dəstəyindən bəhrələnən midiyalılar, başda çarları Kiaksar olmaqla, dəfələrlə hücum etidkdən sonra e.ə. 614-cü ildə Aşşuru, 612-ci ildə isə paytaxt Ninəvanı tuta bildilər. Sonuncu Assuriya çarı II Aşşuruballitin (e.ə.611-609-cu illər) qoşunları onu dəstəkləyən Misir qoşunları ilə birlikdə e.ə. 605-ci ildə Karxemış yaxınlığında qəti məğlubiyyətə uğradı.

Babil isə bir müddət çar II Navuxodonosorun (e.ə 605-562-ci illər) başçılığı ilə Assuriyaya tabe olan əraziləri birləşdirdi və əsas ticarət yollarmı da öz nəzarəti altına almağa cəhd etdi. Aralıq dənizi sahili ölkələri uğrunda mübarizədə onun rəqibi Misir idi. Firon Nekonun (e.ə.610-595-ci illər)





dəstəyi ilə Yəhudi dövləti Babilə qarşı çıxdı. Navuxadonosor onların paytaxtı Yerusəlimi mühasirəyə aldı və e.ə. 597-cı il martın 16-da onu tutaraq, 3000-dən artıq yəhudini əsir apardı. Navuxodonosorun hakimiyyəti illəri iqtisadi və mədəni inkişaf dövrü idi. Lakin həm ölkə daxilində, həm də tabe ərazilərdə Babil çarlarının nüfuzu getdikcə düşməyə başlayır. Midiya və Elam torpaqlarını ələ keçirmiş Haxamanişi dövləti onun sərhədləri boyu güclənməyə başlayır. E.ə. 556-cı ildə arami tayfalarından birinin başçısının oğlu Nabonid (may 556-29 oktyabr 530-cu illər) Babilin çarı olur. O, arami tayfalarının hamısını birləşdirməyə çalışır və İranla Midiya arasındakı mübarizədən istifadə edərək öz dövlətini möhkəmləndirir. Lakin onun ölkə daxilində dəstəyi yox idi. İranlılar e.ə. 539-cu ildə Nabonidin oğlu Valtasarın – Bel-şar-utsurun sərkərdəlik etdiyi Babil qoşunlarım darmadağın etdilər. Nabonidin özü əsir götürüldü, İran şahı Kir isə Babilə daxil oldu.

**Urartu.** E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinin assur-babil mənbələri Van və Urmiyə gölü ətrafında konsolidasiya olunmuş tayfalar və dövlətlər haqqında məlumat verir. Bu ərazilərin böyük hissəsi e.ə. XII əsrdən qeyri-müəyyən ümumiləşdirici coğrafi ad kimi Nairi adı altında tez-tez çəkilir. Burada müxtəlif tayfalar yaşayır, bir çox siyasi və etnik qurumlar yaranır və dağılırdı. Mənbələrdə adətən «Nairi ölkələri»nin fəth olunması haqqında cəm halda danışılır və bu ərazidə yerləşmiş onlarla ölkələrin, çarların və şəhərlərin adları çəkilir. Görünür, Nairi adının özü hürri mənşəlidir və Kəşiyar dağlarından şimalda yerləşən Nahria (Nihria) hürri əyaləti ilə bağlıdır. Urartu dövlətinin yaranması və güclənməsindən sonra Nairi adı geniş mənada sıxışdırılır və Assuriya sərhədlərindən şimal-qərbdə, Boxtansu çayı vadisində yerləşmiş Xubuşkia ölkəsinə aid edilir. Lakin bu addan hələ də Assuriya salnamələrində Urartuya tabe ərazilərin ümumi adı çəkilərkən sinonim kimi istifadə olunurdu.

Assuriya mənbələri Nairi ərazisində ilk dəfə olaraq, Uruatri tayfaları ittifaqının adını çəkir. Birləşmə prosesi e.ə. IX əsrdə paytaxtı Tuşpa – Türkiyədə müasir Van şəhəri olan mərkəzləşdirilmiş dövlətin yaranması ilə nəticələndi.

Urartu adına yalnız assur mənbələrində rast gəlinir. Urartuluların özləri ölkələrini Biainili adlandırırdılar. Urartu çarı, Lutiprinin oğlu I Sardurinin (e.ə. 845-825-ci illər) ilk inşaat kitabəsi Vanda qala divarında assur dilində tərtib olunmuşdu. Sardurinin oğlu İşpuininin (e.ə. 825-810-cu illər) dövründə urartu dilində də kitabələr tərtib olunmuşdu. Bu dövrdən həm dövlətin özündə, həm də onunla qonşu ərazilərdə baş vermiş tarixi hadisələr assur mənbələrindən əlavə, urartu mənbələri vasitəsi ilə də işıqlandırılır.

İlk dəfə urartu mixi yazıları 1827-29-cu illərdə Van gölü ətrafında aşkar edilib, fransız alimi F.Şults tərəfindən qırxdan çox kitabənin üzü köçürülmüşdür. Bu dilin oxunmasına, məlum olan yazıları 1880-1884 illərdə nəşr edən fransız alimi S.Qüyar və, xüsusilə də ingilis alimi A.Seys böyük əmək sərf etmişlər. Urartu yazısının əsasında assur mixi yazısı götürülmüşdür. Urartu dilinin anlayışı N.Y.Marr tərəfindən yazıların Qafqaz dilləri əsasında öyürənilməsindən sonra irəliləmişdi. Mətnlərin oxunmasını, onlarm izahını və qrammatikasının araşdırılmasmı Q.A.Melikişvili və İ.M. Dyakonov davam etmişlər.

Urartuluların allahlar panteonuna, təbiət qüvvələrini təcəssüm etdirən bir çox allahlar daxil idi. Əsas allahlar Xaldi – müharibə allahı və Tayşeba – yağış və tufan allahı idi. Allahlara qurbanlar gətirilir və məbədlər tikilirdi. Urartu çarlarmın taxta çıxmalarının icra olunduğu dini mərkəz – müqəddəs şəhər Urmiyə gölündən cənub-qərbdə, Rəvandüz rayonunda yerləşən Ardini – assur mənbələrində Musasir adlanan şəhəri idi.

İşpuininin və onun oğlu Minuanın (e.ə. 810-786-ci illər) hökmranlıq etdikləri dövrdən urartuluların işğalçı yürüşləri başlanır və onlar ali Xaldi allahının kultunun mərkəzi olan Ardini şəhərini, eləcə də Urmiyə gölündən cənub-qərbə olan





əraziləri tuturlar. Urartulular şimal sərhədlərində Göyçə gölünün ətrafında olan Ueteruxi, Luşa, Katarza və «Etiuxi ölkəsinin çoxlu çarlarının» və digər tayfalarm ərazilərinədək irəlilədilər. Onların müasir Culfa rayonundakı İlanlıdağ ətrafı ərazilərinə yürüşü də bu dövrə təsadüf edir, belə ki, Puluadi ölkəsində Artsini, İş[...], Artsikua və Ayaniani şəhərdövlətlərin tutulması haqqında daşüstü yazı aşkar edilmişdir.

Urartu dövlətinin daha çox çiçəkləndiyi dövr çar I Argiştinin (e.ə. 786-764-cü illər) hakimliyi illərinə düşmüşdür. Onun bütün işğalları Horhor salnaməsi deyilən kitabədə öz əksini tapmışdır. Argişti güclənmiş Manna çarlığı və Cənubi Qafqazın digər tayfaları ilə ciddi mübarizə aparmalı olmuşdur. Yuxarı Mesopotamiya ərazilərində Assuriya ilə fasiləsiz müharibələr aparılırdı. Zəbt olunan vilayətlərdə urartulular sonralar hücum etmək və «düşmən ölkəsi»ni ram etmək üçün qalalar inşa edirdilər. Erebuni – İrəvanın yaxınlığında indi Arin-berd adlandırılan təpəlikdə və Argiştixinili – indiki Armavir yaxınlığında – qalalarının inşası da bu dövrə təsadüf edir.

II Sarduri (e.ə. 764-730-ci illər) işğalçı siyasəti davam etdirirdi, hərçənd o, öz dövləti daxilindəki rayonlarda baş vermiş üsyanları yatırmaq və artıq işğal olunmuş vilayətlərə dəfələrlə yürüş etmək məcburiyyətində qalmışdır. Urartulular onun hakimiyyəti illərində Urmiyə gölündən şimaldakı əyalətlərə soxulub, Puluadi ölkəsinin Libliuni – müasir Varzakan yaxınlığındakı çar şəhərini tutdu. Beləliklə, Puluadi vilayətinin Culfa rayonundan tutmuş daha geniş əraziləri əhatə etməsi qənaətinə gəlmək olar. Sardurinin hakimiyyətinin son illərində Urartunun mövqeyi, xüsusilə də onun qərb sərhədlərində Assuriya ilə e.ə. 743 və 753-cü illərdə aparılan savaşlardan sonra xeyli zəifləyir.

Sardurinin oğlu I Rusa (e.ə. 730-714-cü illər) Göyçə gölü ətrafındakı üsyançı vilayətləri tabe etmiş və «gölün o biri tərəfi»ndəki ərazilərə soxulub, Kiçik Qafqaz dağlarında lokallaşdırılan 19 ölkəni fəth etmişdir. Müstəqilliyə can atan Manna vilayətlərinin canişinləri ilə sövdələşməsi səbəbindən

o, Manna ilə mübarizədə də uğur qazanmışdır. Lakin assur çarı II Sarqonun məşhur e.ə. 714-ci il yürüşündə Urartuya və Manna vilayətlərinə endirdiyi dağıdıcı məğlubiyyət Urartu çarlarının işğalçı siyasətində fasilə yaratdı. Çar Rusa intiharla ömrünü başa vurdu.

I Rusanın hakimiyyəti illəri Urartu dövlətinin tədrici tənəzzülü dövrü idi. O, ölkə daxilində də çətinliklərlə rastlaşmış, qopub ayrılan vilayətlərlə, şimaldan gələn qorxulu kimmer-skif tayfaları və cənubda isə Assur dövləti ilə mübarizə aparmışdır.

I Rusanın oğlu II Argişti (e.ə. 714-685-ci illər) artıq Assuriya ilə sərhəddə yerləşən vilayətlərdə müharibələr apara bilmirdi və onun tərəfindən tərtib olunmuş kitabələrin sübut etdiyi kimi o, yürüşlərini şimal və şərq istiqamətlərinə yönəltdi. İndiki Sisian rayonu ərazisində tapılmış məbədin xarabalıqları arasında Tsuluku ölkəsinin çarı ilə savaş haqqında məlumat verən kitabə aşkar olunmuşdu və burada İrdua şəhərinin də adı çəkilir. Onun digər qayaüstü kitabələri Sərab və Ərdəbil arasındakı rayonda aşkar edilmişdir. Ölkə daxilində o, inşaat işləri ilə məşğul olurdu.

Argiştinin oğlu II Rusanın (e.ə. 685-645-ci illər) hakimiyyəti illəri haqqında məlumat azdır. O, qərb sərhədlərində ayrı-ayrı vilayətlərin tabe etdirilməsi məqsədilə müharibələr aparmış və şimalda öz mövqeyini möhkəmlətmişdir. II Rusa inzibati-təsərrüfat və dini mərkəz Teyşebaini şəhərini (İrəvan yaxınlığında) inşa etdirmişdi.

Sonuncu Urartu çarları III Sarduri, IV Sarduri, Erimena, III Rusa və IV Rusanın adları yalnız arxeoloji qazıntılar zamanı aşkar olunmuş ayrı-ayrı əşyalar üzərində xatırlanması ilə bəllidir. Bu dövrdə Urartu haqqında assur mənbələri bəzi məlumatları verir. Həmin məlumatlara görə Urartu artıq Assuriya ilə ittifaqda, hətta bəzən də ondan asılı vəziyyətdə olur.

E.ə. VI əsrin əvvəllərində Urartu da qonşu Assuriya və Manna dövlətləri kimi Midiya tərəfindən işğal olunmuşdu.





**Manna.** E.ə. I minilliyin əvvəllərindən Urmiyəətrafı hövzə rayonunda da xırda tayfa və dövlət qurumlarının birləşməsi prosesi baş verir. Urmiyə gölündən cənubda olan ərazilər uzun müddət Zamua adı ilə adlandırılmışdı. Dövlətin başında çar dururdu. Paytaxtı Zamri şəhəri yaxşı möhkəmləndirilmişdi. Onlar dəfələrlə ətraf əraziləri özlərinə tabe etməyə çalışan assurların yürüşlərini dəf etmişdilər. Assurlar ilbəil təkrarlanan yürüşlər nəticəsində çox böyük var-dövləti ələ keçirir və ya xərac kimi alırdılar, belə ki, bölgədə xeyli iri və xırdabuynuzlu mal-qara var idi, zəngin metallar və onlardan hazırlanan məmulat çox idi, məharətləri ilə şöhrət tapmış ustalar, bənnalar şəhərlərdən tutulub aparılırdı. Sonralar Zamua parçalandı – onun bir hissəsi Assuriyaya birləşdirildi. Urmiyə gölünə yaxın torpaqlar Daxili Zamua adlanırdı. Bu ərazilərdə Manna dövləti yaranmışdı.

Manna (assur mənbələrində Munna, Manna, Mannaş, Urartu mənbələrində – Mana, Bibliyada – Minni) ilk dəfə assur çarı III Salmanasar tərəfindən e.ə. 843-cü ildə Assuriya qoşunlarının soxulduğu «ölkə»lərdən biri kimi göstərilir. Yəqin ki, Manna adı yerli mənşəli olmuşdur, belə ki, bütün mənbələr yalnız kiçik variasiyalarla onu eyni cür adlandırırlar. Uzun müddət ərzində bir çox assur çarları tərəfindən adı çəkilən İzirtu (Zirta) şəhəri onun paytaxtı olmuşdur. E.ə. 829-cu ildə Manna çarı Udakinin dövründə paytaxt Zirtu dağıntıya məruz qaldı, lakin Mannanın tabe etdirilməsi və ya qonşu ərazilər kimi hər hansı bir xəracın təyin edilməsi barədə məlumat verilmir. Urmiyəətrafı rayon daim assurların yürüşlərinə məruz qalırdı. E.ə. IX əsrin sonlarından Manna urartuluların yürüşlərini də dəf etməli olmuşdu.

Manna dövləti özünün çiçəklənmə dövrünə İranzunun (e.ə. ?-716-cı illər) və onun sələflərinin hakimiyyəti illərində çatmışdır. Çarın hakimiyyəti irsi idi və İranzudan sonra onun oğlulları Aza və Ullusunu ardıcıllıqla ölkəni idarə etmişlər.

Dövlət çar tərəfindən təyin və ya təsdiq edilmiş canişinlərin, bəzən isə irsi hökmdarların idarə etdikləri vilayətlərə – Qizilbunda, Zikertu, Andia, Uişdiş, Sanqibuti, Messi və s.

bölünürdü. Canişinlər, vaxtaşırı mərkəzi hakimiyyətin zəifləməsindən və ya qonşu dövlətlərin köməyindən istifadə edərək müstəqilliyə can atırdılar. İranzunun ölümündən sonra Assuriyaya meylli olan oğlu Aza taxtdan salınıb, öldürüldü. Urartu tərəfindən qızışdırılan bir sıra vilayətlərin canişinləri Mannadan qopub ayrılmağa cəhd göstərirdilər. Taxta çıxan Ullusunu assurların köməkliyi ilə öz dövlətinin sərhədlərini bərpa edir və hətta sonralar onu bir qədər də genişləndirir. Assuriya çarı II Sarqon e.ə.714-cü ildə urartuluları və onların müttəfiqlərini sarsıdıcı məğlubiyyətə uğradır. Sarqonla Ullusununun arasında saziş bağlanılır və bu sazişə görə Ullusunu bir sıra mənfəətlər də əldə edir: «onların ağası hökmdar Ullusunuya mən (Sarqon) fəxri süfrə açdım, onun taxtını atası, valideyni İranzunun taxtından daha yüksəklərə ucaltdım». Urartulardan geri alınmış və ilk vaxtlar Assuriyaya birləşdirilmiş 22 qala və 2 möhkəmləndirilmiş şəhər Mananın özünə qaytarıldı.

Hələ e.ə. IX əsrdə urartulular vaxtaşırı şimali-şərqi qonşularının ərazilərinə yürüşlər edirdilər. Culfa rayonunda – İlanlıdağda tapılan urartu qayaüstü yazısında Puluadi ölkəsi və onun üç məskəninin adı çəkilir. Birinin adı – Arasani – yazıya yaxın olan müasir Ərəzin kəndinin adında saxlanılmışdır. Bir az sonra onlar müasir Sisian rayonuna çatmışlar və burada Tsuluku məskənini tutmuşlar. Puluadi ölkəsinin və onun paytaxtı Libliunini adını e.ə. VII əsrdə də Araz çayının sağ sahilindəki ərazilərdə, indiki Varzaqan vilayətində tapılan qayaüstü yazıda çəkilir.

Sarqonun varislərinin hakimiyyəti illərində Mannanın vəziyyəti o qədər mökəmlənmişdi ki, o hətta Assuriyanın bir sıra yaşayış məskənlərini ələ keçirə bilmişdi. Assuriya çarı Sinaxxerib Mannaya yürüş etmək məcburiyyətində qalmışdı, lakin onun bu tədbiri o qədər də uğurlu alınmamış, yalnız əsirlər götürülmüşdür.

Manna dövləti bir müddət Urmiyaətrafı hövzədən çox kənarlara çıxan kifayət qədər geniş ərazilərə sahib idi. Müasir Naxçıvan vilayətinin ərazilərini də onun tərkibinə aid etmək olar, belə ki, sonuncunun həmin dövrə aid maddi mədəniyyəti bütün Manna dövləti ərazisində yayılmış maddi mədəniyyətlə eyniyyət təşkil edir.





Şərqə doğru irəliləyərək onlar Savalan dağlarının cənub yamacında Arxu ölkəsinə yürüş edirlər. Onların Uşulu və Buku ölkələrini Qarasu çayı ilə eyniləşdirilməsi güman edilən çayadək fəth etmələri barədə qayaüstü yazı həkk olunmuşdur. Geriyə qayıdan baş isə Girduni, Qituxani, Tuişdu ölkələri və Rutumni (?) şəhəri tutulmuşdur.

Növbəti Manna çarı Axşerinin adı Assarxaddonun kitabəsində çəkilir. Assuriya ilə mübarizədə Axşeri «mannalıların ölkəsinin ərazilərində» məskunlaşmış skiflərin köməyindən istifadə etmişdir. Assarxaddon özünü «mannalılar ölkəsinin əhalisini, ram edilməyən kutiləri pərən-pərən salan, onları xilas edə bilməyən müttəfiq – skif İşpakanın qoşununu qılıncdan keçirən» kimi qələmə versə də, onun Aşşur allahına müraciətindən görünür ki, o, bu xalqın daimi təhlükəsindən həmişə narahatdır. Axşerinin hakimiyyəti illərində mannalılar özlərinin şərq sərhədlərində möhkəmlənmiş midiyalılarla da birlikdə çıxış edirlər. Müttəfiqləri bir-birindən təcrid etməyə çalışan Assarxaddon hətta öz qızını skiflərin çarı Partatuaya ərə vermək məsələsini də müzakirə edirdi. Onun varisi Aşşurbanipal işğal olunmuş assur torpaqlarını dinc yolla qaytarmağa cəhd göstərdi, lakin, görünür, münasibətlər nizama salınmadı, qoşunlar arasında döyüş baş verdi və mannalılar məğlubiyyətə uğradılar, assurlar isə böyük qənimətlə öz ölkələrinə qayıtdılar. Mannalılar bu məğlubiyyətdən sonra Axşeriyə qarşı üsyan etdilər, «onlar Axşerinin meyidini onun şəhərinin küçəsinə atıb, cəsədini şəhər boyu sürüdülər; onun qardaşlarını, onun ailəsini, onun nəslini silahla doğradılar». Axşerinin oğlu Ualli Assuriyanın qələbəsini qəbul etdi və assurların tələb etdikləri xəracı verdi. Oğlu Erisini və qızını Assuriya çarının sarayına göndərdi. Aşşurbanipal özünün xoşməramlı səfirini Mannaya göndərdi.

Manna dövləti Assuriyanın e.ə. 616-cı ildə Babilistanla sonuncu müharibəsi zamanı da onun müttəfiqi idi. Manna-

nın adı sonuncu dəfə Bibliyada çəkilir. İeremiyanın kitabında Urartu, Manna, skiflərin və midiyalılarm çarlıqları Babilə qarşı birgə çıxış etməyə çağırılır.

Manna dövlətinin ta qədim zamanlardan burada yaşayan əhalisi etnik baxımdan həm kuti-lullubu, həm də hürri substratını özündə təcəssüm etdirmişdi. Getdikcə hürrilərin rolu artır – bunu Manna dövründən məlum olan adlar və toponimlərin təhlili aydm göstərir. Bəlkə də kuti və hürri dilləri qohumdur. Hürri-urartu dilinin Şərqi Qafqaz dilləri qrupu ilə bir sıra struktur bənzərlikləri vardır və çox güman ki, kuti dili də bu qrupa mənsub imiş.

Dövlətin çiçəklənməsi və möhkəmlənməsi mannalıların nail olduqları yüksək iqtisadi səviyyəyə əsaslanırdı. Arxeoloji tapıntılar metallurgiya və metal emalında böyük nailiyyətlərin olınasını, sənətkarların böyük bədii zövqə və ustalığa malik olmalarmı, şəhər salmmasında böyük bacarığa malik olmalarını göstərir. Yeri gəlmişkən, bir çox dillərdə istifadə olunan «polad» sözü Urmiya gölündən şimada yerləşən Puluadi ölkəsinin adı ilə əlaqələndirilir; bu rayon qədimdəki kimi indi də ınüxtəlif faydalı qazıntılarla zəngindir. Mannalı bənnalar və sənətkarlar tutulub Assuriya şəhərlərinə aparılırdı. Atlardan Yaxın Şərq üçün yeni olan istifadə üsulu – minik üçün istifadə olunması çox tezliklə qəbul edildi. Manna ölkəsinin Aniaştaniya vilayətində hətta qonşu dövlətlərin qoşunları üçün atlar yetişdirilir və onlara xüsusi təlim verirdilər.

**Cənubi Qafqaz tayfaları.** Assur ınənbələri Cənubi Qafqazın cənubi-qərb rayonlarında e.ə. XII əsrdən mübarizə apardığı Dayaeni/Daiani tayfa ittifaqının adını çəkir. O, özünün şimal yürüşü zamanı Nairi ölkəsinin 23 çarı ilə vuruşur və Qara dənizin olduğu güman edilən «Yuxarı dəniz»ə qədər çatır. Tiqlatpalasar Dayaeni ölkəsində çar Sienini tutur, onu Assuriyaya gətirir, lakin sonra tabe olacağına and içdirdikdən sonra buraxır. Fəratın yuxarı axarlarında vuruşan III Salmanasar hakimiyyətinin 15-ci ilində Dayaeni çarı





Asiadan xərac almışdır. E.ə. VIII-VII əsrlərin kitabələrində Anadoluda iri tayfa birlikləri olan muşklar, kaşklar, taballar və b. mövcudluğu barəsində məlumat verilir ki, bunlarm da adlarmda sonralar mesxlərin (mosxların), iberlərin adlarının izi müşahidə olunur.

Urartu kitablərində də Dayaeni ölkəsinin adı Diauexi/Diauxi formasında çəkilir. Urartu çarı Menua ölkənin fəth olunması və çar şəhəri Şaşilanın tutulması haqqında məlumat verir. Ölkənin çarı Utupurşa tabe olmağa və böyük miqdarda xərac verməyə məcbur olmuşdur. Bu ölkənin ərazisi Fərat çaymın yuxarı axarlarından başlayaraq, şimalda qədim Zabaxa ölkəsinin adının olduğu güman edilən müasir Cavaxetiyayadək uzanırdı və Urartu mənbələrinə görə Zabaxa Dayaeni ilə yanaşı idi. Əldə olunan qənimətin, əsirlərin, habelə ölkə üzərinə qoyulmuş xəracın Minuanın kitabında sadalanan miqdarma görə bu ölkə inkişaf etmiş təsərrüfatı ilə, xüsusilə də maldarlıq və metal emalı sahəsində kifayət qədər zəngin imiş. Bu ölkənin və həmin çarın adları Dayaeninin üç vilayətini tutub, öz ölkəsinə birləşdirmiş I Argiştinin məlumatlarmda da çəkilir.

Mənbələrdə Dayaeni ilə yanaşı, müstəqilliklərini qorumaları uğrunda mübarizə aparan başqa ölkələrin də adları xatırlanılır. Onlardan Katarza, Ueteruxi, İqaniexi, Zabaxa kimi bəzilərinin adları Cənubi Gürcüstan onomastikasında saxlanılmışdır.

E.ə. VIII əsr Urartu yazılarında Dayaenidən şimalda yerləşən Kulxa ölkəsinin adı çəkilir. Antik mənbələrin Kolxidası; müasir Qərbi Gürcüstan və Abxaziya ərazisi; Homerəqədərki dövrdə arqonavtlar – Qara dənizin şərq sahillərinə sehrli qoyunun qızıl dərisini əldə etmək üçün yürüş keçirmiş yunan qəhrəmanları haqqında formalaşmış əsatir həmin ölkə ilə əlaqələndirilir. Əsatir e.ə. V əsr şairi Pindarm əsərindən bəllidir. Kitabələrdən birində Urartu çarı II Sarduri bu dövrdə onun tabe etdiyi Xuşalxi ölkəsinin tutulmasından, digərində isə Kulxa ölkəsinin çar şəhəri İldamuşa haqqmda xəbər verir. Kulxa da Dayaeni kimi onlara tabe etdirilmiş vilayət-

lərlə birlikdə dövlət qurumu idi və onların başında özlərinin, eləcə də təyin olunmuş hakimləri var idi. Müdafiə divarları ilə əhatə olunmuş və arxeoloji qazıntılarla təsdiqlənən çoxlu sayda yaşayış məskənləri və şəhərlər mövcud idi. Bu vilayətlərdə məskunlaşan tayfalar yüksək iqtisadi inkişaf səviyyəsində idilər, metallurgiya sahəsində, o cümlədən dəmirin emalında böyük uğurlar qazanılmışdı.

Antik mənbələrə görə e.ə. VII-IV əsrlərdə müasir Qərbi Gürcüstan ərazisində Kolxida çarlığı mövcud olmuşdur. Yaşayış məskənləri və nekropolların qazıntıları zamanı əldə olunan dəmir kotan, toxa, gavahın və ya gavahınabənzər alətlər, boyunduruğa qoşulmuş öküz təsviri, çaxır, taxıl və s. kənd təsərrüfatı məhsullarının saxlanılması üçün istifadə olunan külli miqdarda gil qablar – pifoslar kimi materialın yayılması sayəsində əsas təsərrüfatçılıq növünün əkinçilik olması barədə fikir yürütmək olar. Bunlar həm də əmək alətləri və silahların, zərgərlik sənətinin, keramika istehsalının, kətanın emalının, gəmiqayırmanın və s. yüksək səviyyədə inkişaf etməsinə dəlalət edir. Bu da öz növbəsində ticarət mübadiləsinin imkanlarını artırmış, burada yunan koloniyalarının meydana çıxmasına yardım etmişdir.

Daha son antik mənbələrə görə müasir Gürcüstanın şimali-şərq ərazilərində bu dövrdə kart tayfaları yaşayırdılar və onlar Kartli (İberiya) çarlığı yaratmışdılar. E.ə. IV-III əsrlərdə onun mərkəzi Msxet rayonu idi. Arxeoloji məlumatlar yüksək sosial-iqtisadi səviyyəni şərtləndirən məhsuldar qüvvələrin daha da inkişaf etməsi, ictimai əmək bölgüsünün dərinləşməsi və ticarət mübadiləsinin canlanması haqqında məlumat verir.

**Hattlar.** Kiçik Asiyada hatti adı e.ə. III minilliyin yazılı mənbələrindən məlumdur. Sonralar gəlmiş tayfalar bu adı özlərində saxlamışlar; onları fərqləndirmək üçün elmdə yeni gələn tayfaları hettlər adlandırırlar. Arxeoloji qazıntıların materiallarına görə hattlara qədər də bölgədə çoxlu sayda





tayfalar məskunlaşmışdı, lakin onların adları hələlik müəyyənləşdirilməmişdir.

Çatal-Hüyük və Hacılardan aşkar edilən materiallar göstərir ki, Anadolu e.ə. VII-V minilliklərdə neolit mədəniyyətinin inkişaf etmiş mərkəzi idi və Yaxın Şərqin onunla eyni vaxtda mövcud olmuş qədim mədəniyyətindən az fərqlənirdi. Artıq e.ə. VI minillikdə misdən və qurğuşundan muncuq və xırda bəzək əşyaları düzəldirdilər. E.ə. IV minilliyin qəbirlərində sadə həndəsi rəsmli qırmızı-qəhvəyi keramika, e.ə. III minillikdə isə xətli-naxışlı şirlənmiş keramika müşahidə olunurdu. Alişar və Alacadakı e.ə. XXIV-XXII əsrlərə aid «çar sərdabələri»ni hatt etnosu ilə əlaqələndirirlər. Bu qəbirlərin inventarı Maykop mədəniyyətinin əşyaları ilə uyğunluq təşkil edir. Güman edilir ki, bu mədəniyyət Anadoludan Şimali-qərbi Qafqaza yayılmışdır. Bu sərdabələrdən tapılan yüksək istehsal texnikası olan metal qablar, metalın uzun əsrlər emal olunması tarixindən xəbər verir.

E.ə. III minillikdə bütün Anadolu ərazisində möhkəmləndirilmiş yaşayış məskənləri meydana gəlir və onlar özlərinin hökmdarı olan şəhər-dövlətlərə çevrilirlər. Belə şəhər-dövlətlərdən Purusxanda, Amkuva, Kusara, Hattusas, Vaxşuşana, Samuxa və b.-nın adları məlumdur. Nisbətən daha son dövr yazılı abidələrindən məlum olur ki, bu mədəniyyəti yaratmış xalq hatti adlanırdı və onların dövlətlərinin paytaxtı Kiçik Asiyanın şimal-şərq hissəsində Qızıl İrmaq (antik Qalis, hettlərdə – Marasantiya?) çayının döngəsində yerləşən Hattusas şəhəri idi. Onun xarabalıqları müasir Boğazgöy kəndinin yaxınlığındakı təpəliklərdən birinin yamacında aşkar olunmuşdur (burada zəngin sənədlərə malik arxiv aşkar olunmuşdur). Onların iqtisadiyyatı əsasən kənd təsərrüfatına və bu bölgənin zəngin olduğu metal emalına əsaslanırdı. Ölkə tranzit ərazi kimi mühüm rol oynayırdı və şimal-qərbdə və cənubda Mesopotamiya və Misirə kimi əlaqələrə malik idi. Bir qədər son dövr Babil mənbələrində belə bir əfsanə vardır ki, Akkad hökmdarları hattların şəhəri Buruşxandaya (hettlərdə – Purusxanda) tacirlər göndərir, amma kutilərin soxul-

ması nəticəsində Anadolu ilə əlaqələr kəsilir. Sonralar Assuriya çarlarının zamanında ticarət əlaqələri bərpa olunur.

Hattusasın (Boğazgöyün) çar arxivində hett dilində mixi heca yazısı ilə yazılmış yüzdən artıq kitabə aşkar edilmişdir. Onlarm əksəriyyəti birdilli olub, qısa, mətn fraqmentlərindən ibarətdir, bununla belə, hett dilinə tərcümə olunmuş hattdilli bilinqvalar – ikidilli mətnlər də vardır. Hatt hissəsinin mətnləri hələlik kifayət qədər öyrənilməyib. Onların dillərindən toponimlər, şəxs adları, allahlarm adları, bir neçə dini ayin, himn mətnləri saxlanılmışdır. 150-dək sözün mənası müəyyənləşdirilmişdir. Qrammatik quruluşuna görə hatt dilini Qafqaz dilləri ailəsi ilə, daha çox isə abxaz-adıgey qolu ilə yaxınlaşdırırlar, amma bu, bir növ ara variantı hesab edilir və onun tədqiqi davam etdirilir. Hattlar gəlmə tayfalara dini, mədəniyyət və sosial təşkilat baxımından güclü təsir göstərmişlər. Belə ki, hett panteonunun ondan artıq allahından altısı hattlardan mənimsənilmişdir. Hettlər əridilmə üsulunu kəşf etdikləri dəmirin adını, musiqi alətlərinin, çörəyin, içkilərin, vəhşi heyvanların, qiymətli ağac növlərinin, və s. adlarını hattlardan mənimsəmişlər.

E.ə. XVIII əsrin əvvəllərinə hatt dili Mərkəzi Anadoluda istifadədən çıxdı. Hattlar yeni gəlmiş, dilləri Hind-Avropa dilləri ailəsinə aid olan tayfalar tərəfindən assimilyasiya olundular. Yeni tayfalara tarix elmində hett adı verilmişdir.

Hazırda elmdə hind-avropa tayfalarının ilkin vətəninin Şərqi Avropa və Qara dənizin şimal sahillərini hesab etmək qəbul olunub. Bu, bir tərəfdən, o dövr üçün daha geniş əraziləri tutan və bilavasitə qonşuluqda yaşayan Hind-Avropa və uqro-fin dilləri arasındakı leksik əlaqələrin izlənildiyi qədim dövrün linqvistik materialları ilə təsdiq olunur. Onların arasındakı təmaslar bir neçə mərhələdən keçir: ari birliyi dövrü (ari – Hind-Avropa tayfalarının birinin adından götürülmüş bu söz elmi termin kimi qəbul edilib), protoiran və protohind qollarının ondan ayrılması dövrü, müxtəlif qolların ayrı-ayrı etno-linqvistik qruplara təcrid olunması dövrü.





Dil materiallarının göstəricilərinə görə, hind-iranlılar baltikətrafı xalqlardan və slavyanlardan təxminən e.ə. V minilliyin birinci yarısında ayrılmışlar. Onların yayılması e.ə. III minillikdə başlanmış və bu, uzun müddət ərzində tədrici infiltrasiya və qarışma xarakteri daşimışdı. Arxeoloji cəhətdən bu prosesi dəfnetmə mərasiminə görə "Yamnaya kultura" adlanan mədəniyyətdə görmək olar. Bu mədəniyyətin daşıyıcıları ilə bağlı Dnepr və Volqa arasında "srubnaya kultura", cənubi Uralda və Qazaxıstanda "afanasyevskaya kultura", cənubi Sibirdə "andronovskaya kultura" adlanan mədəniyyətləri əmələ gəlir. Bir neçə dalğa nəticəsində şərqə doğru irəliləyən hind-avropa tayfaları Qərbi Çin, Şimalı Hindistan, Qərbi və Mərkəzi Monqolustan ərazilərinə çatmışlar. Hind-arilərin və iranlıların dağılması dövrü e.ə. 2000-1500-cü illər hesab edilir. Hind-iranlılar yaddaşlarında ilkin vətənləri haqqında qədim yazılı abidələrdə – Mahabharata və Avestada məlumat saxlamışlar. Məsələn, Volqa çayının adı Vedada – *Rasa*, Avestada – *Ranha*, pəhləvilərdə – *Arang* kimi çəkilir. Antik mənbələr də bu adı saxlamışlar və onlar Volqanı Ra çayı adlandırırlar. Rəvayətlərdə yarımifik süjetlər də saxlanılmışdır. Bundan əlavə, fin-uqor dillərində ari dillərindən mənimsənilmiş materiallar da vardır.

Hind-Avropa tayfaları Qədim Şərq ölkələrinə e.ə. II minilliyin əvvəllərində koçməyə başlayırlar. Onların buraya gəlmələri həm maddi mədəniyyət abidələrində – yerli mədəniyyətə yeni elementlərin müdaxilə etməsi, yeni ayinlərin və yeni təsərrüfat formalarının meydana çıxması və s., həm də o dövrü işıqlandıran yazılı mənbələrdə öz əksini tapmışdır. Hərbi işdə atdan istifadə olunması vərdişləri Hind-Avropa tayfalarmın Yaxın Şərqə gəlmələri ilə əlaqələndirilir. Onlar yerli əhalini ari tayfalarına hələ hind-iran dil və mədəni-tarixi birliyinin dağılmasmdan əvvəl bəlli olan at döyüş arabası ilə tanış etmişlər.

Hind-iranlıların bir çox ənənələri, sosial-siyasi təsəvvürləri, mifoloji obrazları, dini-poeziyada dil ifadələri və s. at və döyüş arabaları ilə bağlı idi. Yüngül döyüş arabalarının

yayılması Yaxın Şərqdə e.ə. XVIII-XVI əsrlərdə hərbi işdə baş vermiş çevrilişə səbəb oldu. Burada atçılığın intensiv inkişaf etdirilməsinə başlanılır, məşq sistemləri, cilov-yüyən tətbiq edilməklə, təkərlərə ox qoyulması və s.-dən istifadə olunmuşdur.

Eyni zamanda gəlmə tayfalar əyləndikləri ərazilərdə yaşayan əhalinin nailiyyətlərini mənimsəmişlər. Məsələn, İran yaylası və Orta Asiyanm əkinçilik vilayətlərində məskunlaşan gəlmə İran tayfaları dulus çarxmda düzəldilmiş keramikadan istifadə etməyə başladılar, çöl ərazilərdə qalanlar isə hələ e.ə. I minillikdə qabı əllə düzəldirdilər.

Hind-Avropa tayfalarınm Yaxın və Orta Şərq ölkələrinə daxil olma yolları Balkan, Qafqaz və Orta Asiyadan keçirdi.

Bu köçmələr bir neçə dalğa ilə baş vermişdi. Hələ e.ə. III-II minilliklərdə Dunay çayı hövzəsindən Balkan yarımadasına və Egey dənizi adalarına axey və ion tayfaları köçmüşdülər. E.ə. II minilliyin sonlarında dori tayfaları buraya köçmüşdü. Onların bir qismi qarışmış, bir qismi isə Hind-Avropa əhalisinəqədərki pelazqları sıxışdırıb çıxarmışlar. Yunan adı Yunanıstanın şimal tayfalarından birinin adına mənsub idi – o vaxtlar özlərini ellin adlandırırdılar.

Hind-Avropa tayfaları kifayət qədər erkən vaxtlarda Kiçik Asiyaya soxuldular. Onların buraya müdaxilə yolları ilə bağlı müxtəlif nöqteyi-nəzərlər mövcuddur. Bir nöqteyinəzərə görə onlar Qafqazdan keçmişlər, daha çox alimin tərəfdarı olduğu digər nəzəriyyəyə görə isə onlar Balkanlardan keçmişlər. Son illərdə yeni bir nəzəriyyə də irəli sürülmüşdür ki, Hind-Avropa tayfalarının ilkin vətənləri Ön Asiyada – Balkanlardan ta İran yaylasına və Cənubi Qafqazadək ərazilər olmuşdur, konkret olaraq hettlər Şərqi Anadoludan qərbə doğru yalnız yerlərini dəyişdirmişlər. Lakin bu nəzəriyyə hələlik müzakirə mərhələsindədir.

Biz Hind-Avropa tayfalarının ilkin vətənlərinin Qara dənizin şimal sahillərinin olması və ən azı hettlərin Balkanlar vasitəsilə Kiçik Asiyaya daxil olmaları nəzəriyyəsinə tərəfdarıq. Bu müdaxilə istilalar nəticəsində olmayıb, yeni etnik elementlərin tədrici infiltrasiyası nəticəsində baş vermişdir. Onlar ayrı-ayrı bölgələrdə məskunlaşır, öz aralarında mübarizə aparmaqla yanaşı, burada mövcud olan birliklərdən ən qüvvətlisi sayılan hattlara qarşı mübarizədə yerli əhali ilə birləşirlər.





Mixi kitabələrdə Kiçik Asiyanın əraziləri haqqında ən erkən məlumat e.ə. III minilliyin sonlarında Qədim Sarqonun və Naram-Suenin yürüşləri ilə bağlıdır.

**Hettlər-nesilər.** E.ə. 1940-cı ildən başlayaraq onların barəsində əsas məlumatları Kiçik Asiyada yaşayan Assuriya tacirlərinin mixi lövhələri, eləcə də onların öz paytaxtları Aşşur ilə işgüzar yazışmalarından əldə edirik. Assuriya müxtəlif şəhərlərdə, əsasən Mesopotamiya metallurgiyasının kəskin ehtiyac duyduğu metalla təmin etmək üçün tranzit ticarət faktoriyaları açırdılar. İndiki Kayseri yaxınlığında, qədim Kaniş şəhərində (ass.; hett. Kanes, müasir Kültəpə) böyük ticarət koloniyası var idi. Boğazgöy çar arxivi də küllü miqdarda yazılı abidə ilə zəngindir. Yazılı sənədlər arasında müxtəlif dillərdə – hatt, hett, Hind-Avropa dilləri dialektlərində (luviya və palay), assur, hürri, Misir və hətta şumer ideoqramlarından istifadə edilməklə tərtib olunmuş mətnlər vardır. Hett mətnləri həm mixi yazı ilə, həm də heroqliflərlə yazılmışdır. Daha son hett mixi yazıları təxminən onların imperiyalarının son illərində meydana çıxır. Bunlar Xam və Hələbdə müasir tikililərdə divara hörülmüş bazalt bloklarda, Tavr dağlarında, Boğazgöy və Alaca-Hüyük yaxınlığında, hətta möhürlərdə və metal lövhələrdə də aşkar edilmişdir. Bir çox ölkələrin alimləri Kiçik Asiya ərazisində aşkar edilmiş maddi və yazılı abidələrin öyrənilməsinə böyük töhfələr vermişlər. Hett-nesi dillərinin açımı və onların Hind-Avropa dilləri ilə qohumluğu çex alimi B.Qroznı tərəfindən həyata keçirilmişdir. O, «nesi və ya nesi dili» adını hettlərin birinci paytaxt Nesanın adı ilə qəbul etmişdir və bu, dilin öz həqiqi adıdır, hərçənd elmdə onun əvəzinə hett dili adı kök salmışdır. O

dövrün ətraf xalqları da onlardan əvvəl Anadoluda yaşamış əhalinin adını yeni gələn tayfalara verib Hett dövləti adlandırmışlar.

Misir mənbələri e.ə. XV əsrdən Xeta dövlətinin adını çəkir. Misirdə Tell-Amarna arxivindən, fironlarm müxtəlif dövlətlərin çarları ilə diplomatik yazışmalarma aid aşkar edilmiş mətnlər hettlərin qüdrətli çağları haqqında çoxlu məlumat verir. Assuriya mənbələri Kiçik Asiyada onlarm ticarət koloniyalarının meydana çıxması dövründən məlumat verir.

Hett (luviya və nesi) torpaqlarmın birləşdirilməsinə Kussara (Qızıl İrmaqdan cənubda yerləşməsi mümkündür) şəhərində hökmranlıq etmiş çar Pitxanın (e.ə. XVIII əsr) dövründə başlanılmışdır. O, öz hakimiyyətini Nesaya (ass. Kaniş) yaymışdır. Onun oğlu Anitta özü ilə rəqabət aparan Nesa, Tsalpuva, Purusxanda, Salativara şəhər-dövlətləri müvəffəqiyyətlə fəth etmiş, Hattusası (e.ə. 1808-ci ildə) dağıtmışdı. Anitta Anadolunun böyük hissəsini birləşdirmiş, Nesanı isə paytaxt etmişdir. Hattusas e.ə. XVII əsrin ikinci yarısında artıq yenidən qüdrətli şəhərə çevrilmişdi.

I Labarna (e.ə. 1680-1650-ci illər, erkən dövr hett çarlarının hakimiyyəti illəri o qədər də dəqiq deyil) hettlərin torpaqlarını daha da genişləndirmişdir. Sonralar onun adı «çar» sözünün sinonimi kimi fəxri titula çevrildi. Onun varislərinin dövründə Hett dövləti bütün Yaxın Şərqdə qüdrətli dövlətə çevrilmişdir. Hett imperiyası sözün tam mənasında mərkəzləşdirilmiş dövlət deyildi, demək olar ki, rəhbərliyində yerli nəsillərdən və ya çarın qardaşları, yaxud da uşaqlarının durduqları muxtar dövlətlərin ittifaqı idi. Onlar öz vəzifələrinin icrasına başlamazdan əvvəl etibarlılıq üçün and içməli idilər. Dinc vaxtlarda çarın hakimiyyəti bir tərəfdən saray əyanlarından ibarət olan şura ilə, digər tərəfdən isə xalq «yığıncağı»ndan əmələ gəlmiş döyüşçülər yığıncağı ilə məhdudlaşırdı. Amma müharibə aparılan vaxtlarda ali hərbi rəis kimi çar qeyri-məhdud səlahiyyətlərə malik olurdu.

I Hattusilinın (e.ə. 1650-1620-ci illər) və onun nəvəsi I





Mursilinın (e.ə. 1620-1590-ci illər) hakimiyyəti illərində Kiçik Asiyanın bütün xırda dövlətləri birləşdirildi və hürrilərin Suriyada və Şimali Mesopotamiyadakı böyük əraziləri istila edildi, e.ə. 1954-cü ildə isə Babil tutulub, qarət edildi, nəticədə Hammurapinin sülaləsinin hakimiyyəti devrildi.

I Suppiluliumasın (e.ə. 1380-1340-ci illər) hakimiyyəti illərində Mitanni çarı Tuşrattanın qoşunları darmadağın edilmişdi. Onların qüvvətlənməsi son hesabda maraqlarının Misirlə toqquşmasına gətirib çıxardı. II Ramseslə (e.ə. 1317-1251-ci illər) Mutavallis (e.ə. 1315-1294-cü illər) arasında həlledici döyüş e.ə. 1312-ci ildə Kadeş yaxınlığmda baş vermişdir. Şimali Suriyada hettlərin hakimiyyəti saxlanıldı və onlar hətta Dəməşqə qədər irəliləyə bildilər. Misirlə çəkişmələr Mutavallisin varisi III Hattusilinin dövründə – e.ə. 1282-ci ildə bütün ölkələrə sülh vəd edən məşhur ilk sülh müqaviləsi ilə nəticələndi. Bu, Hett çarlığının inkişafının ən zirvə nöqtəsi idi. Az sonra qərbdə yeni rəqib peyda olur, onları «axiyyava» (axeylər) adlandırırdılar və onlar qərbdən Bosfor vasitəsilə şərqə və cənuba yeni miqrasiya dalğası ilə doluşdular. Misir mənbələri onları «dəniz adamları» adlandırırdı. E.ə. 1190-cı il radələrində Hattusas darmadağm edildi.

Hett dövlətinin zəiflədilməsində hett və assur-babil mənbələrində adları çəkilən kask/kaşk tayfaları da iştirak etmişdilər. Onlar e.ə. II minillikdə Anadolunun şimalmda və şimal-şərqində məskunlaşmışdılar. Qədim hett çarı I Xantilinin (e.ə. 1590-1560-cı illər) hakimiyyəti illərində kasklar bir sıra vilayətləri ələ keçirmiş və hettlərin Qara dənizə çıxışlarını bəlkə də birdəfəlik kəsmişdilər. Onlar həmişə hettlərin ərazilərinə soxularaq, bəzən hətta Kanesədək gəlib çıxırdılar. Arabir də hettlərin özləri, məsələn, Kadeş yaxınlığındakı savaşda olduğu kimi kaskların köməyinə əl atırdılar. Hett dövlətinin süqutundan sonra kasklar hələ uzun müddət assur mənbələrində, onların bəzən abeşla etnonimi kimi adlandırdıqları şəkildə də yada salımrdılar. Kaskların dövrümüzə gəlib çatmış yaşayış məntəqələrinin, vilayətlərinin və şəxs adlarının təhlili onların qədim hattlara qohumluğunu güman et-

məyə və onların Qafqaz dillərinin abxaz-adıgey dil qrupuna aid edilməsinə imkan verir. «Kaska» termini ilə onun sinonimi olan «abeşla»nı adıqlarm və abxazların özlərini müvafiq olaraq (kasoq, kaşoq) və (apsil, apşil) adlandırmaları ilə müqayisə etmək olar.

İqtisadi amillər də Hett dövlətinin zəifləməsinə səbəb olmuşdur. Ticarət mərkəzləri qalay yataqlarmın aşkar olunduğu qərbə (İspaniya, İngiltərə) doğru istiqamətləndi. Şəraitin çətinliyi üzündən onun şərqdən gətirilməsi dayandırıldı. Dəmir üzərində hett inhisarçılığına son qoyuldu. Əritmə texnologiyasına yiyələnən bir çox dövlətlər onu öz ərazilərində çıxarmağa və istehsal etməyə başladılar.

Hett dövlətinin süqutundan sonra assur çarı I Tiqlatpalasarın (e.ə. 1115-1077-ci illər) dövrünün mənbələri Şimali Suriya ərazisini paytaxtı Karkemiş olan «Hatti ölkəsi» adlandırırlar. Bibliya mətnlərində yəhudilərəqədərki Fələstin və Suriya tayfaları arasında "hettei"lərin də adı çəkilir.

Əvvəlki qüdrətli dövlətin yerində friqilərin, frakiyalıların, lidiyalıların, muşkların, filistimlilərin və b.-nın xırda dövlətləri yarandı və hətta hettlərin adı dünya tarixindən silindi, qədim mətnlərin oxunmasına qədər onların adları yalnız Bibliyadan bəlli idi.

## Aralıq dənizinin şərq sahillərindəki tarixi proseslər

E.ə. II minillikdə tayfaların növbəti köçü başlandı. Şərqdən Sinay yarımadası vasitəsilə e.ə. XVIII-XVII əsrlərin dönəmində barələrində çox az məlumat olan hiksoslar (Misir dilindəki *heka hasup* «səhra təpələrin hökmdarları», «yadelli ölkələrin hökmdarldarı») Misir üzərinə yürüdülər. Onlar Cənubi Suriyanın və Şimali Ərəbistanın etnik tərkibi müxtəlif olan tayfa birliyindən ibarət idi. Hiksoslar Misirə, onlara yürüş zamanı üstünlük verən döyüş arabaları gətirdilər. Misirdə 110 il qaldıqdan sonra e.ə. 1600-cü il radələrində Yaxmes (I Amasis) tərəfindən birdəfəlik olaraq qovuldular. Mi-





sirin qüvvətlənməsi ilə Aralıq dənizinin şərq sahilləri – Fələstin, Finikiya və Suriya uğrunda mitannililər, hettlər və assurlarla mübarizə başlanır.

Qərbdən şərqə yeni etniki köç təxminən e.ə. XIII əsrin sonlarmdan başlanır. «Dəniz xalqları» adı ilə bəlli olan bu yeni dalğa Makedoniya və Frakiyaya köçmüş friqiləri öz yerlərindən qovdular və onlar Kiçik Asiyanm mərkəzində əyləndilər. Muşklar/musklar Fərat çayının yuxarı axarlarmda meydana çıxdılar. Frakiyalılar şimal-qərbdə məskunlaşdılar. Yarımadanın cənub-qərbini hett-luviyalıların törəmələri olan lidiyalılar, qərb sahilləri isə yunanlar tutdular. Onlarla birlikdə protoermənilərin də köçləri başlanır və onlar sonralar Yuxarı Fərat rayonlarında əylənirlər. Onları dillərinə görə Hind-Avropa dilləri ailəsinin qollarından birinə aid edirlər.

Elə bu dövrdə abxaz və protogürcü tayfaları da köç edirlər. Bütün bu xalqlar hələ uzun müddət qaynayıb-qarışdıqları hettlər və hürrilərin şəxs və yaratdıqları kiçik çarlıqların adlarını saxlayırdılar. Bu dövr xırda çarlıqların və müstəqil şəhər-dövlətlərin mövcud olduğu dövrdür.

E.ə. I minilliyin birinci yarısında Kiçik Asiyanın mərkəzi hissəsində Friqiya çarlığı güclənir. Tavr dağlarından qərbdə yunan şəhərlərinə qədər olan əraziləri özünə tabe edən Friqiya çarlığı Yaxın Şərq ölkələri ilə Egey dünyası arasında əlaqələndirici həlqəyə çevrildi. Friqilər qonşu ölkələrin iddialarından qorunmalı olur, hətta, assur yürüşlərinə tab gətirməkdən ötrü ittifaqlara da girirdilər, məsələn, Urartu ilə. E.ə. VIII əsrin sonlarında Urartu və Friqiya sərhədlərində peyda olan kimmerlər Friqiyaya ciddi zərbə endirdilər. Qərbdən – Balkanlardan yeni trer tayfalarınm yürüşləri başlandı. Bunlarm hər ikisi ölkəni taladılar və o artıq özünə gələ bilmədi.

Friqiya dövrlərindən dünya ədəbiyyatında iki əfsanə qalmışdır. Onlardan biri «qordi düyünü»dür ki, çar Qordinin adı ilə bağlıdır. Onu aça bilən şəxs dünya hökmdarı ola bilərdi. Təbii ki, heç kim onu aça bilməmişdi, Makedoniyalı İsgəndər isə sadəcə qılmcla doğramışdır. İkincisi, Qordinin oğlu Midas haqqındadır. Guya o, nəyə toxunsa imiş qızıla

çevirərmiş və sonda acından ölübmüş. Görünür, sonuncu əfsanə Friqiya ərazisində aşkar edilmiş qızıl yataqları ilə bağlı imiş.

Friqiyanın zəifləməsi ilə Kiçik Asiyanın qərbində Lidiyanın yüksəlməsi eyni vaxta düşür. Onun çarı Qiqes Friqiyanı özünə tabe edir, kimmerlərlə, assurlarla və b. ilə mübarizə aparır. Skiflərin gəlişi, kimmerlərlə toqquşmada qalib gəlmələri Lidiyanı xilas etdi və çar Ardisin (e.ə. 651-613?-cü illər) dövründə Lidiyanın sərhədləri bir qədər də genişləndi. Kiçik Asiyanın qərb sahillərindəki şəhər-dövlətlər də tabe edildi. Amma şərqdə qüvvətlənmiş və Assuriya kimi qüdrətli dövləti darmadağın etmiş, Manna və Urartunu fəth etmiş Midiya dövlətinin sərhədləri genişlənərək Lidiya sərhədlərinə yaxınlaşdı. Lakin skiflərin də köməyindən istifadə edən Lidiyanın ciddi müqaviməti Kiaksarla Aliatt arasında müqavilənin bağlanmasına gətirib çıxardı və buna həm də e.ə. 585-ci il mayın 28-də Günəş tutulması da ciddi təsir etdi. Sülh sülalə arası kəbinlə də möhkəmləndirildi – Kiaksar Aliattın qızını aldı. Lidiya, qərb və şərqin ticarət əlaqələri sayəsində çiçəklənmə dövrü keçirirdi. Lidiyada dünyada ilk dəfə olaraq qızıl sikkə zərb etməyə başladılar. Onun sonuncu çarı Krezin adı zənginlik simvolu kimi dünya ədəbiyyatına daxil oldu. Lakin e.ə. 546-cı ildə Lidiya da bütün Yaxın Şərq kimi haxamanişilər sülaləsindən olan II Kir tərəfindən fəth olundu.

**Fələstin. İsrail. İordaniya. Finikiya.** Qədim Fələstinin (müasir İsrail, Fələstin və İordaniya əraziləri) və Finikiyanın (müasir Livan) ərazilərində e.ə. III-II minilliklərdə şimali-mərkəz sami dilləri dialektində danışan xanaanlar, yevusilər və b. tayfalar məskunlaşmışdılar. Yevusilər etnonimi Yerusəlim şəhərinin adında qalmışdır. Yəhudilərin xanaanların torpaqlarına soxulduqları zaman əhali onlara qarşı ciddi müqavimət göstərmiş və dəfələrlə kömək üçün Misir fironu Exnatona (e.ə. 1424-1388-ci illər) müraciət etmişlər. Tell-Amarn arxivinin (Misir) sayəsində Yerusəlim çarının üç məktubu





bəllidir. Lakin özünün daxili dini islahatları ilə məşğul olan Exnaton yardım göstərməmişdir. Sonuncu məktubda bildirilir ki, ölkənin böyük hissəsi artıq istila olunub. Görünür, ərazilərin tutulması tədricən baş verirmiş, – hücum edənlər ayrı-ayrı vilayətlərin başçıları ilə saziş bağlayaraq, müqavimət göstərənlərə qarşı hərbi toqquşmaya girişirdilər. Xanaanın daha inkişaf etmiş mədəniyyəti gəlmələrə böyük təsir göstərmişdi. Hələ uzun müddət əhali arasında xanaanların baş allahı Vaala sitayiş edilirdi. Xanaanların özlərinin yazıları yox idi, onlar Akkad və qədim Misir yazılarından istifadə edirdilər. Onların bir sıra şəxs adları, terminlər və sözlər gəlib bizə çatmışdır.

Suriya bölgəsində yenə də sami dil qrupuna aid olan amori dili yayılmışdır. O yazısız idi, onların şumer və akkad mənbələrindən yalnız şəxs adları məlumdur.

Finikiya sahillərinin lap şimalında isə qərbi sami dil qrupuna aid edilən uqarit dili yayılmışdı. Uqarit şəhər-dövlətinin (Suriyadakı Latakiyanın 11 kilometrliyində yerləşən neolit dövründən bəri çoxtəbəqəli Ras-Şamra abidəsi) öz yazısı var idi.

E.ə. XV-XIV əsrlərə aid edilən saray binalarının arxeoloji qazıntıları zamanı mixi yazılı gil lövhələrdən ibarət arxiv aşkar olunmuşdur. Kitabələr akkad (assur-babil), hürri, hett, uqarit və hələlik bizə bəlli olmayan Egey hövzəsi xalqlarından birinin dilində (bu günədək mətni oxunmayıb) tərtib olunmuşdur. Bu məktublar işgüzar sənədlər, məhkəmə qərarları, müxtəlif məktublar, çoxlu poetik rəvayətlər, allahlara həsr olunmuş ayin kitabələri və miflərdən ibarət idi. Bəzi lövhələrin üzəri sadə mixi işarələr ilə yazılmışdı, determinativdən istifadə olunmurdu, işarə qrupları şaquli xətlərlə bir-birlərindən ayrılmışdılar. Onların öyrənilməsi göstərdi ki, həmin tayfa heca yazısından istifadə etməmişdir. Yazının şifrini fransız alimləri Ş.Virollo və U.Dorm və alman alimi H. Baer tam müstəqil, ayrılıqda aça bilmiş və müəyyən etmişlər ki, mixi formadan istifadə etməklə Uqaritdə ilk dəfə olaraq

əlifba yaradılmasına cəhd göstərilir və bunların dilləri sami dil qrupuna aiddir.

Uqarit liman şəhəri idi və bu səbəbdən də öz coğrafi mövqeyinə görə dəniz sahillərindəki digər şəhərlər kimi beynəlxalq ticarət mərkəzi idi. Ticarət isə yazışmanın və mühasibatın asanlaşdırılmasını tələb edirdi.

E.ə. XII əsrin əvvəllərində Uqarit də Aralıq dənizi sahillərinin digər şəhərləri kimi «dəniz xalqları»nın dağıdıcı yürüşlərinə məruz qalmışdır.

E.ə. XIV əsrin sonları – XIII əsrin əvvəllərində İordaniyanın arxasındakı çöllərdən hərəkət edən ibri – («çaydan keçmiş», «çayın o tayının sakini») adı ilə məlum olan müxtəlif tayfalardan ibarət yeni qrupun bir neçə dalğa ilə müasir İsrail və Fələstin ərazilərinə müdaxiləsi başlanır. Onları Şimali Mesopotamiyada Mitanni hürriləri tərəfindən sıxışdırılmış amorilərin qollarından biri ilə eyniləşdirirlər. Arxeoloji materiallar göstərir ki, bir çox Xanaan şəhərləri (Yerixon, Betel, Hatsor və b.) bu dövrdə darmadağın edilmişdi. Şəhərlərin bəziləri bac verməklə dağıntılardan xilas olmuşlar, alınmaz qaya üzərində yerləşən Yerusəlim isə müstəqil qalmışdır. Bu tayfaların bir qismi aramilər və ərəblərlə qarışmış, digər qismi isə İordaniyanın arxasında və Ölü dənizdən cənubda əylənmişdir. «İbri» adı yalnız özlərini Avraamın (İbrahimin) nəvələri sayan İakov (Yaqub) və İsrail nəslindən olan yəhudilərdə qalmışdır. Əfsanəvi Eberin törəməsi Abrahamın israillilərlə yəhudilərin olduğu kimi, həm də arameylərin və ərəblərin nəsil başlanğıcı sayılır.

İsrail tayfa ittifaqının adı ilk dəfə e.ə. XIII əsrdə çəkilir. Əfsanəyə görə aclıq ilində bu tayfalar Şimali Misirin otlaqlarına köçmüşdü; burada iki yüz il qaldıqdan sonra onlar fironun təqiblərindən qaçaraq, başçıları Moiseyin (Musanın) rəhbərliyi ilə 40 il Sinay yarımadasında sərgərdan gəzərək, sonra Xanaan şəhərlərini dağıdaraq onların ərazilərində məskunlaşmışlar. Yəhudi dili müasir ivrit dilidir və qədim xanaan dialektləri ilə buraya köçmüş tayfaların dillərinin qarışmasından əmələ gəlmişdir. Qədim yəhudi dilində böyük





ədəbiyyat olmuşdur ki, onun da bir hissəsi Bibliyaya (xristian ənənəsinə görə – Əhdi-ətiqə) daxil olmuşdur.

İsrail dövləti də bütün Aralıq dənizinin şərq hissəsi kimi vaxtaşırı başqa dövlətlər tərəfindən istila olunurdu, sonralar isə Roma ağalığına qarşı bir sıra üsyanlar nəticəsində, yəhudilər sürgün edilmiş və müxtəlif dövlətlərin ərazilərində məskunlaşmışlar. Son dövrlərdə qədim yəhudi (ivrit) dili bərpa olunub, müasirləşdirilmiş formada İsrail dövlətinin rəsmi dilinə çevrilmişdir.

E.ə. XIII əsrin sonlarından şimaldan həm dənizlə, həm də quru yolla Kiçik Asiyadan keçən və Misir mənbələrində adları çəkilən «dəniz xalqları»nın yürüşü başlanmışdır. Müxtəlif tayfalar bu ad ilə Hett dövlətinin, Uqaritin darmadağın edilməsinə kömək etmişlər, Aralıq dənizinin şərqində yerləşən ölkələrdən keçərək Misirə hücum etmişlər. Tarixdə onlara aid edilən filistim tayfalarının adı qalmışdır. Onlar sahilin Xanaan hissəsində əylənərək, bu bölgəyə öz adlarını – müasir Fələstin adını vermişlər. Güman edilir ki, filistimlilər pelazqların – Kritin yunanlaradək olan sakinlərinin adıdır.

Filistimlilər Xanaan dilini və dinini qəbul edərək, özləri də burada dəmir mədəniyyətini yaymışlar. Onlar beş şəhərin birliyini yaradaraq, yəhudilərlə uzun müddət müharibələr aparmışlar. Bu mübarizənin epizodları Bibliyada qalmış əfsanələrdə öz əksini tapmışdır (Samsonun qəhrəmanlığı, yəhudi çarı Davidin (Davudun) filistimli Qoliafla döyüşü və s.).

Onlar sonralar Aralıq dənizinin şərq sahilləri dövlətlərinin taleyini bölüşdürərək, daha güclü qonşulardan asılı vəziyyətə düşürdülər.

E.ə. XIII əsrdə Ərəbistan yarımadasının cənub rayonlarından yeni sami tayfalarının – aramilərin köçü başlanır. Onlar tədricən Suriya çöllərinə və Şimali Mesopotamiyaya irəliləyirlər. Onların Ərəbistandakı yerlərini ərəblər tutur.

**Aramilər**. E.ə. I minilliyin əvvəllərində aramilər Şimali Mesopotamiyanın, demək olar ki, bütün hürri əhalisini özlərində əritmiş, sonra isə bütün Yaxın Şərq boyu yayılaraq,

Yuxarı Mesopotamiyanın, demək olar ki, bütün qədim əhalisini assimilyasiya etmişlər. Onlar müəyyən dövlətdə muzduna tutulur, tədricən öz nüfuzlarmı artıraraq, sonra hər hansı bir qrup hakimiyyəti ələ keçirirdi. Bundan əlavə, assur çarı III Tiqlatpalasarın dövründən assurlar tabe edilmiş əhalini başqa yerlərə köçürürdülər və sərhəd rayonlarınm itaət göstərməyən əhalisi ilə vuruşmağa məccbur edirdilər. Bu, dillərin qarışmasına gətirib çıxarırdı, lakin beynəlxalq dilə ehtiyac olduğuna görə müəyyən dövr keçəndən sonra arami dili bu yeri tutur, hətta assurlar onu öz dəftərxana dillərinə də çevirirlər.

Sonralar aramilər, əsası finikiyalılardan əxz olunmuş əlifba yazısını bütün Ön Asiyaya yaydılar. Arami yazısmın sonrakı inkişafmda heteroqramlardan istifadə olunurdu, yəni bir dildə yazıb, başqa dildə oxuyurdular. Artıq e.ə. V əsrdə qədim İran kitabələrində arami sözlərinə və ya şəkilçilərinə rast gəlinir. Arami dili ticarət münasibətləri sayəsində bütün dövlətlərdə ikinci dilə çevrilir. Bu dövrdən etibarən arami dedikdə, Ön Asiyanın öz dilini arami dilinə dəyişdirmiş yerli əhalisi nəzərdə tutulmalıdır. Hazırda aramilərin törəmələri sayılan aysorlar, aturaylar ayrı-ayrı qruplar şəklində Suriyada, Türkiyədə, Azərbaycanda və b. ölkələrdə qalmışlar.

Məşhur samidilli xalqların biri də yunan mənbələrində adı çəkilən finikiyalılar idilər. Onlar indiki Livan sahillərində yaşayırdılar və e.ə. I minillikdə nə yəhudilərin, nə də aramilərin hücumlarına məruz qalmamışlar. Ona görə də bunlar xanaanların birbaşa törəmələri sayıla bilərlər. Onların şəhər-dövlətləri – Tir, Sidon, Bibl bütün Qədim Şərqdə məşhur idi. Arxeoloji qazıntılar onlarm uzaq keçmişlərə mənsub olduqlarını təsdiqləyir. Hələ e.ə. IV minillikdə burada əkinçilik və balıqçılıq məskənləri var idi. Sənətkarlıq burada lap erkən vaxtlardan inkişaf etmişdir və sənətkarlar öz şəhərlərinin hüdudlarından kənarda da tanınırdılar.

Finikiya şəhər-dövlətlərini çarlar idarə edirdilər, mühüm məsələlər isə ağsaqqallar şurası və xalq yığmcaqları





tərəfindən həll edilirdi. Əhalinin əsas kütləsinin yaşadığı kənd təsərrüfatı əraziləri şəhərlərdən asılı və onlara yaxm idilər.

Dənizçilikdə əldə olunan nailiyyətlər sayəsində Aralıq dənizinin sahillərində koloniyalarm yaradılmasma başlandı və finikiyalılar Kiçik Asiyada, Kiprdə, Şimali Afrikada, Malta, Siciliya, Sardiniya adalarında və hətta İspaniyada öz faktoriyalarını yaratmağa başladılar. Onlar ticarət donanması ilə şöhrət tapmışdılar və bu sahədə yunanlarla rəqabət aparırdılar. Onlar tunc silah, gəmiqayırma üçün sidr ağacı, bədən üçün ətirli yağlar, zeytun yağı, yun və nazik parçalar, qurudulmuş balıq aparır, əvəzində isə onlara çox böyük gəlir gətirən metal – qalay və gümüş alırdılar. Daha erkən əlaqələr Bibl ilə Misir arasında nəzərə çarpır. Misirlə ticarətin canlanması finikiyalılara Qırmızı dəniz hövzəsinə, oradan da Hind okeanına çatmalarına imkan verdi. Herodotda belə bir rəvayət vardır ki, e.ə. VII əsrin sonlarında yaşamış «misirlilərin çarı Neko Nildən Ərəb körfəzinədək kanal qazıntısını dayandırmış, lakin Qırmızı dənizdən finikiyalıları gəmilərlə göndərərək əmr etmişdir ki, onlar qayıdanda Herakl sütunlarından keçərək (müasir Cəbəllüttariq boğazı) Şimal (yəni Aralıq) dənizinə, oradan isə Misirə daxil olsunlar». Onlar iki ildən sonra Misirə qayıdaraq, bildirdilər ki, «Liviya sahillərində üzərkən, Günəşi sağ tərəflərində görürmüşlər. Beləliklə ilk dəfə sübut olunmuşdur ki, Liviya (yəni Afrika) hər tərəfdən dənizlə əhatə olunur».

Finikiyalıların Aralıq dənizi sahilində ən iri koloniyası Afrikanın şimalında yerləşən Karfagen idi. Havalar pis olanda onların gəmiləri orada sığınacaq tapırdı. E.ə. IX-VII əsrlər ərzində, assurların Aralıq dənizinin şərq sahilləri ərazilərini özlərinə tabe etdikləri zaman qərbdəki Finikiya koloniyaları müstəqillik əldə etdi və sonralar qüdrətli Karfagen dövləti onları birləşdirib, uzun müddət Aralıq dənizində ağalıq uğrunda yunanlarla, sonralar isə darmadağın edilənədək romalılarla müharibələr apardılar.

Güclü qonşu dövlətlər – Assuriya, Babilistan, Misir, sonralar isə Midiya və İran Aralıq dənizinin şərq sahilləri ərazilərini vaxtaşırı ələ keçirirdilər, amma sahil şəhərləri xərac verməklə öz çarlarını və yerli idarə formalarını saxlayırdılar. Finikiyalılar öz müstəqilliklərini bütünlüklə Makedoniyalı İsgəndərin işğallarından sonra itirdilər. Ellin çarlarının, sonralar isə Roma canişinlərinin hakimiyyətləri altmda olan Finikiya şəhərləri artıq hiss olunacaq siyasi rolu oynamırdılar, hərçənd hərtərəfli iqtisadi əlaqələrə malik ticarət mərkəzləri kimi qalmaqda idilər. Onlar ellinləşmə prosesinə o qədər də müqavimət göstərmirdilər. Yunan həyat tərzi onların məişətinə daxil olur, mühüm işgüzarlıq və inzibati sənədlər yunan dilində tərtib olunurdu.



Yunan yazısı

Hərçənd hələ də Finikiya dilində mətnlər tərtib olunurdu, lakin bizim eranın ilk illərində yerli sakinlər qismən arami, qismən də yunan dillərinə keçdilər. Ancaq Şimali Afrikada finikiya dili ərəb işğallarınadək yaşamışdır.

Finikiyalıların dünya tarixinə ən mühüm töhfələri əlifba





yazısını ixtira etmələridir. Aralıq dənizinin şərq sahillərində ya Misir yazısından, ya da Şumer-Akkad mixi yazısından istifadə edirdilər. İnkişaf edən ticari iqtisadiyyat və Aralıq dənizinin uzaq sahillərindəki koloniyaların mənimsənilməsi yazışmaların daha asanlaşdırılmış şəkildə aparılmasını tələb edirdi. Dəfələrlə yeni yazının yaradılmasına cəhd göstərilir və Bibldə xüsusi hecalı xətti yazı meydana çıxır ki, burada işarələr samit səsləri bir saitlə verirdilər və bu da yadda saxlanılıb öyrənilmək üçün daha asan idi. Amma tacirlər və dənizçilər üçün daha sadələşdirilmiş yazı lazım idi. Nəhayət, konsonant əlifba yaradıldı və o cəmi 22-dən 30-dək samitdən ibarət idi. İstənilən sait onlara qoşula bilərdi. Sonralar finikiyalılar uzun saitlər və sözarası işarə tətbiq edərək yazının istifadə olunması və başa düşülməsini asanlaşdırdılar. Müxtəlif dövrlərdə yunanlar və digər xalqlar tərəfindən edilmiş bir sıra təkmilləşdirmələrdən sonra bu əlifba həm qərbdə – yunanlar, həm də şərqdə aramilər vasitəsilə bütün əlifbaların əsasını qoydu.

### E.ə. I - b.e. I minilliklərində xalqlar və ölkələr

E.ə. II minillikdən etibarən, yuxarıda deyildiyi kimi, Hind-Avropa tayfaları Şərqi Avropadan və Qara dənizin şimal sahilləri ərazilərindən Yaxın Şərqə daxil olmağa başlayır. Onların bir qismi Kiçik Asiyada əylənərək Qızıl İrmaq dolaylarında mərkəzi Hattusas olan Hett dövlətini yaradırlar və bu dövlət e.ə. XII əsrədək mövcud olmuş, sonra isə Kiçik Asiyadan keçib Yaxın Şərqə gələn «dəniz xalqları» tərəfindən darmadağın edilmişdi.

Hind-Avropa tayfaları hürrilərin məskunlaşdıqları ərazilərə – Dəclə və Fəratın başlanğıclarında yerləşən Mitanni və Van gölü ətrafındakı Urartu dövlətlərinin yerləşdikləri ərazilərə də müəyyən təsir göstərmişdilər. Sonralar müdaxilə etmiş Hind-Avropa tayfaları sırasında frako-friqiya tayfala-

rı, protoermənilər, daha doğrusu, protohayasalılar (və ya protohaylar) və b. vardır və onlar Şərqi Anadoluda əylənmişdilər. Bu hissədə, Diyarbəkir şəhərindən şimal-qərbdə assur və urartu mənbələrində paytaxtı Nihiria olan Arime/Urme/Arme ölkəsinin adı çəkilir. Hett-luviya mənbələri də Armatana ölkəsinin burada olduğunu bildirirlər. Samidilli tayfaların sonüncu axmı zamanı bu ərazilərdə arami tayfaları məskunlaşmışdı. Onların qalıqları indi də Suriyada Maalülə məskənində mövcuddur və xristian dininə etiqad edirlər. Görünür, armeniya sözünün kökü bu arami tayfalarının adından götürülərək, yunanların Şərqi Anadolu və Van gölü ətrafı ərazilərə verdikləri addan əmələ gəlmişdir və bilavasitə aramilərlə bağlıdır. Bu terminin özlərini hay adlandıran, bizim isə onlara erməni dediyimiz, qərbdə isə armenia kimi tanınan millətlə heç bir əlaqəsi yoxdur.

Əvvəlki dövrün mənbələrinə görə həmin ərazilərdə urartulular yaşayırdı. Haxamanişilər dövründə həkk olunan üçdilli Bisütun qaya yazısında bu əraziyə verilən hər iki ad saxlanılmışdır – qədim fars və elam dillərində yazılmış mətndə Armini ölkəsi haqqında danışılır; həmin ad Babil versiyasında Urartu kimi tərcümə olunur. Hind-Avropa tayfalarının uzun prosesli köçmələri və yerli əhali ilə qarışmaları nəticəsində yeni tayfalar Van gölü ətrafında, yəni Urartu ərazilərində əyləndilər. Tədricən tarixi şəraitdən asılı olaraq, bu tayfalar Göyçə gölü tərəfə də irəliləmişlər.

Bir sıra xırda «ölkələr» arasında Hayasa ölkəsinin də adı çəkilir və bu ad müasir erməni xalqının özünü adlandırdığı hay şəklində qalmışdır.

Hind-ari tayfalarının başqa bir qolu Qara dənizin şimal sahillərindən şərqə doğru hərəkət edərək, bir qismi Qafqazdan, digər qismi isə Orta Asiyadan keçərək müasir İran və Hindistan ərazilərinə daxil olurlar.

Urmiyə gölündən şərqdə olan ərazilərdə irandilli etnik qruplar e.ə. II minilliyin sonları – I minilliyin əvvəllərində görünürlər və sonrakı yüzilliklərdə onlar daha həlledici rol oynamağa başlayırlar. Bu tayfaların gəlməsi ilə müxtəlif mədəniyyət ünsürlərinin qarışması baş verir, keramika və metal əşyalarmın hazırlanmasında yeni üslub və texnika əlamətləri meydana çıxır.





E.ə. I minilliyin əvvəllərində meydana çıxmış boz gil keramikanı irandilli tayfaların gəlməsi ilə bağlayırdılar, lakin bu, sonrakı tədqiqatlar zamanı təsdiq olunmadı. Burada əvvəlki dövrlərdə yayılmış naxışlı keramikanın monoxrom bozqara keramika ilə əvəz olunması etnik proseslərin deyil, iqtisadi proseslərin nəticəsi idi. Burada qeyd etmək olar ki, həmin proses Naxçıvan bölgəsində əldə edilmiş orta və son tunc materiallarında çox aşkar nəzərə çarpır. Boyalı keramika tədricən keyfiyyətcə pisləşir, sonra isə bütünlüklə monoxrom çəhrayı və boz-qara keramika ilə əvəzlənir, hərçənd əvvəlki dövrə xas forma və hətta kiçik detallarını saxlayır, habelə dəfn adətlərinin saxlanılmasında da izlənilir. Bununla yanaşı, məsələn, atçılıq kimi yeni təsərrüfatçılıq növləri meydana çıxır. Atdan minik kimi istifadə olunmasına başlanılır.

Yazılı abidələrdə bu proses, həmin vaxtadək burada mövcud olmuş etnik qrupların mətnlərində dil cəhətdən fərqli şəxs adlarının və etnotoponimik adların meydana çıxmasında özünü büruzə verir.

**Midiyalılar, parslar, skiflər.** Urmiyə gölündən şərqdəki ərazilərdə yerləşən tayfalarm konsolidasiyası prosesi Midiya dövlətinin yaranmasına səbəb oldu və o e.ə. I minilliyin ortalarına yaxın bölgədə aparıcı dövlətə çevrilərək, Yaxın Şərqin böyük hissəsini özünə tabe etdi.

E.ə. 835-ci ildən assur mənbələrində Maday, Amaday, Matay tayfalarmm adı çəkilir. Herodotun məlumatına görə Midiya ittifaqına altı tayfa – buslar, paretakenlər, struxatlar, arizantlar, budilər və maqlar daxil idi. Bu tayfaların birləşdirilməsi və dövlətin yaradılması Fraortun oğlu Deyokun adı ilə bağlanılır. Assur çarları midiyalıların tutduqları ərazilərə daim yürüşlər edir və onları öz təsirləri altına almağa çalışırdılar. Tədricən mixiyazılı kitabələrin midiyalılar haqqında məlumatları təşviş doğurmağa başlayır – itaət altma alınmış

vilayətlər xərac verməkdən imtina edirlər, karvanları qarət edirlər, qonşu dövlətlərlə Assuriyanın əleyhinə ittifaqa girirlər. Assuriyanın öz sərhədləri hər zaman təhlükə altında qalır. E.ə. 673-cü ildə Kaştaritinin başçılığı ilə üsyan baş verdi və nəticədə assurların ağalığına son qoyuldu, paytaxtı Ekbatana (müasir Həmədanın yaxınlığında) olmaqla müstəqil Midiya dövləti yarandı.

Hind-ari tayfalarının yerdəyişmələri ilə əlaqədar olaraq bir qədər sonra Cənubi Rusiya çöllərində, Xəzər dənizinin şimal sahillərində, Orta Asiyada və Şimali Hindistanda mənbələrin kimmerlər, skiflər, saklar və massagetlər adlandırdığı tayfalar əylənir. Antik mənbələrdə «saklar» adı Orta Asiya tayfalarına verilən addır və çox hallarda onları ümumiləşdirici «skiflər» də deyə adlandırırlar. İranlılar isə əksinə, bütün skifləri sak adlandırırlar. Elmdə qəbul olunub ki, qərbdəki qolu skif, şərqdəkini isə sak adlandırsınlar. Massagetlərin haxamanişi çarlarının Orta Asiya ərazilərinə sahib olmaq uğrunda apardıqları müharibələr dövründə Amu-Dəryanın şərq hissəsində adları çəkilir. Herodotun məlumatına görə haxamanişi hökmdarı II Kiri çariça Tomirisin başçılıq etdiyi massagetlər tərəfindən öldürülüb.

Mixiyazılı mənbələrə görə e.ə. VII əsrdə buraya gəlmiş kimmerlərin (qimiraya) və skiflərin (aşquzaya, işquzaya) yürüşləri Yaxın Şərqin qədim ölkələrinə öz təsirini göstərdi. Herodot Qara dənizin şimal sahillərində kimmerlərlə skiflər arasındakı müharibə haqqında məlumat verir. Bu müharibənin nəticəsində kimmerlər öz yurdlarını tərk edib, Qara dənizin sahilləri boyu hərəkət edərək, Yaxın Şərqə gəlib çıxmışlar. Onları təqib edən skiflər «düz yoldan dönüb, üst yolla, daha uzaq yolla gedərək, Qafqaz dağını sağdan arxada qoymuşlar». Lakin bu, güman edilən Xəzər dənizi sahili boyu keçən yol ola bilməzdi, belə ki, nə Dağıstanda, nə də Şərqi Azərbaycanda bir neçə üçpərli oymaqlı ox ucluqlarından başqa skif maddi mədəniyyət izləri aşkar olunmamışdır. Çox güman ki, onlar Dəryal, ya da Mamisson aşırımlarından keçmişlər. Onların gəlib-keçmə izlərini Osetiyanın və Gürcüstanın arxeoloji abidələri arasında görmək mümkündür. Külli miqdarda tuncdan və dəmirdən üçpərli oymaqlı ox ucluqları, dəmir akinaklar və döyüş baltaları, xarakterik yüyən və gəm, bu bölgə üçün yeni olan «heyvan stilli» incəsənət əşyaları Qərbi və Şərqi Gürcüstanın bir çox məntəqələrində, habelə skiflərin Kür çayı axarınca düşə biləcəkləri Qərbi Azərbaycanın abidələrində aşkar edilmişdir. Xüsusilə zəngin material Mingəçevir yaxınlığında qazılmış qəbirlərdə tapılmışdır. Burada indiyədək bütün Yaxın Şərqdə yayılmış bükülü vəziyyətdə dəfnetmə adətindən fərqli olaraq, həmin bölgə üçün yeni olan uzununa dəfn edilmə adətləri olan nekropol aşkar edilmişdir. Həmin nekropollarda yuxarıda sadalanan əşyalardan əlavə skiflərə məxsus heyvan fiqurları ilə bəzədilmiş dəstəkli girdə tunc güzgülər, heyvan başları ilə tamamlanan tunc qolbağlar, metal qırıntıları ilə naxışlanmış qablar tapılmışdır.

Cənuba doğru hərəkət edən skiflər bir sıra Urartu şəhərlərini darmadağın etmişlər. Həmin yerlərdə çoxlu miqdarda skif tipli ox və müxtəlif əşyalar aşkar edilmişdir. Skiflər müasir Suriya və Fələstin ərazilərinə çatmış, lakin onlardan xərac alaraq geriyə çəkilmişlər. Assur mənbələri məlumat verir ki, onlar Mannalılar ölkəsinin sərhədində əylənmişlər və sonuncular düşmənləri ilə mübarizədə onların köməklərindən istifadə etmişlər. Görünür, onlar Mannanın qərb sərhədlərində imişlər, çünki Assuriyaya qarşı öz hərəkətlərini həmişə Van gölündən cənubda yerləşən Xubuşkiya ərazilərindən başlamışlar.

Skiflərin iştirak etdikləri bütün hərbi əməliyyatlar Şərqi Anadoluda baş vermişdir. Midiyalıların və kimmer-skiflərin müdaxiləsi müxtəlif dövlətləri çox sahədə zəiflətmiş və həm Cənubi Qafqazda, həm də bütövlükdə Yaxın Şərqdə siyasi durumun dəyişdirilməsinə səbəb olmuşlar.

Tədricən qüvvətlənən Midiya dövləti gah Manna, gah da skiflərlə və Babilistanla ittifaqda olaraq Assuriya dövlətinə dağıdıcı zərbə vurur. «Asiyada hökmranlığın banisi» adlandırılan çar Kiaksarın (e.ə. 625-585-ci illər) dövründə skif-

lər, Herodotun məlumatına görə, 28 illiyə Asiyada öz ağalıqlarını bərqərar edirlər. Amma danışıqlar zamanı onları qıran midiyalılar «öz hökmranlıqlarını xilas etmişlər».

Madalılar Mannanı, Urartunu və Assuriyanı özlərinə tabe edəndən sonra, demək olar ki, bütün Yaxın Şərq ərazilərini birləşdirib, ilk imperiya yaratdılar. Kiaksarın hakimiyyəti zamanı ilk dəfə olaraq nizami ordu yaradılmışdı; əvvəllər isə tayfa birləşmələri vuruşurdu; gürzatma qoşunu təşkil olunmuşdu və ordunun quvvəsi daha da möhkəmləndirilmişdi. Şimalda imperiyanın sərhədləri Qafqaz dağları silsiləsinə kimi çatırdı. Qərbdə Halis (Qızıl-İrmaq) çayına doğru irəliləyərkən, bu regionun ən qüvvətli ölkəsi olan Lidiya dövlətinin müqaviməti ilə rastlaşdılar. Skiflər də lidiyalıların tərəfində döyüşlərdə iştirak edirdilər. Döyüş zamanı e.ə. 585-ci il mayın 28-də Günəş tutulması baş verdi və rəqiblər sülh müqaviləsi bağladılar. Bununla midiyalıların qərbə doğru irəliləyişi dayandırıldı. Kiaksarın ölümündən sonra Astiaq (e.ə. 585-550-ci illər) Midiyanın çarı oldu.

Mədəni-iqtisadi cəhətdən bir çox yeniliklər gətirmiş və itaət altına alınmış xalqlara çox böyük təsir göstərmiş midiyalıların özləri də yerli mədəniyyətlərin təsirinə məruz qalaraq, onların varislərinə çevrilirdilər. Yerli xalqların erkən iranlılar arasında da yayılmış politeist dini inancları tədricən yerini dualist dinə – Zərdüştiliyə verir. Yeni dinin müqəddəs Avesta kitabında təsvir olunan əsas müddəaları xeyir (Ahuramazda – Hörmüz, «müdrik hakim») və şər (Əhrimən) qüvvələrin mübarizəsinə gətirib çıxarırdı. Xeyir qüvvələrin təcəssüm etdirildiyi müqəddəs alov üçün məbədlər tikilir, qurbanlar gətirilirdi.

**Haxamanişilər və ellinizm dövrü.** Sonuncu Midiya çarı Astiaqın haxamanişilər sülaləsindən olan Kirlə savaşda qoşunlarının darmadağın edilməsi nəticəsində Midiya dövlətinin varlığına son qoyuldu. Amma Kir Midiya çarlığını ləğv etmədi, özünü Midiyanın çarı elan etdi. E.ə. 522-ci ildə midiyalı Qaumatanın başçılığı ilə saray çevrilişi baş verdi, lakin





o, öldürüldü və haxamanişilərin başqa qolundan olan Dara hakimiyyətə gəldi. Onun Kirmanşah yaxınlığındakı Bisütun qayasında saxlanılmış kitabəsində xəbər verildiyi kimi, o, üsyançılara çox qəddarlıqla cəza vermiş və yenidən imperiyanın ayrı-ayrı əyalətlərini itaət altına almağa məcbur olmuşdur. Haxamanişilər öz dövlətlərinin sərhədlərini daha da genişləndirərək, onları dayandırmağa çalışan yunanlarla daimi müharibələr aparmağa başladılar. Haxamanişilərin nəhəng torpaqları satraplıqlara bölünmüşdü və onlar müəyyən vergi ödəyirdilər. İran sözü «satrap» (xşaga-pavan) Babil transkripsiyasında (ahşad(a) rapanu) saxlanılmışdır və hərfi mənası «çarlığın qoruyucusu» deməkdir. İnzibati funksiyalardan başqa, məhkəmə hakimiyyəti və məbədlərin işinin idarə olunması məsələləri də ona mənsub idi.

Herodota görə Cənubi Qafqaz vilayətləri X («Akbatana, Midiya qalan hissəsi, parikanilər və ortokaribantilər»), XI («kaspilər, pavsiklər, pantimaflar və daritlər»), XIII («Paktika, Armina və qonşu vilayətlərdən Evskin Pontuna (Qara dəniz) qədər»), XVIII («matienlər, saspirlər və alarodilər») və XIX («mosxlar, tibarenlər, mossiniklər və marlar») dairələrə daxil idilər və müvafiq verqi verirdilər. Haxamanişi dövlətinin sərhədləri şimalda Qafqaz silsiləsinədək



Qədim fars mixi yazısı

çatırdı və «hətta kolxlar və onların qonşuları könüllü hədiyyə şəklində öz üzərlərinə vergi təyin edirlər».

Haxamanişilərin ağalığı dövrü imperiyanın çoxsaylı xalqlarının etnik cəhətdən və mədəni baxımdan qarışması proseslərinin və dini görüşlərinin sinkretikləşməsinin intensivliyi ilə xarakterizə olunur. Ayrı-ayrı bölgələrin əhalisinin hələ assurların dövründən itaət altına alınmaq istəməyən xalqlar üçün cəza kimi tətbiq edilən kütləvi şəkildə köçürülmələri də buna kömək etmişdir.

Haxamanişilər imperiyasının güclənməsi və genişlənməsi Kiçik Asiyaya iddia edən birləşmiş yunan-makedon dövlətinin narahatlığına səbəb olmuşdu. Yunanların və haxamanişilərin uzunmüddətli qarşıdurmaları e.ə. 331-ci ildə III Daranın qoşunlarının Babildən şimalda yerləşən Qavqamela yaxınlığında Makedoniyalı İsgəndərin qoşunları tərəfindən darmadağın edilməsi ilə nəticələndi. III Dara qaçıb Ekbatanaya getdi və orada tərəfdarlarını toplayıb müdafiəyə hazırlaşdı, amma yenidən məğlubiyyətə uğradı və özü də həlak oldu. Hər iki paytaxt – Pasarqad və Persepol tutulub, qarət edildi.

İsgəndərin və onun varislərinin dövründə minlərlə yunan və makedoniyalı istila olunmuş ölkələrə axışaraq, onları özlərinə uyğun şəkildə idarə etməyə başladılar. Çəkişmələr olmasın deyə, İsgəndər yerli əyanların nümayəndələrinə də vəzifələr verirdi. O, yerli əyanların orduda və idarəetmədə iştirakına imkan verdi, eyni zamanda istila olunmuş ərazilərdə strateji cəhətdən mühüm bölgələrdə hərbi koloniyalar və məskənlər salmağa başladı. Onun yaratdığı nəhəng imperiyanın sərhədləri Hindistanın hüdudlarınadək çatırdı. Makedoniyalı İsgəndərin e.ə. 323-cü ildə Babildə naməlum xəstəlikdən qəflətən ölməsi uğurlarının möhkəmləndirilməsinə imkan vermədi. Onun varisləri arasındakı rəqabət imperiyanın parçalanmasına səbəb oldu.

Makedoniyalı İsgəndərin istilası həm yunanlıların özlərinin, həm də geniş ərazilərdə yaşayanların mənşəyinə və mədəniyyətinə böyük təsir etmişdir. Yunan və şərq ünsürlərinin qarşılıqlı surətdə qovuşması nəticəsində yaranan yeni mədəniyyət elmdə Ellinizm mədəniyyəti adlandırılır.





Bu dövrdə uzaq bölgələr arasında iqtisadi əlaqələr canlanır, şəhərlər inkişaf edirdi; yunan elmi, mədəniyyəti və incəsənəti, bir sıra dini inancları Şərqə müdaxilə edir, müxtəlif yerli mədəniyyətlərlə qarışırdı; yunanların özləri də yerli xalqların nailiyyətlərini mənimsəyirdilər ki, bu da onların maddi və mənəvi mədəniyyətlərinin bir çox sahələrində özünü büruzə vermişdir.

Makedoniyalı İsgəndərin imperiyasının dağılmasından sonra nəzərdən keçirilən ərazilərin böyük hissəsi onun sərkərdəsi I Selevk Nikatorun (e.ə. 311-281-ci illər) hakimiyyəti altına düşdü. I Selevk və onun varisləri hakimiyyətləri altında olan ərazilərin öz müstəqilliklərini və dövlətçiliklərini bərpa etməyə çalışan xalqlarını itaətdə saxlamaq üçün daim onlarla müharibələr aparırdılar.

E.ə. III əsrin ortalarında müasir Cənub-qərbi Türkmənistan və Şimali-şərqi İran ərazilərini əhatə edən Parfiya və müasir Şimali Əfqanıstan və Amu-Dəryanın sağ sahili ərazilərini əhatə edən Baktriya qüvvətlənib, öz müstəqilliklərinə nail oldular. Parfiya çarlığı I Arşakın (e.ə. 248-215-ci illərə yaxın) və onun varislərinin hakimiyyəti illərində ərazilərini genişləndirmək məqsədilə selevkilərlə mübarizəyə başladı. Parfiya dövləti özünün qüdrətli çağlarında şərqdə Baktriya, qərbdə Cənubi Qafqaz və İran vilayətlərini, Mesopotamiya və Suriyanı əhatə edirdi. Belə vəziyyət bu dövrdə yüksəlmiş Roma imperiyasının Yaxın Şərqdəki maraqları ilə birbaşa toqquşmaya səbəb oldu. Arşakilər bu qarşıdurmada bir sıra qələbələr qazandılar və Mark Antoninin qoşunlarının darmadağın edilməsindən sonra IV Fraatın (e.ə. 38-3-cü illər) çarlığı illərində sürəkli dinc dövr bərqərar oldu. Amma artıq bizim eranın başlanğıcında romalılar bir çox əraziləri fəth edirlər, Selevk şəhərini yandırır və parfiyalıların çar şəhəri Ktesifonu tuturlar. Tədricən Parfiya dövlətinin çiçəklənməsi sona çatır. Dövlətin şərq sərhədlərində köçəri tayfaların – Çin mənbələrindən məlum olan da-yueççi tayfalarının çıxışları kəskinləşir. Onların arasında antik mənbələrin toxar adlandırdığı kuşan tayfaları xüsusilə yüksəlir. Kuşan çarlığının

çiçəklənməsi dövrü çar Kanişki və onun oğlunun hakimiyyəti zamanına düşür (təxminən III əsrin ortaları). Kuşanların dövründə buddizmin Hindistandan yayılması başlanmışdı.

Parfiya dövlətinin daxilində, Pars vilayətində üsyan baş verdi, arşakilərin hakimiyyəti devrildi və Sasani sülaləsindən olan I Ərdəşir (226-241-ci illər) Papakan hakimiyyəti öz əlinə keçirdi.

Sasanilər dövlətin birləşdirilməsi uğrunda uzun müddət mübarizə aparmaq məcburiyyətində qaldılar. Yeni sülalə bir qədər sonra bütün imperiyanın varisinə çevrildi və Ktesifon onun paytaxtı oldu.

Azərbaycan ərazisində gedən tarixi proseslər bu dövrün yazılı mənbələrində belə təsvir olunur.

**Atropatena. Albaniya.** Müasir Cənubi Azərbaycanın ərazisində Haxamanişilər imperiyasının süqutu ilə paytaxtı müasir Marağanın yaxınlığındakı Qazaka şəhəri olan Atropatena (buna Kiçik Midiya, yaxud Midiya Atropatenası da deyirlər) dövləti yaranır. Onun tərkibinə, görünür, müasir Naxçıvan vilayətinin rayonları da daxil idi, belə ki, bu ərazilər hələ qədim zamanlardan cənub vilayətləri ilə çox sıx əlaqədə idilər. Faktiki olaraq Atropatena bir neçə əsr əvvəl Manna dövlətinin yerləşdiyi əraziləri əhatə edirdi. Dövlətin başçısı Atropat hələ haxamanişilərin dövründə bu vilayətlərin satrapı idi və e.ə. 331-ci ildə yunanlara qarşı savaşda Qavqamela yaxınlığındakı döyüşdə III Daranın tərəfində vuruşurdu. O, midiyalıların, kadusilərin, albanların və sakesinlərin qüvvələrini öz rəhbərliyi altında birləşdirə bilmişdi. İsgəndər tərəfindən haxamanişilərin darmadağın edilməsi zamanı Atropat qısa müddət hakimiyyətdən kənarda qalmış, lakin az sonra yenə öz torpaqlarına rəhbərliyə qayıtmışdı. İsgəndərin ölümündən sonra onun sərkərdələrinin hakimiyyət uğrunda mübarizələri dövründə Atropat Midiya-Atropatenanın müstəqilliyini qoruyub saxlaya bildi və çar titulu aldı.

Özünü qüdrətli qonşularının iddialarından qoruyan





Atropatena iki əsr ərzində müstəqilliyini saxlamağa nail oldu. Atropatın idarə etdiyi bu ölkə onun adı ilə çağırıldı və sonralar mənbələr onu Atropatena dövləti adlandırdılar. Bu ad müxtəlif dövrlərdə nisbi dəyişikliklərə və təhriflərə uğrayaraq, son dövrlərin mənbələrinin yazılı xüsusiyyətlərinə uyğun olaraq Aturpatakan, Adarbadaqan, Adarbiqana, Adorbiqan və s. şəklində istifadə olunmuşdur. Bu adın VII əsrdə formalaşmış ərəb forması «Azərbaycan» şəklində gəlib müasir dövrə çatmışdır.

Atropatena çar Artabazanın hakimiyyəti dövründə e.ə. III əsrin 20-ci illərinədək öz müstəqilliyini Selevkilərin iddialarından qoruyub saxlaya bilir. Atropatena uğurlu savaşlar sayəsində öz sərhədlərinin xeyli genişlənməsini təsbit edən sülh müqaviləsi imzalaya bilmişdir. Mənbələrə görə onun sərhədləri Xəzər dənizinin sahillərindən Fasis – müasir Rioni çayının mənbələrinədək və Arazın bütün orta axarı boyunca yayılmışdı. Selevkiləri əvəz edən parfiyalılar Yaxın Şərq ərazilərini öz nüfuz dairələri altına almaqdan ötrü romalılarla sürəkli müharibələr aparmışlar. Atropatena çarı Artavazd bu savaşda parfiyalıları dəstəkləyirdi. Bunun sayəsində Antoni tərəfindən mühasirəyə alınmış və müasir Marağanın ətrafında yerləşməsi güman edilən Fraaspa şəhərini müdafiə etmək mümkün olmuş və e.ə. 36-cı ildə romalılar qovulmuşdur.

Amma az sonra Atropatenanın siyasi orientasiyası kəskin şəkildə dəyişir. İndi də parfiyalılardan öz müstəqilliyini qorumağa çalışan atropatenalılar romalıların yardımından istifadə etməyə cəhd göstərirlər. Onlar çar Ariobarzanın hakimiyyəti illərində müəyyən müddətə öz ərazilərini genişləndirməyə də nail olmuşdular.

Romalıların zəifləməsi parfiyalıların Arşakilər sülaləsinə imkan verdi ki, bizim eranın 20-ci illərində Yaxın Şərqin böyük ərazilərini, o cümlədən Atropatenanı özlərinə tabe etsinlər, hərçənd belə məlumat da vardır ki, oradakı hakimiyyət Atropatın sülaləsinin əlində qalmaqda idi. Bizim eranın əvvəllərində sonuncu Atropatena çarı kimi II Ariobarzanın oğlu Artavazdın adı çəkilir.

Hələ Manna dövründən iqtisadi cəhətdən inkişaf etmiş, Atropatenanın ərazisində şəhərlər, sənətkarlıq, təsərrüfat həyatı çiçəklənirdi. O uzun müddət burada bir-birini əvəzləyən imperiyaların dini mərkəzi olaraq qalırdı. Güman edilir ki, Avesta kitablarından biri olan «Videvdad»ın son tamamlanması Atropatenada başa çatmışdır.

Zərdüşti kahinləri həyatda mühüm rol oynayır və bir çox qonşu ölkələrin din və ideologiyasına güclü təsir göstərirdilər. Sonralar Adurquşnasp kimi tanınmış Şiz – müasir Təxti-Süleyman – şəhərinin atəşli məbədi sasanilərin dövründə də imperiyanın müqəddəs yeri və dini mərkəzi kimi qalmaqdaydı və sasani çarları taxta çıxan kimi mütləq sitayiş mərasiminin keçirilməsi məqsədi ilə buraya gəlirdilər.

Van ətrafı ərazilər də Makedoniyalı İsgəndərin hakimiyyəti altına düşmüşdü. Selevkilərin dövründə burada müxtəlifdilli xırda qurumların dəyişkən müvəffəqiyyətlə birləşmə prosesi gedirdi.

Romanın Yaxın Şərqə marağının artmasından istifadə edən və ona arxalanan I Artaşesin (e.ə. 189-160-cı illər) hakimiyyəti illərində burada müstəqil dövlət yaranmağa başlayır. Ən böyük, lakin qısa müddətli nailiyyətlər çar II Tiqranın (e.ə. 95-56-cı illər) dövründə əldə edilmişdi. Amma e.ə. 66 ildə Pompeyin və Lukullun yürüşləri ilə bağlı olaraq həmin ərazilərin böyük hissəsi itirilir, yenicə yaranan dövlət isə Romadan və Parfiya arşakilərindən asılı vəziyyətə düşür.

Sasanilər dövlətinin (III-VII əsrlər) yaranmasından sonra bütün Cənubi Qafqaz bu dövlətin hakimiyyəti altına düşdü. Sasanilər bu ərazilərin idarə olunması üçün çox vaxt onlara yerli hakimlərdən mərzban – canişin təyin edirdilər. Bu ərazilər onları öz təsirləri altında saxlamağa çalışan Roma, sonralar isə Bizans imperiyası ilə sasanilər arasında uzun müddət baş verən müharibələr meydanına çevrilmişdi.

Onlar burada öz təsirlərini din vasitəsi ilə də genişləndirməyə çalışırdılar. 301-ci ildə ermənilər, az sonra gürcülər və albanların bir hissəsi xristian dinini qəbul edirlər.





Zərdüştilik dini də burada dərin iz qoymuşdur. Atropatena hələ də sasanilərin dini mərkəzi kimi qalırdı.

Albanlar hələ IV əsrdə atropatenalılarla birlikdə Makedoniyalı İsgəndərin qoşunlarına qarşı vuruşmada iştirak etmişlər. Onlar Araz çayı və Kiçik Qafqazdan Böyük Qafqazın Mərkəzi və Şərq bölgələrinin cənub ətəklərinə qədər olan ərazilərdə məskunlaşmışdılar.

Albaniyanın tarixi, xüsusilə də onun antik dövr tarixi yazılı mənbələrdə çox zəif işıqlandırılıb. Lakin Azərbaycanın bir çox yerlərində müxtəlif tipli torpaq qəbirlər, küplər, saxsı təknə, daş və taxta qutular və s. abidələrdən aşkar olunmuş avadanlıq onun maddi mədəniyyətinin çox zəngin olmasından xəbər verir. E.ə. III-I əsrlərə aid əldə olunan materiallar tarixi ədəbiyyatda ilk dəfə tapıldıqları yerin adına görə Yaloylutəpə mədəniyyəti adlandırılmışdır. Sonralar I-IV əsrlərə aid katakomba, çiy kərpicdən inşa olunmuş tikilidə, daş qutularda dəfn edilmə adətləri meydana çıxır. Bunlar yeni etnik qrupların müdaxilə etməsini təsdiqləyə bilər.

Bu ərazi barədə ən qədim yazılı məlumat Herodotun Haxamanişilər dövlətinin sərhədlərinin Qafqaz dağlarınadək çatması və onların kolxlara və qonşularına xərac təyin etmələri haqqında verdiyi məlumatdır. Haxamanişilərin dövründə bu ərazilərdə yaşayan kaspilərin XI satrapiyaya daxil olması haqqında məlumatı Albaniyaya da aid etmək olar. Ayrı-ayrı məlumatlar nisbətən son dövr antik mənbələrində qalmışdır. Bu müəlliflər də öz deyimlərində Pompeyin və Antoninin Qafqaz yürüşündə iştirak etmiş döyüşçülərinin xəbərlərinə əsaslanırlar.

Strabonun məlumatından bəllidir ki, albanlar 26 qohum tayfalardan ibarət idilər və onlara çarları başçılıq edirdi. Ölkədə alban tayfalarından başqa, adları verilən dənizin cənub-şərq sahilində kaspilər (bəzi mənbələr onu həm də Alban dənizi adlandırır), onlardan cənubda isə kadussilər, anariaklar və amardların olmaları qeydə alınıb. Yazılı mənbələrdə saxlanılmış o qədər də çox olmayan onomastik materiallara əsasən tədqiqatçılar alban tayfalarının dillərini Şərqi Qafqaz

dil qrupuna aid edirlər. Albanların bizim eranın V əsrindən öz yazıları olmuşdur, lakin o, təəssüf ki, indiyədək oxunmamış qalır.

Öz müstəqilliklərinin qorunması üçün labüd olan birləşmə prosesi e.ə. IV-III əsrlərdə başında təkhakimiyyətli çarın durduğu vahid Alban dövlətinin yaranmasına gətirib çıxarmışdı. Onun ərazisi sıx məskunlaşmışdı. Albanlar müharibə zamanı döyüş meydanına 60 min piyada və 22 min süvari döyüşçü çıxara bilirdilər.

Roma müəllifi Klavdi Ptolemey (85-167-ci illər) «Coğrafiya» əsərində xəbər verir ki, Albaniyada 29 şəhər var imiş. Təsərrüfatçılıq və sənətkarlıq yüksək inkişaf etmişdi. Albaniyada yunan, selevki və arşaki sikkələrindən istifadə olunurdu ki, bu da geniş tijcarət əlaqələrinin olmasından xəbər verir. Yeri gəlmişkən, qeyd edək ki, arxeoloji qazıntılar zamanı aşkar olunmuş ayrı-ayrı sikkələrdən əlavə Bərdə və Xınıslıda sikkə dəfinələri də tapılmışdır. Kənardan gətirilən sikkələrlə yanaşı yerli sikkələr də dövriyyədə olubmuş. Albaniyanın müasir Çuxur-Qəbələ kəndi yaxınlığında yerləşmiş paytaxtı Qəbələ ərazisində İsgəndərin və selevkilərin dövrünə xas yunan sikkələrini təqlid edən yerli zərbli sikkə dəfməsi aşkar edilmişdir. Dəfmə e.ə. II əsrin 20-30-cü illərinə aid edilir, amma, görünür həmin sikkələr xeyli əvvəl zərb edilibmiş. Sonralar Roma və Sasani sikkələri də istifadədə olmuşdur.

Albaniya bir-biri ilə düşmənçilik edən, buranı tutmağa və nüfuzlarını yaymağa çalışan qüdrətli qonşuların şərqdən selevkilərin, parfiyalıların, sasanilərin və qərbdən romalıların, bizanslıların hücumlarını dəf etmək məcburiyyətində idi. Bu mübarizədə Albaniya və başqa Qafqaz ölkələri şimaldan gələn yeni köçəri tayfaların köməyindən istifadə edirdilər. Yazılı mənbələr və arxeoloji məlumatlara görə bu zaman sarmat-massaqet-alan tayfalarının axını başlayır. Mənbələr Xəzərin qərb sahillərində Mazkut/Masxat dövlətinin yaranmasından xəbər verir. Lakin VII əsrin axırlarına yaxın onlar qonşu əhali tərəfindən assimilyasiyaya uğradılır və tarixi meydandan çıxırlar.





Artıq Kiçik Asiya və Armeniyanı Qney Pompeyin başçılığı ilə (e.ə. 106-48-ci illər) tutmuş Roma qoşunlarının yürüşü zamanı albanlar çar Oroyzun başçılığı ilə ciddi müqavimət göstərirlər. Pompeyin arzusu və sonralar dəfələrlə Xəzərətrafı ərazilərin tutulması üçün edilmiş cəhdlər uğurla nəticələnmədi.



Romalılar Xəzərə yalnız bizim eranın 90-cı illərində çata bildilər. Bunu Bakıdan 60 km cənubda Xəzər sahilində Qobustanda Böyükdaş dağının ətəyində qaya üzərində aşkar edilmiş latın yazısı sübut edir: «İMP DOMİTİANO CAESARE AVG GERMANİC L.İULİUS MAXİMUS > LEG XII FUL» – «İmperator Domisian Sezar Avqust Germanik L.Yuli Maksim XII ildırım sürətli legioun senturionu».

**Sasanilər dövrü və ərəblər.** Sasanilərin dövründə II Şapurun (309-379-cu illər) hakimiyyəti illərində Albaniya ilə münasibətlər dostluq xarakteri daşıyırdı. Alban çarı Urnayr II Şapurun bacısı ilə evlənmişdi. Bu dövrdə Albaniya kifayət qədər geniş ərazilərə malik idi. İlk orta əsr mənbələrinə görə Albaniya aşağıdakı vilayətlərə bölünürdü: Çol, Şəki, Lpina, Girdman, Uti, Artsax, Paytakaran.

Lakin sasanilər bütün Cənubi Qafqazın özlərinə tabe etdirilməsi siyasəti yürüdürdülər ki, bu da vaxtaşırı toqquşmalara gətirib çıxarırdı və bu toqquşmalar II Yezdigerdin (438-457-ci illər) hakimiyyətə gəlməsindən sonra daha da gücləndi. Sasanilərdən yaxa qurtarmaq məqsədilə Urnayrın və əsasən Vaçaqanın hakimiyyəti illərində Albaniya əhalisinin bir hissəsi xristianlığı qəbul etdi, amma bu o qədər də ge-

niş yayıla bilmədi və əhalinin əsas kütləsi özlərinin əvvəlki ənənəvi inanclarında qalmaqda idi. Digər tərəfdən zərdüştiliyi dövlət dininə çevirmiş sasani şahları onu zor gücünə hakimiyyətləri altında olan ərazilərə də yayırdılar.

Müstəqilliyi qorumaq tendensiyası bu ərazilərdə qalmaqdaydı və V əsrin ortalarında hakimiyyətdə olmuş alban çarı Vaçe, sonralar isə Vaçaqan (487-510-cu illər) qonşularla birləşərək, Qafqaz dağları silsiləsinin aşırımlarından keçib gələn döyüşkən türkdilli köçəri tayfaların qüvvəsindən istifadə edirdilər. Sasanilər şimali-şərq sərhədləri qorumaq üçün bir neçə yaxşı qorunan müdafiə xətləri inşa etmişlər. Bu qəbildən hazırda möhtəşəm divarlarının izlərinin qaldığı Gilgilçay və Beşbarmağı göstərmək olar, pəhləvi yazıları olan Dərbənd divarı isə yaxşı vəziyyətdədir. Sasanilər müdafiə xidmətinin qorunulmasının həyata keçirilməsi üçün cənubdan böyük miqdarda irandilli əhalini buraya köçürmüşdü. Miqrasiya dövründə və köçürmə siyasəti nəticəsində məskən salmış irandilli xalqlar – talışlar, lahıclar, kürdlər, tatlar və başqaları indi də Qafqazda yaşayırlar.

Lakin görülən tədbirlər şimaldan gələn basqıları müəyyən müddətə ləngitsə də, yeni tayfaların müdaxiləsi prosesinin qarşısı alınmaz idi.

Albaniyanın şimalında Xəzərsahili bölgələrdə Xəzər xaqanlığı yaranmaqda idi. Müharibə aparan dövlətlər özləri çox tez-tez köçərilərin qüvvələrindən istifadə edirdilər ki, bu da onların buraya müdaxiləsinin sürətlənməsinə kömək edirdi.

IV əsrdən mərkəzi Konstantinopol olan Bizans dövlətinin yüksəlişi baş verir. Bizans əvvəlki nailiyyətləri əldə saxlamağa çalışırdı və sasanilərlə sürəkli müharibələr aparırdı. Musa Kalankaytuklunun verdiyi məlumata görə Bizans dövləti 626-cı ildə xəzərlərlə müqavilə bağlamışdı. Qəbələyədək irəliləmiş xəzərlər hələ I Xosrovun dövründə buraya köçürülən və dil baxımından onlarla qohum olan sabir tayfaları ilə birləşərək öz mövqelərini möhkəmlədirdilər.





Qərblə Şərqin qarşı-qarşıya durduğu bir vaxtda tarixi səhnəyə üçüncü bir qüvvə – cənubdan gələn ərəblər daxil olur.

Ərəb tayfalarının yayılması e.ə. I minilliyin sonlarından başlanır və nəticədə artıq V-VI əsrlərdə, yəni ərəblərin islamın yayılması ilə bağlı fəthlərinədək onların böyük qrupları Yaxın Şərq ölkələrinin ərazilərinə soxulur və Fələstin, İordaniya, Cənubi Suriyanın və İkiçayarasının bir sıra rayonlarının əhalisinin əsas kütləsini assimilyasiya edirlər.

Hələ III əsrin əvvəllərində İran dövləti vaxtaşırı Fars körfəzi sahillərində yerləşmiş ərəb hakimlərinin yürüşlərinə məruz qalırdı. Onlar burada ərəblərin ləxmilər tayfaları başda olmaqla Hirə çarlığını yaratmışlar. Hərçənd bu dövlət sasanilərə tabe idi, amma bununla belə özünün kifayət qədər geniş idarəçiliyi var idi. IV əsrin əvvəllərinə Hirə güclü dövlətə və ərəb mədəniyyətinin mərkəzinə çevrildi. Bir çox poetik əsərlərin meydana çıxması bu dövrə aid edilir və rəvayətə görə ərəblərin yazısı ilk dəfə olaraq aramilərin təsiri ilə məhz Hirədə yaradılmışdır.

Ərəb dilinin yayılması vahid ərəb dövlətinin – xilafətin yaradılmasından sonra da davam edir. Lakin onların vahid millətə cəmləşmələrinə bir çox maneələrdən başqa, yerli əhalinin etnoqrafik və mədəni xüsusiyyətləri və özlərinin siyasi müstəqilliklərini yaratmaq cəhdlərinə malik olan, ərəb dilinin dialektlərində danışan müasir xalqların müxtəlif substratlar əsasında əmələ gəlməsi çox böyük rol oynayırdı.

Əsasını Məhəmməd peyğəmbərin qoyduğu yeni monoteist islam dininin yayılması ilə bağlı olaraq ərəblərin nüfuzu artır. Əhali arasında yayılmış müxtəlif dini inanclar öz yerlərini yeni dinə verir. İslamın ardıcıllarını müsəlmanlar («islam dininə etiqad edənlər») adlandırırlar. Özlərinin arasındakı mübarizə və getdikcə güclənməkdə olan yeni köçəri tayfaların təzyiqi altında zəifləmiş İran və Bizansa tabe olan ərazilərin böyük hissəsi, eləcə də onlardan asılı olan dövlətlər və xalqlar peyğəmbərin hakimiyyətinin davamçıları – xələfləri sayılan ərəb xəlifələri tərəfindən fəth edilir.

İranın, Kiçik Asiya və Qafqazın ərəblər tərəfindən fəth edilməsi siyasi xarakter daşıyırdı və onların gəlişi bu ərazilər üçün etnik baxımdan miqrasiya deyildi, hərçənd onlar fəth olunmuş ərazilərə çoxlu miqdarda ərəbdilli əhali köçürmüşdülər. Onlar bu yerlərdə qalalar tikir və yerli əhalini tabe etmək, eləcə də vergiləri vaxtlı-vaxtında yığmaq üçün qoşun saxlayırdılar. Ayrı-ayrı bölgələrin idarə olunması üçün canişinlər – əmirlər təyin edirdilər. İslamın qəbul edilməsi ilə yanaşı, külli miqdarda yeni söz və anlayış yerli əhalinin dilinə müdaxilə edirdi, bununla belə bu bölgədə dilin dəyişməsi prosesi baş verməmişdi.

**Türkdilli tayfalar.** Bu dövrdə mənbələrdə yeni köçəri tayfaların adlarına rast gəlinir və bu, getdikcə daha tez-tez təkrarlanır, həmin tayfaların baş verən tarixi hadisələrdə rolu artır. Onların müdaxiləsi nəticəsində özlərinin hələ qədimdən təşəkkül tapmış ənənələri olan bir çox imperiyalar və dövlətlər dağılır. Yeni tayfaların və birliklərin adlarını ilk dəfə çəkən və müxtəlif dövlətlərin bu və ya digər dərəcədə təmasda olduqlarını bildirən və onların müəyyən ərazilərdə olduqlarını təsbit edən mənbələrin məlumatlarını qısa nəzərdən keçirsək, şərqdən qərbə gələn köçərilərin və onlarla qarışmış xalqların miqrasiya yollarını və tarixi hadisələri izləmək olar.

Yaxın Şərq ərazilərindən çox uzaqlarda – Çinin şimal sərhədlərində e.ə. I minilliyin ikinci yarısında Asiyanın və Avropanın gələcək etnik və siyasi tarixinə çox böyük təsir göstərmiş tarixi hadisələr baş verir.

Bu ərazilər haqqında məlumatları e.ə. 135-67-ci illərdə yaşamış Sima Tsyan adlı çin müəllifi öz əsərində toplamışdır. O, e.ə. VII-VI əsrlərdə müasir Mərkəzi Asiya ərazisində sonralar «xu» adlanmış «cun» və ya «di» köçəri tayfaların yaşamasını bildirir. Daxili Monqolustanın və Mancuriyanın çöllərində «şancun»lar (dağ cunları) və «dunxu» (şərqi xu) yaşayırdı. Bu tayfalar hələ siyasi baxımdan birləşməmişdilər və bir yerdən digərinə köç edirdilər. Çinlilərin cunlarla toqquşmaları ilk vaxtlar o qədər də təhlükəli xarakter daşımırdı.





«Döyüşən çarlıqlar»ın dövründə (e.ə. 403-221-ci illər) – köçəri sünnu/hunnu (hunlar) və yueçci tayfalarının qüdrətli birliyinin yaranması zamanı vəziyyət dəyişir; dunxu haqqında isə bildirilir ki, onlar başda vahid hökmdar – şanyu olmaqla «çiçəklənmə çağlarına çatırlar». Elmdə belə fikir irəli sürülmüşdür ki, hunlar bizə gəlib çatmayan, məhv olmuş dildə danışırdılar.

E.ə. III əsrin sonlarında hunlar Toumanın oğlu Maodunun başçılığı ilə dunxuları darmadağın edərək, işğalçı yürüşlərə başlayırlar. Onun varisi Laşan şanyu (e.ə. 174-161-ci illər) yueçciləri darmadağın edərək, onları Orta Asiyaya – Amu-Dəryanın yuxarı axarlarına doğru sıxışdırdı və onlar da sonralar burada Kuşan dövlətinin yaradıcıları oldular.

Bizim eranın ilk əsrlərində, Parfiyanın tənəzzülü dövründə kuşanlar Baktriyanı tutdular, sasani şahlarının hakimiyyəti illərində isə darmadağın edilərək, nəhəng Sasanilər imperiyasının tərkibinə daxil edildilər.

Hunlar Çinin Xan sülaləsi (e.ə. 206– b.e. 220-ci illər) ilə vaxtaşırı dəyişkən uğurlu müharibələr aparırdılar. Lakin e.ə. 71-ci ildə Çin digər köçəri tayfaların köməkliyi ilə onların müqavimətini qıra bildi. Onlar cənubi və şimali hun tayfalarına parçalandılar. Şimali hunlar Qərbi Monqolustana, Cənub-qərbi Sibirə və Şərqi Orta Asiyaya çəkildilər. B.e. II əsrinin birinci yarısında hunların Şərqi Qazaxıstan və Orta Asiyaya miqrasiyası başlanır, sonralar isə onların bir qismi Qərbi Sibirin uqor tayfaları ilə qarışaraq, Aral ətrafında, Xəzəryanı və Volqa çöllərində peyda oldular.

Artıq antik mənbələr hunların Xəzərətrafında olmalarından söhbət açır (Dionisi – II əsrin ortaları və Klavdi Ptolemey – II əsr). Hunların köç etməsi ilə onlara qədər burada yaşamış xalqların da köç dalğası başlanır. Təxminən bu dövrdən köçəri tayfaların Cənubi Qafqaza da müdaxiləsi başlanır.

Antik mənbələrin verdiyi məlumata görə Volqaboyu çöllərdən Dunaya qədər olan ərazilərdə Yaxın Şərq ölkələrinə basqın edən kimmer-skiflər və savromatlar (e.ə. VII-VI

əsrlər) yaşayırdılar. E.ə. III– b.e. IV əsrlərinə aid mənbələrdə ayrı-ayrı tayfa ittifaqlarından ibarət sarmat, yazıq, roksolan, sirak, aors və alanlarm adı çəkilir. E.ə. I əsrdə onlar romalıların əleyhinə çıxış edən Kiçik Asiya çarları ilə ittifaqa girişirlər. Bu dövrdə alanlar daha çox fəallıq edirdilər.

Mərkəzi Asiya ərazilərində olan saklar və massagetlər də böyük rol oynayırdılar. Bu tayfalar vaxtaşırı Yaxın Şərq və Cənubi Qafqaz ölkələrinə basqınlar edirdilər. Onların buralara gəlmələrini arxeoloji materiallar əsasmda da izləmək olar. Köçərilərin yerdəyişmələrinin baş verməsi nəticəsində onlar həm yeni gəlmiş tayfalarla, həm də özləri yürüş etdikləri ərazilərin xalqları ilə assimilyasiya olurdular. Bəzi hallarda isə onlarm adlarından yalnız bir neçə toponimik ad qalmış və sonralar bunlar da başqa xalqların, əksər hallarda da tamamilə yad dil qrupuna aid olan xalqlarm adlarına şamil edilmişdir. Eyni sözləri Orta Asiya, Əfqanıstan ərazilərində və Hindistanın şimal-qərbində yaşayan eftalitlər haqqmda da söyləmək olar, belə ki, onlar Kuşan çarlığının mədəniyyətini əxz etmişdilər. Öz növbəsində Kuşan çarlığı da köçərilər tərəfindən Yunan-Baktriya çarlığınm məhv edilməsindən sonra meydana çıxıb, sonuncuların mədəniyyətini mənimsəmişdi. Sonralar hunlarm müdaxiləsi nəticəsində növbəti qarışıqlıq baş vermiş və eftalitləri həm köhnə, həm də yeni – «ağ hunlar» adı ilə adlandırırdılar, belə ki, onlar digər hun tayfalarından fərqlənirdilər. V əsrdə hunlar qüvvətlənərək Sasanilər dövlətinin şərq əyalətlərinə böyük təhlükə törədirdilər. Sonralar hunların və eftalitlərin birliyi dağıldı və onlar yeni türk işğalları arealına daxil oldular.

IV əsrin 70-ci illərində hunlar Cənub-şərqi Avropa çöllərinə gəldilər. Onlar Xəzərətrafı və Azovətrafı çölləri də tutdular. Burada onlarm ilk qurbanları alanlar oldu və onların yalnız bir qismi – osetinlərin əcdadları qaçıb dağlarda canlarını qurtardılar. Bunun ardmca Bospor çarlığını, sarmatları və qot tayfalarını darmadağm edən hunlar 378-ci ildə Roma imperiyasınm sərhədlərinə çatdılar. Onlar qısa müddət ərzində Kappadokiya, Suriya və Mesopotamiyaya soxuldular.





Hunları 434-cü ildən 453-cü ilə kimi Atilla (Attila) idarə edirdi və onun qoşunları Qərbi Avropaya soxularaq Romanı tutdu. Onun ölümündən sonra imperiya dağıldı. Hunlar ən çox Azovsahili çöllərdə qala bildilər, lakin 463-cü ildə bulqarlar tərəfindən məğlub edilib, tarixi səhnədən çıxdılar.

IV əsr Çin mənbələri yüksəlmiş və tarixi səhnədən yox olmuş çoxsaylı hun tayfaları arasında Aşina tayfasının adını çəkir – o hunn knyazı Muqanın tabeliyində idi. Bəzi tədqiqatçılarm fikrinə körə «Aşina» sözünün çincə hörmət bildirən ön şəkilçisi «a» və monqolca şono/çino – «qurd, canavar» sözündən ibarətdir, yəni «mərd canavar». Son axtarışların nəticələri göstərir ki, bu ərazilərdə soy adlarını müxtəlif rənglə adlandırma adətinə görə aşina sözünü «göy», tünd göy» rəngi kimi təcrcümə etmək lazımdır.

Çinlilər Aşina xanlarmm təbəələrini Tu-kü kimi yazırdılar. Bu sözlər monqol cəm şəkilçisi ilə «türk+üt», yəni «türklər» kimi oxunur. «Türk» sözünün özü «qüvvətli», «möhkəm» mənasını bildirir. Belə hesab edilir ki, bu, ümumiləşdirilmiş termindir və sonralar tayfa birliyinin etnik adına çevrilmişdir. Çin müəllifləri «türk xan» və «qurd (canavar)» anlayışlarmı sinonim hesab edirdilər. Mifologiyaya əsasən türklər hun şahzadəsi və dişi canavarı özlərinin əcdadları sayırlar. Türk bayraqlarmda canavar başının təsviri olardı.

439-cu ildə jujanlarm, teleutların, tobasların və s. tayfaların Çinlə çoxsaylı toqquşmalarında tabe olmaq istəməyən Aşina öz tayfası ilə qaçıb Altay dağlarının cənub tərəflərində məskunlaşmışdı. Burada onlar hunlarm köçləri zamanı əylənmiş türk dillərində danışan tayfalarla qaynayıb-qarışmışdılar. Onlar artıq 545-ci ildə qədim türk xalqı – «türküt»lər kimi çıxış edirlər və Asiya qitəsində nəhəng Türk xaqanlığını yaradırlar. Xaqanlıq uzun zaman Orta Asiya ərazilərində möhkəm oturaqlaşmış və İrana daim təhlükə yaradan eftalitlərlə mübarizə aparmalı olmuşdur. Onlarm üzərində qələbə çalındıqdan sonra xaqanlıq iqtisadi və siyasi cəhətdən möhkəmlənərək, İranla və qərb ölkələri ilə ticarət və sülh münasibətləri yaratdı.

Bumin xaqanın hakimiyyəti illərində şimalda və şərqdə böyük qələbələr (550-ci il) əldə edilmişdi. 554-cu ildən isə onun kiçik qardaşı İstemi xaqan qərbdə işğallara başladı. Türkütlər il yarım ərzində bütün Mərkəzi Qazaxıstanı, Orta Asiyanı özlərinə tabe edib, Volqa çayına çıxdılar. Hunların irəliləmələri sayəsində fəth olunmuş regionların əhalisi bu zaman adət və dillərinə görə artıq türkütlərə yaxın idilər. Türkütlərə tabe olmayan tayfalar arasında Şimali Qafqaza və Qara dənizin şimal sahillərinə qaçmış avar tayfaları da var idi. Onlar burada hələ hunların köçləri dövründən qalmış tayfalarla toqquşdular. Bu tayfalar – sabirlər, utiqurlar, kutiqurlar, bulqarlar, xəzərlər, onoqurlar, (o)ğuzlar və b. tədricən Yaxın Şərq ölkələrinin ərazilərinə doluşur və o dövrün iki ən iri dövlətinin – İran və Bizansın savaşlarında ya müttəfiq, ya muzdlular kimi iştirak edirdilər. Sabirlər avarların təzyiqi altında Cənubi Qafqaza köçərək burada Xosrov Ənuşirəvan tərəfindən Albaniyada, Kürün sol sahilində – indiki Şəmkir və Ağstafadan şimalda yerləşdirildilər. Öz yürüşləri zamanı sabirlər 516-cı ildə Kiçik Asiya ərazilərinə çatmışlar.

Lakin VII əsrin əvvəllərindən iri və xırda hun birliklərini udmuş və nəhəng məkanları öz təsiri altına almış Türk xaqanlığı dağılmağa başladı. Onun ayrı-ayrı hissələrində uyğurlar, qırğızlar, türkeşlər və b. tərəfindən özlərinin gah birbirləri ilə müharibələr aparan, gah da daim ekspansionist siyasət yürüdən Çinə qarşı birləşən dövlət qurumları yaranırdı. 710-711-ci illərdə türkeşlər özlərini kanqar adlandıran peçeneqlərlə vuruşurdular. Onlar Sır-Dəryanın aşağı və orta axarı boyunca məskunlaşmışdılar. Müasir Qazaxıstanın, Rusiya Federasiyasının və Ukraynanın cənub çöl zolağında – Dəşti-Qıpçaq adlanan nəhəng bölgədə qıpçaqlar yaşayırdılar. Onların qarışığından şərqdə qıpçaqlar, Avropada komanlar, Rusiya ərazisində isə poloveslər adlanan xalq əmələ gəlmişdi. Sır-Dərya və Amu-Dəryanın aşağı axarının (müasir Türkmənistan) Parfiya əhalisi Aral və Xəzərətrafı geniş əraziləri tutmuş quz türk tayfaları tərəfindən assimilyasiya olunmuşdu.





Adı çəkilən xalqların tərkibinə daxil olmayan tayfalar «oğuz» termini ilə adlandırılan ittifaqlar yaratmağa başladılar. Sonralar bu termin ümumiləşdirilmiş mənada etnonimə çevrilir. İlk dəfə Orxon yazılarında «tokkuz-oğuz», «üç oğuz» tayfa birliyinin adı çəkilir. Onun mərkəzi hissəsi Altayda möhkəmlənmişdi və İranla müharibələr nəticəsində onlar Amu-Dəryayadək irəliləmişlər. Onların arasında qədimdən ticarət yolu olan «Böyük İpək yolu»na nəzarət üstündə də müharibələr gedirdi.



Orxon-Yenisey əlifbası

VIII əsrin əvvəllərindən başlayaraq türk tayfalarının özlərinin yazılı abidələri meydana çıxır. Orxon run yazıları (qədim skandinavca run «sirr» deməkdir) adlandırı-

lan həmin yazılar Yenisey çayı boyunca və Monqolustanda, Orxon çayının yuxarı axarlarında aşkar olunmuşdur. Onların Danimarka alimi V.Tomson tərəfindən şifraçımı edilmiş, rus alimi V.V.Radlov tərəfindən isə mətni oxunmuşdur. Müəyyən dövrdə bu yazılar geniş yayılmışdı. Bizim dövrümüzə ithaf stelalarmda, qəbir daşlarmda, qayalarda, məişət əşyalarının üzərində belə yazılar gəlib çatmışdır. Görünür, onlardan ağac üzərində də mövcud olmuşdur. Bu, sait və samit səsli əlifba yazısı idi və sağdan sola yazılırdı, sözlər iki nöqtə ilə bir-birlərindən ayrılırdi. Bu yazı pəhləvi və soqd yazılarınm vasitəsilə arami yazısı əsasında yaradılıb. Sonuncu Orxon yazısının tarixi 784-cü ilə aid edilir. Türk xaqanlığında əhalinin özünəməxsus dini baxışları və dünyagörüşləri vardı, lakin onun süqutundan sonra şimalda xristianlıq, qərbdə islam, şərqdə isə buddizmin yayılması başlanır, bəziləri isə yəhudi dinini qəbul edir.

Türklərlə bağlı müxtəlif ixtiralar və yeniliklər tarixi meydana çıxmışdır və bunlar çox tezliklə dünyada yayılaraq bütün xalqlar tərəfindən əxz edilmişdir. Türklər mahir atçılar kimi tanınırdılar. At üzərində olarkən rahatlığın və hərəkət sərbəstliyinin təmin olunması məqsədilə onlar şalvardan istifadə etməyə başlamışlar; at əsləhəsi ağac özül əsasında sümüklə bəzədilmiş yəhər, metal (bəzən qızıl) ilə zəngin bəzəkli dəri yüyən, dəmirdən düzəldilmiş ikideşikli psali ilə birhalqalı gəm dartı və başlıq qayışını birləşdiricidən ibarət idi. II-IV əsrlər arasında türklər ilk dəfə olaraq üzəngi ixtira etmişlər. Onlar sonluğu və ortası sümük ilə bərkidilmiş iri qurama yay və iri iki-üçpərli, 700 metrədək uça bilən oxlardan istifadə edirmişlər, at üzərində gedərkən maneçilik törədən düz qılıncı əvəz edəcək əyri qılınc ixtira etmişlər, köç arabalarını və s. təkmilləşdirmişlər.

VII əsrdə Qərbi Türk xaqanlığının süqutundan sonra hələ xaqanlığm içərilərində formalaşmaqda olan dövlətlər yaranır. Azovsahili çöllərdə və Taman yarımadasında Bulqar dövləti yaranır. Lakin o uzun müddət mövcud ola bilmədi və yaradıcısı Kubratın ölümündən sonra dağıldı.





Bir-birlərini sıxışdıran köçəri tayfalar şərqdə İranın, qərbdə isə Bizansın tabeliyində olan əraziləri tuturdular. Lakin Bizans avarların köməkliyi ilə birinci hun dalğası tayfalarını dağıda bildi. Bu dövrdən etibarən həmin ərazilərə sahib olmaq uğrunda aparıcı rol xəzərlərin əlinə keçir.

Xəzər xaqanlığı Xəzərsahili çöllərdə formalaşır. Xəzərlər özlərini Türk xaqanlığınm varisləri sayırdılar və onların xanları da Aşina sülaləsindən olan türkütlərdən idi. Onlar öz fəthlərinə Azovsahili torpaqların birləşdirilməsindən başlamışdılar. Orada yaşayan bulqarların bir qismi tabe olmaq istəmədiklərindən Asparux xanın başçılığı ilə VII əsrin 70-ci illərində Dunay üzərinə köçərək yeni Dunay Bulqar dövlətini yaratdılar. Sonralar onlar slavyan tayfaları ilə qarışdılar və bu ərazilərdə onların yalnız adı qalmışdır. Bulqarların digər hissəsi Orta Volqaboyunda əylənərək, savirlərin iri birlikləri kimi sərhədlərini tədricən genişləndirən Xəzər xaqanlığına daxil oldu. Dövlətin paytaxtı müasir Dağıstanın şimalındakı Bələncər və Səməndər, sonra isə Aşağı Volqa sahilindəki İtil olur. Bunlar böyük və yaxşı möhkəmləndirilmiş şəhərlər idi. Xəzərlər Krımın tabe etdirilməsi uğrunda Bizansla, habelə Cənubi Qafqaz torpaqları üstündə İranla inadlı müharibələr aparırdı. Köçərilərin müdaxiləsindən öz sərhədlərini qorumaq məqsədilə sasanilər Qafqaz dağlarının aşırımları boyu müdafiə divarları tikməyə başlayırlar. I Xosrov Ənuşirəvanın (531-579-cu illər) hakimiyyəti illərində yeni müdafiə divarları – möhtəşəm Dərbənd divarları inşa edilir. Ərəb mənbələrinin məlumatlarına görə I şah Qubadın hakimiyyəti illərində (V əsrin sonları – VI əsrin əvvəlləri) xəzərlər Albaniya, Gürcüstan və Ermənistan ərazilərinə yürüşlər edirlər. Şah çox çətinliklə bu torpaqları saxlaya bilirdi. 730-731-ci illərdə xəzərlər müvəffəqiyyətlə yürüş keçirərək, Albaniyaya ağır zərbə vurub, Ərdəbil şəhərinə kimi çatır və onu dağıdırlar. Bir müddət Albaniya xəzərlərə xərac verirdi.

Xəzərlər yaratdıqları dövləti qoruyub saxlamaq və möhkəmləndirmək üçün ümumdövlət dinini tətbiq etməyə başladılar. İlk vaxtlar bu, ümumtürk səma allahı Tanqrı kul-

tu idi. Amma qərbdən – Bizansdan və cənubdan – İrandan və Cənubi Qafqazdan zərdüştlik və xristianlıq daxil olurdu. Savirlər, bulqarlar və xəzərlərin özlərinin bir hissəsi bu dinləri qəbul edirdilər. VIII əsrdən etibarən buraya iudaizm də daxil olmağa başlayır. Belə etnik və dini rəngarənglik şəraitində Xəzər xaqanı başa düşürdü ki, xristianlaşma yaxın, lakin düşmən olan qonşu Bizansa ideoloji cəhətdən tabe olmaq demək idi. IX əsrdə xəzərlərin hakim təbəqəsi, başda xaqan Obadi olmaqla rəsmi qaydada yəhudi dinini qəbul etdilər. Xəzər xaqanı İosif (X əsrin ortaları) Qərdiniyyə xilafətinin saray məmuru yəhudi Xasday ibn Şafrutun sorğusuna qədim yəhudi dilində göndərdiyi cavabda o, yəhudiliyin qəbul olunması vaxtını və öz dövləti haqqında məlumatları bildirir.

Xəzərlər müəyyən müddət bir tərəfdən şimaldan slavyanların müdaxiləsinin qarşısını alır, özləri onların ərazilərinə basqılar edir və tabeliklərindəki slavyan tayfalarının üzərinə xərac təyin edirdilər, digər tərəfdən isə cənubdan İran və ərəb təsirinin müdaxiləsinə qarşı sipərə çevrilmişdilər. Xəzərlərin ərəblərlə apardıqları uzunmüddətli savaşları dövlətin iqtisadi qüdrətini xeyli zəiflətdi və nəticədə onların şimala – Don və Volqaboyu çöllərinə kütləvi köçləri başlandı. Aşağı Volqada yeni paytaxt – İtil şəhəri inşa olundu. 735-ci ildə ərəb sərkərdəsi Mərvan Xəzər xaqanının qoşunlarını darmadağın etdi, amma xaqanlığın ərəb dövlətinə tabe olunması baş tutmadı. Bütün bunlar Xəzər dövlətini zəiflədirdi, çoxalmış daxili çəkişmələr isə yeni köçəri tayfaların – macarların, peçeneqlərin və quzların – onların ərazilərinə soxulmasına şərait yaratdı. Macarlar daha da qərbə doğru getdilər və Avropanın mərkəzində əyləndilər; peçeneqlər isə Xəzərətrafı və Qara dənizin şimal sahillərindəki geniş çölləri ələ keçirdilər.

Xəzər dövlətinə sonuncu zərbəni quzlarla sazişə girmiş ruslar vurdular. Volqa çayı ilə Xəzər dənizinədək olan azad ticarətə maraq göstərən ruslar Xəzər qoşunlarını və onların paytaxtları Səməndəri və İtili darmadağın etdilər. Mübarizələr və müharibələr nəticəsində gücdən düşmüş xəzərlər kömək üçün xarəzmlilərə müraciət etdilər. Köməyə razılıq verən xarəzmlilər onların islamı qəbul etmələrini şərt kimi irəli sürdülər.





X əsrin sonlarında Xəzər dövləti süqut edir. Bundan sonra xəzərlər ətrafa yayılır və müxtəlif qonşu xalqlarla qaynayıb-qarışırlar.

Xəzərlərin adı sonuncu dəfə mənbələrdə XI əsr rus salnaməsində çəkilir.

Türkdilli tayfaların müdaxiləsi genişlənir və daha da güclənir. Qruplardan biri indiki Əfqanıstanın şərqindəki ərazilərdə əylənmişdi. Onlar Orta Asiyanın və İranın geniş ərazilərini fəth edərək, Sultan Mahmudun hakimiyyəti illərində (998-1030-cu) paytaxtı Qəznə olan eyniadlı qüdrətli dövlət yaratdılar. Məşhur Firdovsi onun dövründə yaşayıb-yaratmış və onun Sultan Mahmudun sifarişi ilə yazdığı poemasında İran-Turan savaşlarının tarixi əfsanəvi başlanğıcdan II Xosrovun hakimiyyətinədək ətraflı təsvir olunur. Qəznəvilər dövləti qısamüddətli çiçəklənmədən sonra süqut etdi və səlcuqlar tərəfindən fəth olundu.

Türkdilli tayfaların Yaxın Şərqin qədim dövlətlərinin ərazilərinə növbəti böyük köçü oğuzlarla bağlıdır. Tarixi ənənə onları 24 tayfaya bölür və bu «Dədə Qorqud» dastanında öz əksini tapmışdır. Onların adları dəyişmiş formada müasir türk dilində danışan xalqların adında qalmışdır. Nisbətən erkən vaxtlarda oğuzlar Sır-Dərya və Aralətrafı düzənlərdə, müasir Türkmənistan və Mərkəzi Qazaxıstan ərazilərində məskunlaşmışdılar. Onlar bu ərazilərdə həm köçəri, həm də oturaq həyat sürürdülər – ekstensiv maldarlığı əkinçilik, ovçuluq və balıqçılıqla uzlaşdırmışdılar.

Ərəb mənbələrinin məlumatlarına görə oğuz tayfalarının IX əsrin əvvəllərində fəallaşması ilə bağlı olaraq, onlar öncə Xorasana və Sistana, habelə Xəzər dənizinin şimal sahillərinə və Volqaboyu sahillərə doğru irəliləmiş, burada Volqa bulqarları və xəzərlərlə təmasa girərək, müxtəlif qeyri-türkdilli əhali ilə (İran, Qafqaz, uqro-fin, sami və s.) qarışmışlar.

X əsrdə oğuzların arasında baş verən çəkişmələr nəticə-

sində Dukanın oğlu Səlcuqun başçılıq etdiyi qrup önə çıxır. Oğuzların islamı qəbul etmələri də bu dövrə təsadüf edir. Qəznəvilərin hökmdarlığından narazı qalan səlcuqlar onların ərazilərinə soxuldular və beşillik müharibədən (1035-1040-cı illər) sonra hakimiyyəti ələ keçirib, dövlətin başına keçdilər.

Oğuzların – səlcuqların kütləvi köçlərlə müşayiət olunan işğalçı yürüşləri bu dövrdən başlayır. Beləliklə, onlar Abbasilər xilafətinin şimal sərhədlərində peyda oldular. Ayrı-ayrı tayfalar cənuba keçə bilmiş və əvvəlcə muzdla xidmət etmiş, sonra isə yerli əhali ilə qarışaraq oturaqlaşmışlar. Xəlifələrin hakimiyyətlərinin zəifləməsi üzündən hakimiyyətə yaxın olan muzdlu cangüdənlər xüsusi bölmə təşkil edərək, artıq sarayda əhəmiyyətli rol oynamağa başlayırlar. Onlar tədricən dövlət vəzifələrini ələ keçirir və praktiki olaraq simvolik fiqura çevrilmiş və tez-tez dəyişən xəlifələrin dövründə real hökmdara çevrilirlər.

Şərqdə Səlcuqun oğlu Toğrul bəyin (1038-1063-cü illər) dövründə Qəznə torpaqlarında möhkəmlənən türklər açıq hücuma başlayaraq, Qərbi İranı, Azərbaycanı və Bağdadla birlikdə Mesopotamiya torpaqlarını tutdular. Xəlifənin yalnız nominal hakimiyyəti saxlanılmışdır. Toğrul bəyə isə sultan titulu (bu söz «hökmdarlıq etmək» mənasını bildirir) verilmişdir.

Bu dövrdə artıq Həmədan adlanan keçmiş Ekbatana paytaxt olur. Sultan Alp-Arslan (1063-1072-ci illər) öz dövlətinin sərhədlərini Aralıq dənizinədək genişləndirərək, Bizansın ordusunu darmadağın etdi və sonuncunun böyük dövlət kimi varlığına son qoydu. Türklər Şərqi Anadolunu və bütün Kiçik Asiyanı tutdular.

Səlcuq dövləti Məlikşahın (1072-1092-ci illər) hakimiyyəti illərində öz inkişaf zirvəsinə çatdı. O, Suriyanı və Fələstini tutdu. Möhtəşəm imperiya yaradan türklər bir çox əsrlər boyu əzəmətli qüvvəyə çevrilərək həm quruda, həm də dənizdə Qərbi Avropa dövlətlərinin rəqibi olmuşlar.

Bu dövrdə böyük şairlər, alimlər və filosoflar (Büruni, ibn Sina, Ömər Xəyyam, əl-Bəttani, əl-Razi, əl-Qəzali, ibn





Rüşt və b.) yazıb-yaratmışlar və onların əsərləri orta əsrlər Qərbi Avropa aləminə təsir göstərərək, onun renessansının meydana çıxması səbəblərindən biri olmuşlar.

Oğuz mühitində Dədə Qorqud qəhrəmanlıq eposu yaranmışdı. Bu eposun iki nüsxəsi aşkar edilmişdir. Biri Drezden kitabxanasında saxlanılır və «Dədə Qorqudun oğuz tayfaları dilində kitabı» adlanır. Bu, on iki oğuznamədən ibarətdir. İkinci kitab isə Vatikan kitabxanasında aşkar edilib, «Qazan bəyin rəvayətləri və s.» adlanır və altı oğuznamədən ibarətdir. Hər iki əlyazma XV-XVI əsrə aid edilir və daha qədim nüsxədən köçürülməsi ehtimal olunur, beləki, əsərdə təsvir olunan bir çox hadisələr kifayət qədər erkən zaman kəsiyini əhatə edir. Oğuzların şərq ərazilərində olduqları dövrdə yaradılan eposun tam təşəkkül tapması Azərbaycan və Türkiyə ərazilərində başa çatmışdır.

Eposda oğuz məişəti və ənənəsi, həm sadə adamların, həm də cəmiyyətin yuxarı təbəqələrinin məşğuliyyəti, tayfaların erkən inancları və islamı qəbul etmələri öz əksini tapmışdır. Burada qəhrəmanlar haqqında, onların əməlləri və xarakterləri, müxtəlif tayfalarla apardıqları müharibələr və əldə etdikləri qələbələrdən danışılır.

**Monqollar.** Türk basqınlarından sonra baş vermiş sonuncu müdaxilə dalğası Ön Asiyanın və Şərqi Avropanın tarixində dərin iz buraxmış monqol tayfalarının miqrasiyası və işğalları olmuşdur. Monqol etnonimi (men-u, men-va) Tan dövrü (VII-X əsrlər) Çin mənbələrindən bəllidir. Onlar hunların fəallığı dövründə baş vermiş köçlər və assimilyasiya prosesləri nəticəsində ayrılmışlar. Türklər onları tatar adlandırırdılar. Dil baxımından monqollar Altay dil ailəsinin bir qoluna mənsubdurlar.

Mərkəzi Orxon çayı sahilindəki Qaraqorumda olan monqol tayfalarının birliyi başında Temuçinin – Çingizxanın («kainatın hökmdarı») (1206-1227-ci illər) durduğu dövrdə özünü büruzə verməyə başladı. Hərçənd monqolların ordusunda döyüşçülərin sayı milyondan az idi, Çingizxanın və

oğlu Ugedeyin (1229-1241-ci illər) hakimiyyəti dövründə Çinin qərb torpaqları, Orta Asiya, Şərqi İran, Rusiya və Polşanın Almaniya sərhədlərinədək torpaqlarını tutmuş, sonralar isə Mesopotamiya və Suriyanı tutaraq çox böyük əraziləri özlərinə tabe etmişlər. Çingizxanın nəvəsi Batının hakimiyyəti illərində (1236-1255-ci illər) paytaxtı müasir Həştərxanın yaxınlığında salınmış Saray-Batı olan və rus salnamələrinə görə Qızıl Orda adlanan nəhəng dövlət yaradıldı. Bu dövlət şərq mənbələrində Cuci Ulusu kimi tanınır. Tatar-monqollar 1238-ci ildə Cənubi Qafqaza soxulub, sonralar İranı, Suriyanı, Ərəb xilafətinin paytaxtı Bağdadı (1258-ci il) tutaraq çox böyük əraziləri fəth etdilər. Onların yaratdığı nəhəng imperiya parçalanmağa başlayanda İranın, Qafqazın və Mesopotamiyanın əraziləri Hulaku xana (1258-1265-ci illər) çatdı və o, elxan («ölkənin xanı») titulunu aldı. Onun dövləti isə Elxanilər və ya Hulakular dövləti adlandırıldı.

Monqol istilaları Yaxın Şərq ərazilərində xalis siyasi xarakter daşıyırdı, etniki və dil cəhətdən buradakı əhaliyə təsir baxımından hər hansı bir böyük dəyişikliyə səbəb ola bilmədi. Gəlmə tayfalar tədricən qarışaraq müxtəlif yerli xalqlar arasında əridi.





# NƏTİCƏ

Hazırda Qafqaz, Urmiyəətrafı hövzə və Kiçik Asiyada yaşayan və dilləri elmdə türk dilləri kimi təsnif olunan əhali bu ərazilərdəki müxtəlifdilli xalqlarla qarışmışlar. Dil və etnik baxımdan bu ərazi rəngarəng idi.

Yuxarıda gətirilmiş materiallardan göründüyü kimi e.ə. III minillikldən başlayraq bu ərazilərdə, özlərinə məxsus mədəniyyətləri, adət və ənənələri olan, dil baxımından isə fərqlənən xalqlar yaşamışlar. Baş vermiş miqrasiya prosesləri, eləcə də Qədim Şərqin ayrı-ayrı hökmdarlarının siyasi fəthləri və köçürmə siyasətləri nəticəsində yerli əhali, görünür, müəyyən müddətə öz dili və mədəniyyətini saxlamaqla, gəlmələrlə qarışıq halda yaşayırdı. Tarixi şəraitdən asılı olaraq, göstərilən müqavimət, gücləri bərabər olan qüdrətli rəqiblərin toqquşmaları və ya ayrı-ayrı bölgələrin strateji baxımdan mühümlüyü nəticəsində assimliyasiya prosesi ayrı-ayrı zaman kəsiklərində fərqli baş verirdi. Bununla belə, assimilyasiyanın baş verməsinə baxmayaraq, əhali özünün müstəqilliyi və tarixi ənənələri haqqında yaddaşını qoruyub saxlamışdı ki, bu da dolayısı yolla həmin ərazilərdə haçansa baş vermiş müxtəlif hadisələrdə və yaxud da öz tarixi vətənləri, qəhrəmanları, tarixi keçmişləri və s. haqqında əsatirlərdə, əfsanə və eposlarda saxlanılmış təsvirlərdə özünü büruzə verir.

Türklərin köçündən əvvəl Hind-Avropa tayfalarının qərbdən (hett-nesilər, sonralar yunanlar və s.) və şərqdən (midiyalılar və iranlılar) göstərilən ərazilərə doğru baş vermiş miqrasiya dalğası buraya çox böyük təsir göstərmiş, amma heç də hər yerdə yerli əhalini tam səviyyədə assimilyasiya edə bilməmişdir. Siyasi cəhətdən birləşərək, daha güclü qüvvəyə

tabe olan yerli əhali, hətta yeni dillərin üstünlük təşkil etməyə başladığı yerlərədə də uzun müddət müstəqilliyə can atmış və asılılıqdan qurtarmağa çalışmışdır. Dil baxımından bir neçə dialektə parçalanan qədim hürrilərin və qafqaz dil qrupuna aid olan bir çox digər xalqların, müxtəlif samidilli xalqların törəmələri, qədim hind-avropa dilləri ailəsinin daşıyıcılarmm qalıqları burada yaşamaqda idilər, baş verən hadisələrin müasirləri olan qarışıq əhali onlarla oturaqlaşırdı. Təsadüfi deyildir ki, Midiya və Haxamanişi hökmdarları öz ərazilərini fəth olunmuş tayfaların və ya dövlət birliklərinin sərhədlərini nəzərə almaqla satraplıqlara bölürdülər. Çox hallarda bu satraplıqların başında onlar əvvəlki hökmdarları saxlayırdılar. Mərkəzi hakimiyyət zəiflədikdə isə ayrı-ayrı ərazilərin başçıları öz müstəqilliklərini elan edirdilər.

Türkdilli tayfaların buraya axmı Qədim Şərqin iri dövlətlərinin tənəzzülü və başlarının daxili işlərinə qarışdığı, yaxud da bir-birləri ilə müharibələr aparmaları ilə eyni vaxta təsadüf edir. Qədim iri imperiyalardan olan Sasanilər dövləti həm Bizansla, həm Ərəb xilafəti ilə, həm də şimal və şimali-şərq sərhədlərindən müdaxilə edən köçərilərlə mübarizədə tənəzzülə uğradı. Bu ərazilərdə mövcud olan bir çox səbəblərin – siyasi qurumların zəifliyi, iranlılarm və ərəblərin hakimiyyətindən narazılıq, dil cəhətdən əhalinin qarışıqlığı və başqa tarixi məqamların məcmusu – tarixi proseslərin nisbətən çox qısa dövr ərzində türkdilli qrupların tez və geniş şəkildə yayılmasına imkan verdi. Oğuz-səlcuq türklərinin hegemonluğunun baş tutmasında daha əvvəlki vaxtlarda bu ərazilərdə oturaqlaşmış türkdilli tayfaların da böyük rolu olmuşdur.





## ƏDƏBİYYAT


Azərbaycan tarixi. 1–2 cildlər. Bakı, 1998.

Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Ak. Z.Bünyadov və t.e.n. E.Ağayevanın tərcüməsində. Bakı, 1999.

Hüseynoğlu K. Qədim Turan: mifdən tarixə doğru. Bakı, 2006.

Qaşqay S.M. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, 2006.

Qaşqay S.M. Manna dövləti. Bakı, 1993.

Qaşqay S.M. Skiflərin Yaxın Şərqə müdaxilə yolları və Azərbaycan // AMEA Tarix İnstitutunun Elmi əsərləri. 19-cu cild. Bakı, 2007.

Mustafayev Ş. Tarixi qaynaqların işığında «Kitab-i Dədə Qorqud»un yazıya alındığı etnik və mental mühit // Azərbaycan tarixinin çağdaş problemləri. Bakı, 2000.

Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV – b.e. III əsrləri). Bakı, 1982.

Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.

Rüstəmov C.N., Muradova F.M. Qobustan petroqlifləri. 1-2, Bakı, 2003.

Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək. Bakı, 2005.

Абаев В.И. К вопросу о прародине и древних миграциях индоиранских народов // Древний Восток и Античный мир. Москва, 1972.

Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.

Акишев А. Искусство и мифология саков. Алма-Ата, 1984.

Алексеев А.Ю. Хронография Европейской скифии. Санкт-Петербург, 2003.

Алексеев В.П. Происхождение народов Кавказа. Москва, 1974.

Алексеев В.П. Этногенез. Москва, 1986.

Алиев И. История Мидии. Баку, 1960.

Алиев И. О скифском царстве в Азербайджане // Переднеазиатский сборник, 3. Москва, 1979.

Алиев И., Погребова М.Н. Об этнических процессах в областях Западного Ирана в конце II – начале I тыс. до н.э. // Этнические проблемы истории Центральной Азии в древности. Москва, 1981.

Алиев И. Очерк истории Атропатены. Баку, 1989.

Алиев И. О некоторых вопросах этнической истории Азербайджанского народа. Баку, 2002.

Алиев К. Кавказская Албания. Баку, 1974.

Амусин И.Д. Кумранская община. Москва, 1983.

Аникеева Т.А. Елементы древне-тюркской картины мира (на примере огузского героического эпоса Деде-Коркуд) // Тюркологический сборник, Москва, 2005.

Ардзинба В.Г. Некоторые проблемы наследия Хаттов в традиции Хеттского царства // Культурное наследие Востока. Ленинград, Наука, 1985.

Артамонов М.И. К вопросу о происхождении скифов // Вестник древней истории, 1950, №2.

Артамонов М.И. История Хазар. Ленинград, 1962.

Арутюнян Н.В. Биайнили. Ереван, 1970.

Асланов Г., Ибрагимов Б., Кашкай С. Древние некрополи Хараба-Гилана. Баку, 2002.





Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959.

Афанасьева В.К. От начала начал. Антология шумерской поэзии. Санкт-Петербург, 1997.

Ахундов Т.И., Махмудова В.А. Южный Кавказ в кавказско-переднеазиатских этнокультурных процессах IV тыс. до н.э. Баку, 2008.

Ахундова Н. Тюрки в системе государственного управления Арабского халифата. Баку, 2004.

Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990.

Бабаев И.А., Казиев С.М. Кабалинский клад монет эллинистической эпохи // Нумизматика и эпиграфика, т. IX, 1971.

Белицкий М. Забытый мир шумеров. Москва, 1980.

Бернштам А.Н. Очерк истории гуннов. Ленинград, 1951.

Бойс М. Зороастрийцы: верования и обычаи. Москва, 1987.

Бонгард-Левин Г.М., Грантовский Э.А. От Скифии до Индии. Москва, 1974.

Буниятов З. Азербайджан в VII- IX вв. Баку, 1965.

Вердиева Х., Гусейн-заде Р. “Родословная” армян и их миграция на Кавказ с Балкан. Баку, 2003.

Вильхельм Г. Древний народ хурриты. Москва, 1992.

Виноградов В.Б. О скифских походах через Кавказ (по письменным источникам) // Труды Чечено-Ингушского НИИ, т. 9. Грозный, 1964.

Виноградов В.Б. Сарматы Северо-восточного Кавказа. Грозный, 1963.

Гаджиев Д.В., Гусейнов М.М. Первая для СССР находка

ашельского человека (Азербайджан, Азыхская пещера) // Ученые записки Азгосмединститута, 1970, т. 31.

Гамкрелидзе Т.В., Иванов В.В. Индоевропейский язык и индоевропейцы. Т. 1-2, Тбилиси, 1984.

Герни О.Р. Хетты. Москва, 1987.

Геродот. История. Перевод Г.А.Стратановского. Ленинград, 1972.

Гиршман Р. Иран и миграция индоарийцев и иранцев // Этнические проблемы истории Центральной Азии в древности. Москва, 1981.

Грантовский Э.А. Иран и иранцы до Ахеменидов. Москва, 1998.

Грантовский Э.А. О хронологии пребывания киммерийцев и скифов в Передней Азии // Российская археология, 1994, №3.

Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва, 1970.

Гумилев Л. Н. Хунну. Москва,1960.

Гумилев Л.Н. Древние тюрки. Москва, 1967.

Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку, Азернешр, 1991.

Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 1985.

Дадашева С.А. Основные черты денежного обращения Кавказской Албании // Вестник древней истории, 1976, № 4.

Дандамаев М.А. Месопотамия в ахеменидский период: симбиоз тысячелетних и новых государственных институтов // Государство на Древнем Востоке. Москва, 2004.

Дандамаев М.А. Политическая история Ахеменидской державы. Москва,1985.





Дандамаева М.М. Понятия “Ассирия”, “Вавилония”, “Месопотамия” в античной традиции // История и языки Древнего Востока: Памяти И.М.Дьяконова. Санкт-Петербург, 2002.

“Деде Коркуд”, перевод акад. В.В.Бартольда, подг. к печати Г.Араслы, М.Г.Тахмасиб. Баку, 1973.

Джафарзаде И.М. Гобустан. Баку, 1973.

Джафаров А.К. Мустьерская культура Азербайджана (по материалам Тагларской пещеры). Баку, 1983.

Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку, 1985.

Древняя Эбла (Раскопки в Сирии). Сб. под ред. П.Маттиэ. Москва, 1985.

Дунаевская И.М. О характере и связях языков древней Малой Азии // Вопросы языкознания, 1964.

Дунаевская И.М. Принципы структуры хаттского (протохеттского) глагола // Переднеазиатский сб. Москва, 1961.

Дьяконов И.М. Алародии (хурриты, урарты, кути, чеченцы, дагестанцы) // Алародии (этногенетические исследования). Махачкала, 1995.

Дьяконов И.М. История Мидии. Москва-Ленинград, 1956.

Дьяконов И.М. Некоторые лингвистические данные к проблеме связей населения Восточного Кавказа и Закавказья с Древним Востоком в III-I тыс. до н.э. (Тезисы). Баку, 1966.

Дьяконов И.М. О прародине носителей индоевропейских языков // Вестник древней истории, № 3, 1982.

Дьяконов И.М. Предыстория армянского народа. Ереван, 1968.

Дьяконов И.М. Хетты, фригийцы, армяне // Переднеазиатский сборник, Москва, 1961.

Дьяконов И.М. Языки древней Передней Азии. Москва, 1967.

Дьяконов И.М., Старостин С.А. Хуррито-урартские и восточно-кавказские языки // Древний восток. Этнокультурные связи. Москва, 1988.

Заблоцка Ю. История Ближнего Востока в древности. Москва, 1989.

Ибрагимов Б., Кашкай С., Медведская И. Раскопки некрополя Пловдаг II // Эдубба вечна и постоянна.Материалы конференции посвященной 90-летию со дня рождения И.М.Дьяконова. Санкт-Петербург, 2005.

Иванчик А.И. Киммерийцы. Москва, 1996.

Истрин В.А. Развитие письма. Москва, 1961.

Канева И.Т. Шумерский язык. Сакт-Петербург, 2006.

Кашкай М.С., Селимханов И.Р. Из истории металлургии Кавказа. Баку, 1973.

Кашкай С.М. Нахичеванская зона в период урартских завоеваний // История и языки Древнего Востока: Памяти И.М.Дьяконова. Санкт-Петербург, 2002.

Клейн Л.С. Археологические признаки миграций // IX Международный конгресс антропологических и этнографических наук (Чикаго, сентябрь, 1973). Москва, 1973.

Клейн Л.С. Индоарии и скифский мир: общие истоки идеологии // Народы Азии и Африки. 1987, №5.

Климов Г.А. Кавказские языки. Москва, 1965.

Кляшторный С.Г., Султанов Т.И. Государства и народы евразийских степей. Санкт-Петербург, 2004.

Короглы Х. Огузский героический эпос. Москва, 1976.

Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку, 1985.





Крамер С.Н. История начинается в Шумере. Москва, 1991.

Крупнов Е.И. Древняя история Северного Кавказа. Москва, 1960.

Крупнов Е.И. О походах скифов через Кавказ // Вопросы скифо-сарматской археологии. Москва, 1954.

Кузьмина Е.Е. Происхождение индоиранцев в свете новейших археологических данных // Этнические проблемы истории Центральной Азии в древности. Москва, Наука, 1981.

Куклина И.В. Этногеография Скифии по античным источникам. Ленинград, 1985.

Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, 1941.

Кушнарева К.Х. Южный Кавказ в IX-II тыс. до н.э. Санкт-Петербург, 1993.

Кычанов Е.И. Кочевые государства от гуннов до маньчжуров. Москва, 1997.

Кьера Э. Они писали на глине. Москва, 1984.

Липин Л., Белов А. Глиняные книги. Ленинград, 1956.

Литвинский Б.А. Древние кочевники Крыши мира. Москва, 1972.

Лордкипанидзе О.Д. Древняя Колхида. Тбилиси, 1979.

Луконин В.Г. Древний и раннесредневековый Иран. Москва, 1987.

Маккуин Дж.Г. Хетты и их современники в Малой Азии. Москва,1983.

Мамедов Т.М. Албания и Атропатена, Баку, 1977.

Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. Баку, 2003.

Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании. Баку, 1985.

Меликишвили Г.А Наири-Урарту. Древневосточные материалы по истории народов Закавказья. Тбилиси, 1954.

Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси, 1959.

Меликов Р. Этническая картина Азербайджана в период Ахеменидского владычества (VI-IV вв. до н.э.). Баку, 2003.

Мерперт Н.Я. Миграция в эпоху неолита и энеолита // Вестник древней истории, 1978, №3.

Мизиев И.М. Шаги к истокам этнической истории Центрального Кавказа. Нальчик, 1986.

Мирзоев М.Н. Вавилония в период господства касситской династии (XVI-XII вв. до н.э.). Автореферат на соискание ученой степени кандидата исторических наук. Баку, 1995.

Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва, 1975.

Мурзин В.Ю. Происхождение скифов: основные этапы формирования скифского этноса. Киев, 1990.

Мусхелишвили Д.Л. Из исторической географии Восточной Грузии. Тбилиси, 1982.

Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.

Османов Ф.Л. История и культура Кавказской Албании. Баку, 2006.

Очерки Истории Грузии. Т.1, Тбилиси, 1989.

Палеолит СССР. Москва, 1964.

Пиотровский Б.Б. Ванское царство. Москва, 1959.

Плетнева С.А. Хазары. Москва, 1976.

Погребова М.Н. К вопросу о миграциях ираноязычных племен в Восточном Закавказье в доскифскую эпоху // Советская археология, № 2, 1977.





Погребова М.Н., Раевский Д.С. Ранние скифы и Древний Восток. Москва, 1992.

Пьянков И.В. К вопросу о путях проникновения ираноязычных племен в Переднюю Азию // Переднеазиатский сборник. Москва, 1979.

Рагимова М.Н. Из истории использования свинца в древнем и средневековом Азербайджане. Баку, 1978.

Раджабли А. Нумизматика Азербайджана. Баку, 1977.

Радлов В.В. Сибирские древности. Т.1-2. СПБ, 1888-1902.

Раевский Д.С. Очерки идеологии скифо-сакских племен. Москва, 1977.

Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Баку, 1993.

Смирнов К.Ф. Савроматы. Москва, 1964.

Степи Евразии в эпоху средневековья. Москва, 1981.

Страбон. География. Пер. Г.А.Стратановского. Москва, 1964.

Струве В.В. История древнего Востока. Ленинград, 1941.

Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. Москва-Ленинград, 1959.

Фридрих И. Дешифровка забытых письмен и языков. Москва, 1961.

Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э.- III в. н.э.). Баку, 1985.

Хинц В. Государство Элам. Москва, 1977.

Циркин Ю.Б. Финикийский мир и арамейские государства Сирии // Государство на Древнем Востоке. Москва, 2004.

Шифман И.Ш. Финикийские мореходы. Москва, 1965.

Шифман И.Ш. Социально-политическое развитие древнего Переднеазиатского Средиземноморья (до эпохи домината) // Государство на древнем Востоке. Москва, 2004.

Энеолит СССР. Москва, 1982.

Юсифов Ю.Б. Элам. Социально-политическая история. Москва, 1968.

Янковская Н.Б. Клинописные тексты из Кюль-тепе в собраниях СССР. Москва, 1968.

Якобсон В.А. Месопотамия в XVI-XI вв. до н.э. // История древнего мира. 1. Ранняя древность. Москва, 1982.

Якобсон В.А. Становление империи и имперской идеологии в древней Месопотамии // Государство на Древнем Востоке. Москва, 2004.

Balkan K. Kassitenstudien. Vol. VI. New-Haven, 1954.

Burton-Brown T. Excavations in Azabaijan. 1948. London, 1951.

Diakonoff Igor M., Kashkai S.M. Geographical Names According to Urartian texts // Répertoire Géographique de Texts Cunéiformes. Band 9, Wiesbaden, 1981.

Dyson R.H. and Voigt Mary M. East of Assyria // The Highland Settlement of Hasanlu Expedition, vol. 31, nos.2-3, 1989 (в журнале имеются и другие обобщающие статьи на основе раскопанного в Хасанлу материала).

Ghirshman R. Invasions des nomades sur le Plateau Iranien aux premiers siecles du I millenaire avant J.C. // Dark Ages and Nomads. Istanbul, 1964.

Ghirshman R. L'Iran et la migration des Indo-Aryens et des Iraniens. Leiden, 1977.

Giorgadze G.G. Ethnic processes in Ancient Near East and the Caucasus // Caucasica, 1, 1998.





Hintze Almut. The Migrations of Indo-Iranians and Iranian Sound-Change s > h sprache und Cultur der Indogermanen. Insbruck, 1998.

Jacobsen Jh. The Sumerian King List. Chicago, 1939.

Khol Philip L. Migrations and Cultural Diffusions in the Later Prehistory of the Caucasus // Migration und Kulturtrasfer Der Wander – und zentralasiatischer Kulturen im Umbruch vom 2 zum 1 vorchriftlichen Jahrtausend Akten des Internationalen kolloquiums. Berlin, 23, bis 26. November 1999. Dr.Rudolf Habelt Gmb H. Bonn, 2001.

Klengel H. Lullubum. Ein Beitrag zur Geschichte der Altvorderasiatischen Gebirgsvolker // Mitteilungen des Institute fur Orientforschung, 1966, XI, 3.

Lloyd S. Early Highland peoples of Anatolia. The Phrygians. Leiden, 1967.

Muscarella O. Excavations at Dinkha-Tepe, 1966 // The Metropolitan Museum of Art Bulletin. Vol.27, November 1968.

Rothman M.S. Transcaucasians: settlement, migration and trade in the Kuro-Araxes periods // Archaologische Mitteilungen aus Iran und Turan. Band 37, Berlin, 2005.

Sulimirski T. Scythian Antiquities in Western Asia // Artibus Asiae, 1954, XVII.

Tokhtas'ev Sergej. Die Kimmerier in der Überlieferung // Hiperboreus, vol.2, fasc.1, 1966.

Vallat François. Les nom géographiques des sources susoélamites. Répertoire géographique, band 11. Wiesbaden, 1993.

Young C. The Iranian Migration into the Zagros // Iran, 1967.

## MÜNDƏRİCAT

Giriş ........ 3

Cəmiyyətin maddi-mədəniyyət cəhətdən keçdiyi mərhələlər ........ 5

Dillər haqqında ümumi məlumat ........ 14

Yazı sisteminin yaranması və öyrənilməsi ........ 19

Yazılı mənbələrdə təsvir olunan tayfalar və ölkələr:

Şumerlər ........ 26

Samidilli tayfaların yayılması: Akkad ........ 33

Kutilər ........ 34

Lullubu(m) ........ 35

Elam ........ 36

Ebla ........ 37

Hürrilər və Mittanni dövləti ........ 38

Amorilər. Babil ........ 42

Kassilər ........ 43

Assuriya ........ 44

Assuriya və Babilin yeni yüksəlişi ........ 45

Urartu ........ 49

Manna ........ 53

Cənubi Qafqaz tayfaları ........ 56





Kiçik Asiyanın qədim tayfaları. Hattlar ........ 58

Hettlər-nesilər ........ 63

Aralıq dənizinin şərq sahillərində baş verən tarixi proseslər:

Fələstin. İsrail. İordaniya. Finikiya ........ 66

E.ə. I - b.e. I minilliklərində xalqlar və ölkələr:

Aramilər ........ 71

Midiyalılar, parslar, skiflər ........ 77

Haxamanişilər və ellinizm dövrü ........ 80

Atropatena. Albaniya ........ 84

Sasanilər dövrü və ərəblər ........ 89

Türkdilli tayfalar ........ 92

Monqollar ........ 103

Nəticə ........ 104

Ədəbiyyat ........ 107

*Qaşqay Solmaz Mirtağı qızı*

*Ön Asiyada miqrasiya proseslərinə dair*


Kompüter yığımı: Ruqiyə Talıbova
Kompüter dizaynı: Aynur Məhərrəmli

Yığılmağa verilmişdir: 15.03.2009
Çapa imzalanmışdır: 5.04.2009
Sifariş: № 108
Formatı: 60/84 – $^1/_{16}$. Həcmi: 7,5 ç.v. Tirajı: 500

Kitab AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi İnformasiya şöbəsində yığılıb-səhifələnmiş

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.